# 20 SENTYABR DÖVLƏT SUVERENLİYİ GÜNÜDÜR

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 201 (9946) 20 sentyabr 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycanın yeni neft-qaz strategiyasının təməl daşı



"Əsrin müqaviləsi"nin imzalandığı vaxt torpaqlarının 20 faizi işğal altında olan Azərbaycan dünyada riskli ölkə sayılırdı. Belə bir vəziyyətdə xarici neft şirkətlərini inandırmaq, onları Azərbaycana sərmayə qoymağa cəlb etmək mürəkkəb məsələ idi. Ölkənin xəzinəsinin boş olması isə xarici investisiyanın cəlb edilməsini gündəmə gətirmiş, demək olar ki, zərurətə çevirmişdi.

Məhz belə çətin dövrdə Ulu Öndər Heydər Əliyev növbəti tarixi missiyasını yerinə yetirdi. Ümummilli Liderin uzaqgörənliyi, səyi və mübarizəsi, dünyadakı siyasi nüfuzu sayəsində Azərbaycanın yeni neft strategiyasının təməl daşı olan "Əsrin müqaviləsi" imzalandı. Bu da bir həqiqətdir ki, keçmiş sovet respublikaları arasında xarici neft şirkətləri ilə beynəlxalq müqavilə imzalayan ilk dövlət məhz Azərbaycan olub. Başqa sözlə, "Əsrin müqaviləsi" postsovet məkanında xarici neft şirkətləri ilə imzalanan ilk beynəlxalq sazişdir.

AÇG-nin işlənməsi bir neçə mərhələdə həyata keçirilib. Belə ki, "Çıraq" yatağından hasilat İlkin Neft Layihəsi (İNL) çərçivəsində 1997-ci ildən başlanıb. Bunun ardınca "Azəri" layihəsinin birinci mərhələsi - "Mərkəzi Azəri" gəlir. Buradan hasilat 2005-ci ilin əvvəlində başlanıb. Sonrakı ikinci faza - "Qərbi Azəri" və "Şərqi Azəri" platformalarını əhatə edib. Onlardan isə hasilat müvafiq olaraq 2005-ci ilin dekabrında və 2006-cı ilin axırlarında alınıb. AÇG-nin işlənməsinin növbəti üçüncü fazası çərçivəsində "Dərinsulu Günəşli" platformasından hasilat 2008-ci ilin aprelində başlanıb. Həmin fazalardan sonra "Qərbi Çıraq" platformasını əhatə edən "Çıraq Neft Layihəsi" reallaşıb. Bu platformadan ilk neft 2014-cü il yanvarın 28-də əldə edilib. AÇG yataqlarının işlənməsi ilə əlaqədar ən sonuncu layihə "Azəri Mərkəzi Şərqi"dir (ACE). Bu layihə AÇG-nin müddətinin 2050-ci ilə qədər uzadılması barədə Prezident İlham Əliyevin iştirakı ilə 2017-ci il sentyabrın 14-də imzalanmış yeni sazişə - "Yeni əsrin müqaviləsi"nə əsasən işlənir. Layihəyə 2019-cu ildə sanksiya verilib. Bundan sonra tikilən ACE platformasından ("Yeni əsrin müqaviləsi" çərçivəsində) ilk neft keçən il aprelin 16-da çıxarılıb.

4

# Prezidentin sərəncamına əsasən...



20 SENTYABR DÖVLƏT SUVERENLİYİ GÜNÜDÜR

RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN

XÜSUSİ BURAXILIŞ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

"DƏMİR YUMRUQ" və SİYASƏT

İlham Əliyev istədiklərinə bir-bir və tələsmədən nail olur

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasında 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan edilmişdir. Prezident İlham Əliyevin 11 fevral 2025-ci il tarixli sərəncamı ilə isə "Konstitusiya və Suverenlik İli" ilə bağlı tədbirlər planı təsdiq edilmişdir. Tədbirlər planının 13-cü bəndinə əsasən, "Azərbaycan" qəzeti redaksiyası bununla bağlı xüsusi buraxılış hazırlamışdır. Xüsusi buraxılış qəzetin 20 sentyabr 2025-ci il tarixli sayı ilə birgə oxuculara təqdim olunur.

# Azərbaycan Prezidenti Dövlət Suverenliyi Günü ilə bağlı paylaşım edib




## "Formula-1": Lando Norris Azərbaycan Qran-prisinin ilk sərbəst yürüşündə birinci olub

"Formula-1" Azərbaycan Qran-prisində birinci sərbəst yürüş baş tutub.

AZƏRTAC xəbər verir ki, yürüşdə hər biri iki pilotdan ibarət 10 komanda mübarizə aparıb.

Gərgin idman mübarizəsi şəraitində keçən yürüşdə "McLaren"in britaniyalı pilotu Lando Norris birinci olub.

Norrisin komanda yoldaşı, avstraliyalı Oskar Piastri ikinci, "Ferrari"nin monakolu sürücüsü Şarl Lekler üçüncü pillədə yer alıb.



## "Formula-1": İkinci sərbəst yürüşdə Luis Hemilton qalib gəlib

"Formula-1" Azərbaycan Qran-prisində ikinci sərbəst yürüş baş tutub.

AZƏRTAC xəbər verir ki, yürüşdə hər biri iki pilotdan ibarət 10 komanda mübarizə aparıb.

Gərgin idman mübarizəsi şəraitində keçən yürüşdə "Ferrari"nin britaniyalı pilotu Luis Hemilton birinci olub.

Onun komanda yoldaşı, monakolu sürücü Şarl Lekler ikinci, "Mercedes"də çıxış edən britaniyalı Corc Rassell üçüncü yeri tutub.

# Azərbaycanın yəhudi icmasına

Hörmətli həmvətənlər!

Sizi yəhudi xalqının yeni il bayramı - Roş ha-Şana münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Tarixən mütərəqqi tolerantlıq ənənələrinin və yüksək birgəyaşayış mədəniyyətinin hökm sürdüyü Azərbaycanda yəhudi icmasının özünəməxsus yeri vardır. Bu gün cəmiyyətimizin ayrılmaz hissəsi olan yəhudilər yüz illərdir ki, digər xalqların və konfessiyaların nümayəndələri ilə birlikdə əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində yaşayırlar.

Müasir dünyamızda Azərbaycan antisemitizmin, ksenofobiya və etnik-dini dözümsüzlüyün mövcud olmadığı nadir məkanlardan biridir. Mədəni müxtəlifliyin qorunub saxlanılması, etnik azlıqların dil və mədəniyyətinin inkişafı, multikultural dəyərlərin təşviqi Azərbaycanda həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Yəhudiəsilli vətəndaşlarımız ictimai-siyasi həyatın bütün sahələrində yaxından iştirak edir, cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin daha da gücləndirilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işinə layiqli töhfələr verirlər.

Roş ha-Şana yeniliyin, mənəvi saflığın, xeyirxahlıq və həmrəylik duyğularının rəmzidir. Bu əziz gündə bir daha hər birinizə bayram təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 sentyabr 2025-ci il*

# Avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınması sahəsinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınmalarının dayanıqlılığının və davamlılığının, sərnişinlərə göstərilən xidmətlərin keyfiyyətinin və təhlükəsizliyinin təmin olunması, qabaqcıl beynəlxalq tələblər və təcrübə nəzərə alınmaqla bu sahədə fəaliyyət göstərən daşıyıcıların işinin səmərəli təşkili məqsədilə "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası dövlət büdcəsinin tərkibində "İctimai nəqliyyat" Məqsədli Büdcə Fondu (bundan sonra - Fond) yaradılsın.

2. Müəyyən edilsin ki:

2.1. Fond aşağıdakı mədaxil mənbələri hesabına formalaşır:

2.1.1. avtomobil benzininin, dizel yanacağının və maye qazın hər litrinə görə yol vergisinin Fonda köçürülən hissəsi;

2.1.2. nəqliyyat vasitələrinin Bakı şəhərinin inzibati ərazisində müəyyən edilmiş ödənişli hərəkət zonalarına daxil olmasına görə ödənilən haqq;

2.2. Fondun vəsaitinin dövlət büdcəsi tərkibində təsdiq olunmuş xərclər dairəsində sərəncamçısı Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyidir;

2.3. Fondun vəsaitindən "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun və dövlət xəzinədarlığı sahəsində digər normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla Bakı, Sumqayıt, Gəncə, Naxçıvan, Xankəndi şəhərlərinin və Abşeron, Ağdam, Şuşa, Laçın rayonlarının inzibati ərazilərində aşağıdakı tələblərə cavab verən nağdsız ödəniş sisteminə keçirilmiş nəqliyyat vasitələri ilə müntəzəm sərnişin daşınmalarını həyata keçirən hüquqi şəxslərə və ya fərdi sahibkarlara bu Fərmanın 4.2-ci bəndinə uyğun olaraq subsidiya ödənilməsi üçün istifadə edilir:

2.3.1. sıxılmış təbii qazla işləyən mühərriklə təchiz edilmiş avtobuslar;

2.3.2. elektrik mühərriki ilə təchiz edilmiş avtobuslar;

2.3.3. Gəncə şəhərinin inzibati ərazisinə münasibətdə həmçinin istehsal tarixi 2025-ci il yanvarın 1-dən sonra olan dizel mühərrikli avtobuslar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu Fərmanın 2.1.2-ci yarımbəndinə uyğun olaraq, Bakı şəhərinin inzibati ərazisində ödənişli hərəkət zonaları və nəqliyyat vasitələrinin həmin zonalara daxil olmasına görə haqqın məbləği ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. bir ay müddətində aşağıdakı normativ hüquqi aktları təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

3.2.1. bu Fərmanın 2.3-cü bəndində göstərilən inzibati ərazilərdə avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınmalarını həyata keçirən daşıyıcılarla bağlanılan avtomobil nəqliyyatı xidməti haqqında müqavilənin şərtlərini;

3.2.2. bu Fərmanın 4.2-ci bəndinə uyğun olaraq, daşıyıcılara ödəniləcək subsidiyanın hesablanması və ödənilməsi qaydasını;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (bundan sonra - Nazirlik):

4.1. 2026-cı il yanvarın 1-dən bu Fərmanın 2.3-cü bəndində göstərilən inzibati ərazilərdə müntəzəm sərnişin daşınmalarına ehtiyacın və əlçatanlığın təmin edilməsi, sərnişin axınının intensivliyi və ya avtomobil nəqliyyatı xidmətinin davamlılığı nəzərə alınmaqla, Nazirliyin tabeliyindəki Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (bundan sonra - Agentlik) müəyyən etdiyi marşrutlar üzrə daşıyıcıların avtomobil nəqliyyatı ilə müntəzəm sərnişindaşıma xidmətləri göstərməsi nəticəsində yaranan xərclərinin kompensasiya olunmasını nəzərdə tutan məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinin tətbiqinə başlasın və bu prosesi 2028-ci il yanvarın 1-dək başa çatdırsın;

4.2. Agentlik və avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınmalarını həyata keçirən daşıyıcılar arasında bağlanılan avtomobil nəqliyyatı xidməti haqqında müqaviləyə əsasən daşıyıcılar tərəfindən göstərilən avtomobil nəqliyyatı xidmətinə görə hesablanan dəyərlə həmin xidmət üçün təsdiq edilmiş gediş haqqına uyğun olaraq sərnişinlərin ödənişlərindən toplanan vəsait arasında mənfi fərq yarandığı təqdirdə, həmin fərq məbləğində Fondun vəsaiti hesabına daşıyıcılara subsidiya ödənilməsini təmin etsin;

4.3. bu Fərmanın 4.2-ci bəndi nəzərə alınmaqla, avtomobil nəqliyyatı xidməti haqqında müqavilənin bağlanılması üçün müntəzəm marşrutlar üzrə avtomobil nəqliyyatı xidməti göstərəcək avtomobil nəqliyyatı vasitələrinə dair tələbləri bir ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.4. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

5. Bu Fərmanın 2.1.1-ci yarımbəndi 2026-cı il yanvarın 1-dən, 2.1.2-ci yarımbəndi isə 2027-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 sentyabr 2025-ci il*

# Ruanda Prezidenti Pol Kaqame Azərbaycana rəsmi səfərə gəlib

**Ruanda Respublikasının Prezidenti Pol Kaqame sentyabrın 19-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Ruanda Respublikasının Prezidentini Azərbaycanın Baş nazirinin müavini Samir Şərifov, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və digər rəsmi şəxslər qarşıladılar.

# İkitərəfli münasibətlərin inkişafında parlamentlərarası əməkdaşlığın gələcək perspektivləri müzakirə olunub

## Milli Məclisin Sədri Sahibə Qafarova Malayziya Parlamenti Senatının Sədri ilə görüşüb

**Sentyabrın 19-da Milli Məclisin Sədri Sahibə Qafarova Malayziya Parlamenti Senatının Sədri Avanq Bemi Bin Avanq Ali Basah ilə görüşüb.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, ölkələrimiz və parlamentlərimiz arasındakı münasibətlərin mövcud səviyyəsindən məmnunluğunu bildirən Senatın Sədri, Azərbaycan parlamentinin spikerinin bu səfərinin ölkələrimiz arasında əlaqələrin inkişafına töhfə verəcəyinə inandığını qeyd edib. O, parlamentlərimizin AİPA kimi beynəlxalq parlamentlərarası əməkdaşlıq platformalarında birgə fəaliyyətini yüksək qiymətləndirib.

Milli Məclisin Sədri Sahibə Qafarova parlament diplomatiyasının əhəmiyyəti, parlamentarilərimizin beynəlxalq təşkilatlarda əməkdaşlığı, insanları narahat edən problemlərin həllində parlamentlərin rolu barədə fikirlərini bildirib.

Söhbət zamanı ikitərəfli münasibətlərin inkişafında parlamentlərarası əməkdaşlığın gələcək perspektivləri müzakirə olunub, beynəlxalq platformalarda əməkdaşlığın əhəmiyyəti vurğulanıb. Qanunverici orqanlarımızın həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament təşkilatlarında uğurlu əməkdaşlığından məmnunluq ifadə edilib.

Milli Məclisin spikeri Azərbaycanın son illərdə müxtəlif sahələrdə əldə etdiyi nailiyyətlər barədə söz açaraq, hazırda işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən nəhəng bərpa və quruculuq işləri barədə də məlumat verib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Parlamentlərarası platformalar ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələlərini müzakirə etmək üçün gözəl imkanlar yaradır

## Milli Məclisin Sədri Sahibə Qafarova Malayziya Parlamenti Nümayəndələr Palatasının Sədri ilə görüşüb

**Sentyabrın 19-da Milli Məclisin Sədri Sahibə Qafarova Malayziya Parlamenti Nümayəndələr Palatasının Sədri Tan Sri Dato Johari Bin Abdul ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Nümayəndələr Palatasının Sədri Milli Məclisin Sədrini səmimiyyətlə salamlayaraq, Azərbaycan parlament nümayəndə heyətinin AİPA-nın 46-cı Baş Assambleyasında iştirakına görə təşəkkürünü bildirib. O, bu cür parlamentlərarası platformaların ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələlərini müzakirə etmək üçün gözəl fürsət olduğunu diqqətə çatdırıb.

Söhbət zamanı parlamentlərimizin beynəlxalq təşkilatlarda əməkdaşlığından məmnunluq ifadə olunub, xüsusilə də Qoşulmama Hərəkatı Parlament Şəbəkəsində birgə fəaliyyət üçün geniş imkanların olduğu qeyd edilib.

Azərbaycan və Malayziyanın qanunvericilik orqanlarının parlamentlərarası təşkilatlar çərçivəsində əməkdaşlığından danışan Sahibə Qafarova, bu baxımdan AİPA-nın 46-cı Baş Assambleyasının əhəmiyyətini qeyd edib.

Görüşdə Azərbaycan və Malayziya parlamentləri arasında əməkdaşlığın gələcək perspektivlərindən danışılıb, bu cür görüşlərin və aparılan danışıqların parlamentlərimiz arasında uğurlu əlaqələri təsdiq etdiyi qeyd olunub.

Söhbət zamanı Milli Məclisin Sədri Cənubi Qafqaz regionunda gedən proseslər, Azərbaycan torpaqlarının işğaldan azad olunması, hökumətimiz tərəfindən Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı yenidənqurma işləri haqda məlumat verib.

Spiker Sahibə Qafarova eyni zamanda Azərbaycan Respublikası Prezidentinin Vaşinqtona son işgüzar səfəri kontekstində Azərbaycan-Ermənistan sülh prosesi haqda fikirlərini bölüşüb.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova Kuala Lumpur şəhərinin meri, BMT-nin Məskunlaşma Proqramının sabiq icraçı direktoru Maimuna Mohd Şərif ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova Malayziyaya səfəri çərçivəsində sentyabrın 19-da bu ölkənin paytaxtı Kuala Lumpur şəhərinin meri, BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) sabiq icraçı direktoru Maimuna Mohd Şərif ilə görüşüb.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycan ilə Malayziya arasında dost münasibətlərinin olduğu qeyd edilib.

Milli Məclisin Sədri səfər çərçivəsində keçirilən tədbirlər və görüşlər barədə məlumat verərək, bu kimi təmasların ölkələrimiz və parlamentlərimiz arasında əlaqələrin daha da genişləndirilməsi baxımından əhəmiyyətini qeyd edib.

Kuala Lumpur şəhərinin meri Azərbaycana səfərlərini, Prezident İlham Əliyevlə görüşlərini xatırladaraq, ölkəmiz və paytaxt Bakının inkişafı ilə bağlı müsbət təəssüratlarını bölüşüb. O, BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru kimi Ağdam və Zəngilanda milli şəhərsalma forumlarının keçirilməsini qeyd edib. Maimuna Mohd Şərif Ağdam, Zəngilan, Fizulidə qısa müddət ərzində görülən işləri, həyata keçirilən infrastruktur layihələrini çox yüksək qiymətləndirib.

Söhbət zamanı Bakı və Kuala Lumpur arasında gələcək əməkdaşlıq perspektivlərinə toxunulub.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Ailə, qadın və uşaq məsələləri komitəsinin payız sessiyasında ilk iclası keçirilib

**Sentyabrın 19-da Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin cari ilin payız sessiyasında ilk iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Hicran Hüseynova iclası açaraq qarşıdakı sessiyada komitə üzvlərinə fəaliyyətlərində uğurlar diləyib və gündəliyə 3 məsələnin daxil edildiyini bildirib.

Komitə sədri əvvəlcə 2025-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə Ailə, qadın və uşaq məsələləri komitəsində görülən işlər barədə məlumat verib. Bildirilib ki, ötən sessiya ərzində komitənin 7 iclası keçirilib, 12 məsələ müzakirə edilib. Bununla yanaşı, komitəyə vətəndaşlardan, idarə və təşkilatlardan daxil olan 300-ə yaxın müraciətə baxılıb və müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti dövlət qurumlarına göndərilib. Ötən sessiya dövründə komitədə dinləmələr keçirilib, habelə deputatların beynəlxalq tədbirlərdə iştirakı baş tutub.

Sonra Hicran Hüseynova Ailə, qadın və uşaq məsələləri komitəsinin qarşıdakı payız sessiyası üçün iş planının layihəsini təqdim edib. Diqqətə çatdırılıb ki, iş planında qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanun layihələrinin müzakirəsi, komitənin fəaliyyət sahəsi çərçivəsində ictimai dinləmələrin təşkili, vətəndaşlarla görüşlərin keçirilməsi və digər məsələlər öz əksini tapıb.

Komitə sədri iclasın son məsələsini - "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" qanunda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə layihəni diqqətə çatdırıb. Bildirilib ki, layihə artıq qanunvericilikdə təsbit olunan uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalarla bağlı müddəalara uyğunlaşdırma xarakterlidir. Belə ki, qanunvericilikdə yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların adı dəyişdirilərək uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar kimi müəyyən edilib. Həmçinin komissiyaların səlahiyyətlərində müəyyən dəyişikliklər olunub.

Gündəlikdəki məsələlərin müzakirəsində komitə sədrinin müavini Jalə Əliyeva, komitə üzvləri Tamam Cəfərova, Mehriban Vəliyeva, Pərvin Kərimzadə, Səbinə Xasayeva, Sevinc Hüseynova, Günay Ağamalı, İlham Məmmədov, Müşfiq Məmmədli və Könül Nurullayeva çıxış edərək rəy və təkliflərini bildiriblər.

İclasda komitənin ötən sessiya dövründə gördüyü işlər barədə hesabatı məqbul hesab olunub, qarşıdakı sessiya üçün iş planı təsdiqlənib, qanun layihəsi baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

***"Azərbaycan"***

# Milli Məclisdə Dövlət Suverenliyi Gününə həsr olunmuş konfrans keçirilib



**Sentyabrın 19-da Milli Məclisdə “Konstitusiya və Suverenlik İli” çərçivəsində Dövlət Suverenliyi Gününə həsr olunmuş konfrans keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, konfransda Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov, Milli Məclisin komitə və komissiyalarının sədrləri və sədr müavinləri, parlament Aparatının rəhbəri Fərid Hacıyev, aidiyyəti qurumların təmsilçiləri və digər rəsmi şəxslər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov konfransın Milli Məclisin Sədri Sahibə Qafarovanın təşəbbüsü ilə keçirildiyini bildirib və iştirakçılar adından ona minnətdarlığını ifadə edib.

Parlamentin vitse-spikeri 2024-cü il dekabrın 28-də Prezidentin müvafiq sərəncamı ilə Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edildiyini nəzərə çatdırıb. O, bunun Azərbaycan Konstitusiyasının 30 illiyi və Vətən müharibəsində qələbəmizin 5 illiyi ilə əlaqədar olduğunu söyləyib. Bu gün Azərbaycan xalqının onun ülvi arzusu olan müstəqil, suveren dövlətə sahib olduğunu qeyd edib.

Ziyafət Əsgərov Azərbaycanın ilk milli konstitusiyasının 1995-ci ildə, ondan öncə - 1991-ci ildə isə “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktının qəbul edildiyini və orada milli konstitusiyanın hazırlanması ilə bağlı müddəanın əks olunduğunu bildirib. O qeyd edib ki, 1995-ci ildə Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiya yaradılıb. İlk milli konstitusiyamızın əsas qayəsini hər bir Azərbaycan vətəndaşının hüquq və azadlıqlarının təsbit olunması və müdafiəsi təşkil edir. Vitse-spiker həmçinin 2002, 2008, 2016-cı illərdə konstitusiyaya əlavə və dəyişikliklərin edilməsi ilə bağlı referendumların keçirildiyini, orada təsbit olunan müddəalarda vətəndaşların hüquqlarının müdafiəsinin daha da möhkəmləndirilməsi, məhkəmə islahatları və digər zəruri məsələlərin əks olunduğunu diqqətə çatdırıb. Konstitusiyamıza əsasən, hakimiyyətin mənbəyinin və suverenliyin daşıyıcısının xalq olduğunu söyləyib.

2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsinin rəmzi məna daşıdığını deyən Ziyafət Əsgərov 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qələbənin qazanıldığını, lakin tam suverenliyin hələ bərpa edilmədiyini, bəzi ərazilərimizin erməni separatçılarının əlində olduğunu qeyd edib. Nəhayət, 2023-cü il sentyabrın 19-20-də 23 saatlıq lokal xarakterli antiterror tədbirlərinin uğurla başa çatması nəticəsində Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdiyini vurğulayıb.

20 sentyabr tarixinin dövlətimiz və xalqımız üçün bir çox əlamətdar hadisələrlə yadda qaldığı bildirilib. Vitse-spiker sentyabrın 20-sinin Xankəndinin, Xocalının, Xocavəndin, Ağdərənin azad olunması günü kimi qeyd edildiyini deyib. 1994-cü il sentyabrın 20-də Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində imzalanmış “Əsrin müqaviləsi”nin əhəmiyyəti, Ulu Öndərin bugünkü suverenliyimizin əldə edilməsində, daxili və xarici siyasətdə qazanılan nailiyyətlərdə misilsiz xidmətlərindən bəhs edib, bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Vitse-spiker konstitusiyanın cəmiyyətin və dövlətin əsaslarını özündə ehtiva etdiyini qeyd edərək, Azərbaycan Konstitusiyasının ölkə vətəndaşlarının hüquq və azadlıqlarının müdafiəsi baxımından, beynəlxalq hüququn norma və prinsiplərini özündə əks etdirən mühüm əhəmiyyətə malik hüquqi sənəd olduğunu nəzərə çatdırıb.

Sonra konfransda Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxış edib. O, Azərbaycan Konstitusiyasının preambulasında qeyd edildiyi kimi, müstəqillik, suverenlik və ərazi bütövlüyünün Azərbaycan xalqının ülvi niyyətlərindən olduğunu söyləyib. Bildirib ki, Azərbaycan torpaqlarının 30 il ərzində işğal altında olduğuna baxmayaraq, xalqımız öz əzmini itirməyib, ərazi bütövlüyünün və suverenliyinin bərpası istiqamətində daim addımlayıb. 1990-cı illərin əvvəlində ölkədə müşahidə olunan siyasi tənəzzül, daxili çəkişmələr, konstitusiyanın hüquqi cəhətdən işləmədiyi bir zamanda Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışının dövlətimiz üçün dönüş nöqtəsi olduğunu vurğulayıb.

Fərhad Abdullayev 1995-ci il noyabrın 12-də ilk milli konstitusiyamızın qəbul edildiyini xatırladaraq bildirib ki, Ulu Öndərin dediyi kimi, konstitusiya, Əsas Qanun olaraq, Azərbaycanın daxili və xarici siyasəti ilə bağlı bütün prioritet məsələləri özündə əks etdirməli, digər bütün qanunlar isə konstitusiya əsasında və ona uyğun olaraq qəbul edilməlidir. F.Abdullayev ilk dəfə olaraq milli konstitusiyamızda Konstitusiya Məhkəməsi anlayışının verildiyini və Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin fəaliyyətə başladığını nəzərə çatdırıb. Konstitusiya Məhkəməsinin əsas məqsədinin dövlətin Konstitusiyasının qorunması ilə bağlı olduğunu söyləyib. Konstitusiya Məhkəməsinin fəaliyyəti, keçdiyi inkişaf mərhələləri, səlahiyyətləri, qəbul etdiyi qərarların mahiyyəti, beynəlxalq əlaqələri barədə danışıb. O, habelə, Konstitusiya Məhkəməsi ilə Milli Məclis arasında səmərəli əməkdaşlıqdan bəhs edib.

Konstitusiya Məhkəməsinin sədri həmçinin hazırda işğaldan azad olunmuş ərazilərdə irimiqyaslı bərpa və quruculuq işlərinin, o cümlədən “ağıllı şəhər”, “ağıllı kənd” layihələrinin həyata keçirildiyindən, süni intellektdən səmərəli istifadənin əhəmiyyəti və bunun cəmiyyətimizin gələcəyi üçün vacibliyindən söhbət açıb.

Fərhad Abdullayev Azərbaycan Konstitusiyasının, dövlət müstəqilliyinin, ərazi bütövlüyünün möhkəmləndirilməsi istiqamətində gələcəkdə daha böyük nailiyyətlər əldə ediləcəyinə əminlik ifadə edib.

Konfransda çıxış edən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan parlamentinin müstəqilliyin ilk illərindən müasir dövrümüzə qədər bütövlükdə konstitusionalizmin inkişafına töhfə verdiyini bildirib. Dövlət suverenliyinin hüquqi tarixi aspektlərinin hər zaman Ulu Öndər Heydər Əliyevin diqqət mərkəzində olduğunu vurğulayıb. O, suverenlik və konstitusiya anlayışlarının bir-biri ilə sıx bağlı olduğunu deyib. Qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə Azərbaycanın suverenliyinin aktual problemləri dərindən öyrənilməyə başlandı. Güclü dövlət quruculuğu yolu seçildi, mükəmməl və müasir konstitusiya qəbul edildi. Suverenliyin əsas əlaməti olan ərazi bütövlüyünün bərpa olunması üçün xüsusi strateji plan çəkildi.

Komitə sədri bildirib ki, Konstitusiya əsas qanun olaraq xalqla hakimiyyət arasında bir razılaşmadır. Xalq bir suveren kimi hakimiyyətə idarəetməni həvalə edir. Hakimiyyət isə xalqın nümayəndələri tərəfindən qəbul edilmiş ədalətli qanunlar əsasında idarəetməni təmin etmək və xalqa mənsub olan əraziləri xarici təhdidlərdən müdafiə etmək öhdəliyini üzərinə götürür. Bu baxımdan son illər yaşadığımız hadisələr suverenliyin təntənəsidir. Hakimiyyət konstitusiyada onun üzərinə qoyulmuş bu öhdəliyi şərəflə yerinə yetirib. Belə ki, Azərbaycan 30 ildən artıq dövlət suverenliyinin bütün ərazilərində təmin olunmasından məhrum idi və hazırda bu suverenlik tam təmin edilib.

Daha sonra çıxış edən parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev bildirib ki, bu gün Azərbaycan Respublikasının ərazi bütövlüyü tam şəkildə bərpa olunub və ölkə tam suveren şəkildə öz ərazisində idarəetməni təmin edir. Bu baxımdan, 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan olunması siyasi və hüquqi mənada mühüm əhəmiyyətə malikdir.

Komitə sədri vurğulayıb ki, 1995-ci ildə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilən Konstitusiyamız Azərbaycan Respublikasının hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunun təməlini qoymuş mühüm sənəddir. O, sənədin qəbul edilməsindən 30 il keçdiyini, bu illər ərzində müxtəlif texnoloji və hüquqi çağırışların meydana gəldiyini deyərək, konstitusiyamızın dövrün tələblərinə cavab verdiyini, eyni zamanda müasir çağırışlara uyğun olaraq bəzi əlavə hüquqi aktların və normativ sənədlərin qəbulunun mümkünlüyünün də nəzərə alındığını söyləyib.

Arzu Nağıyev qeyd edib ki, dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, milli maraqlarının daxili və xarici təhdidlərdən qorunması Azərbaycan Respublikasının milli təhlükəsizliyinin əsasını təşkil edir. O vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin müstəqil daxili və xarici siyasətinin əsasında suverenlik, ərazi bütölüyü, onun qorunması və hər bir Azərbaycan vətəndaşının rifahı durur. Bundan irəli gələrək, əsas məqsədlərdən biri hüquqi dövlətin prinsiplərinin dərinləşdirilməsi və informasiya suverenliyinin təmin olunmasıdır.

Komitə sədri Azərbaycanın təhlükəsizlik strategiyasının Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu söyləyərək, dövlətin suverenliyinin və ərazi bütövlüyünün qorunması, peşəkar ordu, təhlükəsizlik və hüquq-mühafizə orqanlarının formalaşdırılması, beynəlxalq əməkdaşlıq, informasiya təhlükəsizliyi, ictimai sabitliyin qorunması kimi amillərin hər zaman onun diqqət mərkəzində olduğunu vurğulayıb. Heydər Əliyevin müəyyən etdiyi təhlükəsizlik konsepsiyasının bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Konfransda Milli Məclisin komitə sədrləri Sadiq Qurbanov, Siyavuş Novruzov, Fazil Mustafa, Zahid Oruc, Hicran Hüseynova, Anar İsgəndərov, Səməd Seyidov, Azər Əmiraslanov, komitə sədrinin müavini Razi Nurullayev, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi Elşad Nəsirov, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı Zaur Əliyev, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini Fuad Hüseynov, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının rəhbəri Aydın Səfixanlı çıxış ediblər.

Bildirilib ki, müstəqillik xalqın azadlıq və iradəsinin ən ali ifadəsidirsə, suverenlik bu iradənin hüquqi, siyasi və praktiki təcəssümüdür. Ümummilli Lider Heydər Əliyevin böyük əzmi, strateji uzaqgörənliyi və qətiyyətli rəhbərliyi nəticəsində dövlətimizin müasir, dünya standartlarına cavab verən konstitusiyası qəbul olunmuşdur. Bu sənəd yalnız hüquqi baza deyil, eyni zamanda Azərbaycan dövlətçiliyini möhkəmləndirən, xalqı vahid məqsədlər ətrafında birləşdirən milli ideya nümunəsi olmuşdur. Bildirilib ki, Ulu Öndər təkcə siyasi müstəqilliyin deyil, həm də iqtisadi suverenliyin banisi kimi ölkənin gələcək inkişaf modelinin təməlini qoymuş, Azərbaycanın beynəlxalq aləmdə layiqli yer tutmasına yol açmışdır.

Çıxışlarda vurğulanıb ki, Prezident İlham Əliyev Ulu Öndərin siyasi xəttini uğurla davam etdirərək müstəqil Azərbaycanın suverenliyini daha da möhkəmləndirmiş, dövlətin iqtisadi və hərbi qüdrətini artırmış, xalqın rifahını yüksəltmişdir. Onun rəhbərliyi ilə həyata keçirilən islahatlar və qətiyyətli siyasət nəticəsində Azərbaycan beynəlxalq münasibətlər sistemində söz sahibi olan, regional və qlobal miqyasda nüfuzlu bir dövlətə çevrilmişdir.

Konfransa yekun vuran Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov müzakirələrin səmərəli keçdiyini bildirib, çıxışlarda səslənən fikirlərin aktuallığını qeyd edib. Vitse-spiker Azərbaycan dövlətinin və xalqının gələcək inkişafı, müstəqilliyimizin və suverenliyimizin möhkəmləndirilməsi istiqamətində birgə səylərin önəmli olduğunu vurğulayıb.

Tədbirdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, ölkə Prezidenti İlham Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş nəşrlər, Azərbaycan Konstitusiyasının müxtəlif illərdə dərc edilmiş nüsxələri nümayiş etdirilib.

***“Azərbaycan”***

# Nazir Fərid Əhmədov Naxçıvan şəhərində vətəndaşları qəbul edib

**Ədliyyə naziri Fərid Əhmədov 19 sentyabr tarixdə Naxçıvan şəhərində vətəndaşları qəbul edib.**



Qəbuldan əvvəl nazir Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Qəbulda Naxçıvan şəhəri və Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur rayonlarından ümumilikdə 56 vətəndaşın ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilib.

# Maliyyə Nazirliyində kollegiya iclası keçirilib



**Senyabrın 19-da Azərbaycan Respublikası Maliyyə Nazirliyində növbəti kollegiya iclası keçirilib.**

İclasda 2026-cı il dövlət və icmal büdcə layihələri və sonrakı üç il üzrə icmal büdcə göstəriciləri, Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi və Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən görülmüş işlər və qarşıda duran vəzifələr, eləcə də cari məsələlər müzakirə olunub.

Nazirliyin struktur bölmələri və tabeliyindəki qurumların rəhbərlərinin iştirakı ilə keçirilən iclasda maliyyə naziri, kollegiyanın sədri Sahil Babayev bildirib ki, nazirliyin növbəti kollegiya iclası əlamətdar tarixdə - Dövlət Suverenliyi Günü ərəfəsində keçirilir. Nazir bu günün tarixi əhəmiyyətindən danışaraq qeyd edib ki, Prezident İlham Əliyevin siyasi iradəsi, uzaqgörən strategiyası və qətiyyətli mübarizəsi sayəsində Azərbaycan dövlətçiliyi möhkəmlənib, ölkəmizin ərazi bütövlüyü və dövlət suverenliyi tam təmin olunub.

Kollegiyanın sədri qeyd edib ki, 2026-cı il dövlət və icmal büdcə göstəriciləri dövlətin funksiyalarının səmərəli həyata keçirilməsini təmin etməklə, Prezident İlham Əliyevin müəyyən etdiyi strateji prioritet və inkişaf istiqamətlərinə uyğun olaraq həyata keçiriləcək tədbir və layihələr üçün maliyyə təminatı yaradacaq.

2026-cı il üzrə əsas xərc istiqamətlərindən bəhs edən nazir ölkənin müdafiə qabiliyyətinin, əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi, sahibkarlığın dəstəklənməsi, ərzaq təhlükəsizliyi, investisiya layihələrinin həyata keçirilməsi, publik hüquqi şəxslərin dövlət sifarişi ilə gördüyü iş və göstərdiyi xidmətlər üzrə dövlət borcuna xidmətlə bağlı xərclərin, həmçinin dövlətin funksiya və vəzifələrinə aid olan digər zəruri xərclərin təmin olunacağını vurğulayıb.

Kollegiya iclasında 2026-cı il üzrə dövlət və icmal büdcələrin proqnozlaşdırılan parametrləri barədə də məlumat verilib. Qeyd olunub ki, icmal büdcənin gəlirləri 44,8 milyard manat, xərcləri 48,7 milyard manat proqnozlaşdırılır. Gələn il üçün dövlət büdcəsinin isə gəlirləri 38,4 milyard manat, xərcləri 41,5 milyard manat səviyyəsində proqnozlaşdırılır. Gəlirlərin 57,4 faizi qeyri-neft sektorunun payına düşür və bu da əvvəlki illə müqayisədə əhəmiyyətli artım deməkdir. 2026-cı ildə dövlət büdcəsinin cari xərcləri ümumi xərclərin 59,6 faizini, əsaslı xərclər 34,5 faizini, dövlət borcuna xidmətlə bağlı xərclər isə 5,9 faizini təşkil edəcək. Büdcə kəsiri ÜDM-in 2,3 faizi həcmində müəyyən edilib ki, bu da əsasən daxili və xarici borclanma, özəlləşdirmədən daxilolmalar, həmçinin xəzinə qalığı hesabına maliyyələşdiriləcəkdir. Büdcə qaydası çərçivəsində qeyri-neft baza kəsirinin tədricən azaldılması və fiskal dayanıqlığın gücləndirilməsi qarşıya məqsəd kimi qoyulub.

Nazir büdcə sənədlərinin məzmununun və dərc edilmə müddətinin beynəlxalq standartlara uyğunlaşdırılması, hesabatlılığı təmin edən elektron məlumat bazasının formalaşdırılması və inteqrasiyası, büdcə vəsaitlərinin uçotunun təkmilləşdirilməsi, büdcə prosesinin müxtəlif mərhələlərinin avtomatlaşdırılması ilə bağlı başlanmış işlərin qısa müddətdə başa çatdırılması ilə bağlı müvafiq struktur bölmələrə tapşırıqlar verib. O, bu tapşırıqların icrasının büdcə prosesinin müasir standartlar əsasında təkmilləşdirilməsinə, ictimaiyyətin və vətəndaş cəmiyyəti institutlarının iştirak imkanlarının genişləndirilməsinə, həmçinin dövlət maliyyəsinin idarə edilməsində səmərəlilik, operativlik və ədalətlilik prinsiplərinin qorunmasına xidmət edəcəyini vurğulayıb.

İclasda Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi tərəfindən görülmüş işlər və qarşıda duran vəzifələr üzrə məruzə dinlənilib. Qeyd olunub ki, 2022-2025-ci illər üzrə yenilənmiş borc strategiyasına əsasən, ümumi dövlət borcunun ÜDM-ə nisbəti 30 faizdən aşağı saxlanıb, xarici borc tədricən azaldılıb və faiz dərəcəsi riski məqbul səviyyədə qorunub. 1 iyul 2025-ci il tarixinə dövlət borcu 25,7 milyard manat təşkil edib ki, bunun 33,2 faizi xarici, 66,8 faizi daxili borcdur.

Məlumat verilib ki, funksional fəaliyyətinə uyğun olaraq agentlik tərəfindən dövlət borcalması həyata keçirilir, borc üzrə uçot və hesabatlılıq təmin edilir, təhlillər aparılır. Eyni zamanda ölkənin suveren kredit reytinqinin qiymətləndirilməsi üçün beynəlxalq reytinq agentlikləri ilə əməkdaşlıq və digər aidiyyəti dövlət orqanları ilə koordinasiyalı şəkildə işlər aparılır.

Kollegiyanın sədri dövlət borcunun idarə olunması sahəsində beynəlxalq təcrübənin tətbiqinin genişləndirilməsi, "Azərbaycan Respublikasında 2026-2030-cu illər üzrə dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya" sənədinin layihəsinin hazırlanması ilə bağlı müvafiq tapşırıqlar verib.

İclasda Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən aparılan nəzarət tədbirlərindən də bəhs olunub. Qeyd olunub ki, cari ilin ilk 8 ayı ərzində Azərbaycan Respublikası Baş Prokurorluğunun və hüquq-mühafizə orqanlarının qərarlarına, xidmətin iş planına və plandankənar yoxlamalara əsasən ümumilikdə 85 nəzarət obyektində aparılan nəzarət tədbirləri ilə 166,9 milyon manat məbləğində artıq və əsassız ödənişlər aşkar edilib. Həmin vəsaitin dövlət büdcəsinə bərpası ilə əlaqədar, habelə nöqsanlara yol vermiş vəzifəli şəxslər barəsində müvafiq tədbirlərin görülməsi üçün yoxlama materialları hüquq-mühafizə orqanlarına göndərilib.

Müzakirələrdə dövlət vəsaitlərinin təyinatı üzrə səmərəli istifadəsinə nəzarətin gücləndirilməsi, nəzarət tədbirlərinin keyfiyyətinin və şəffaflığının artırılması istiqamətində tədbirlərin davam etdiriləcəyi, nəzarət tədbirlərinin növlərindən biri kimi təhlil və monitorinqlərin əhatə dairəsinin genişləndiriləcəyi vurğulanıb.

S.Babayev nazirlik sistemində tətbiq olunan informasiya sistemlərindən əldə olunan məlumatlar əsasında risk əsaslı yanaşma və təhlil metodlarının tətbiqi ilə nəzarət tədbirlərinin aparılmasının vacibliyini bildirib. Nazir həmçinin yoxlama tədbirlərinin keyfiyyətinin və şəffaflığının artırılması, dövlət büdcəsinə dəymiş ziyanın bərpasının izlənməsi mexanizminin yaradılması, həmçinin xidmətin kadr potensialının gücləndirilməsi ilə bağlı müvafiq tapşırıqlar verib.

Azərbaycan Respublikası Prezidentinin "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" fərmanı ilə müəyyən edilmiş tapşırıqların icrası ilə bağlı görülən işlərdən danışan nazir qeyd edib ki, fərman dövlət maliyyəsinin idarə edilməsində innovativ yanaşmaların tətbiqini, rəqəmsallaşmanın genişləndirilməsini, maliyyə intizamının möhkəmləndirilməsini və dövlət vəsaitlərindən səmərəli istifadəni təmin edəcək.

Maliyyə naziri kollegiya iclasında qəbul olunmuş qərarların tam, vaxtında və keyfiyyətlə icra olunmasına dair müvafiq tapşırıqlar verib.

***"Azərbaycan"***

# Görkəmli şərqşünas-alim Aida İmanquliyevanın xatirəsi anılıb

**Sentyabrın 19-da AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun kollektivi İkinci Fəxri xiyabanda görkəmli şərqşünas-alim, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın məzarını ziyarət edib.**



AZƏRTAC xəbər verir ki, AMEA-nın vitse-prezidenti, Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva 33 il öncə dünyasını dəyişmiş böyük alimin keçdiyi həyat yolundan danışıb, Aida xanımın həm bir alim kimi dünya şərqşünaslıq elminə böyük töhfələr verdiyini, həm də bir qadın, ana, həyat yoldaşı kimi Azərbaycan qadınına örnək bir ömür yaşadığını qeyd edib.

Aida xanımın elmi fəaliyyətinin hər bir dövrünü xatırladan Gövhər xanım onun müasir ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə açdığını, silinməz iz qoyduğunu, Şərq-Qərb qarşılıqlı ədəbi əlaqə və təsiri problemini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alim olduğunu söyləyib. Böyük alimin qoyduğu zəngin elmi irslə yanaşı, elmi kadrların hazırlanmasında göstərdiyi xidmətlərdən söz açan G.Baxşəliyeva, onun Şərqşünaslıq İnstitutuna rəhbərlik etdiyi dövrdə bacarıqlı bir təşkilatçı kimi özünü göstərdiyini vurğulayıb.

Daha sonra Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Vüqar Məmmədov çıxış edərək Aida İmanquliyevanın ərəbşünaslıq elminə böyük töhfələr verdiyini söyləyib, xarici ölkələrin görkəmli alimlərinin Aida xanımın dünya elmində xidmətlərini çox yüksək qiymətləndirdiklərini xatırladıb.

# Baş prokuror Naxçıvan Muxtar Respublikası Prokurorluğunda əməliyyat müşavirəsi keçirib

**Xəbər verildiyi kimi, sentyabrın 18-də baş prokuror Kamran Əliyev Naxçıvana səfər edib. Səfər çərçivəsində Naxçıvan Muxtar Respublikası Prokurorluğunda baş prokurorun rəhbərliyi ilə muxtar respublika, Naxçıvan hərbi, Naxçıvan şəhər və digər tabe rayon prokurorluqların əməkdaşlarının iştirakı ilə əməliyyat müşavirəsi keçirilib.**

Müşavirə iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, unudulmaz xatirəsini dərin ehtiramla yad edib. Daha sonra müşavirə iştirakçıları tərəfindən Ulu Öndərin və Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin ruhu birdəqiqəlik sükutla yad edilib. Müşavirədə giriş nitqi ilə çıxış edən baş prokuror Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması, bunun birliyimizin, həmrəyliyimizin, müstəqilliyimizin və ərazi bütövlüyümüzün bariz nümunəsi olduğunu bildirərək, Ulu Öndər Heydər Əliyevin prokurorluq orqanlarının inkişafına verdiyi töhfə, habelə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə, o cümlədən hüquq sistemində aparılmış islahatlar, işğaldan azad olunmuş ərazilərimizdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da yaxından iştirakı ilə bərpa və




yenidənqurma prosesləri ilə əlaqədar çoxsaylı infrastruktur layihələrinin həyata keçirilməsi barədə ətraflı məlumat verib. Bundan sonra Naxçıvan Muxtar Respublikasında cinayətkarlığın dinamikasına, cinayət mühakimə icraatında insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində görülmüş işlərin vəziyyətinə toxunulmaqla əldə olunan uğurlar, habelə yol verilmiş nöqsanlar müzakirə edilib.

Müşavirədə həmçinin Naxçıvan Muxtar Respublikası prokuroru Sənan Paşayev muxtar respublikanın prokurorluq orqanlarında görülən işlər barədə çıxış edərək, Baş Prokurorluğun muxtar respublika prokurorluğuna daima diqqət və qayğısı, eləcə də digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə fəaliyyəti barədə ətraflı məruzə ilə çıxış edib. Əməliyyat müşavirəsinə yekun vuran baş prokuror Kamran Əliyev prokurorluq orqanlarının digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə bundan sonra da üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edərək, xidməti fəaliyyətin təkmilləşdirilməsi istiqamətində müvafiq tapşırıqlar verib. Daha sonra baş prokuror Naxçıvan Muxtar Respublikası Prokurorluğunun və Naxçıvan Hərbi Prokurorluğunun bir qrup əməkdaşını xidmətdə fərqləndiklərinə görə prokurorluq orqanlarının yaranmasının 107-ci ildönümü ərəfəsində təltif edib. Sonda xatirə fotoşəkli çəkilib.

**20 sentyabr "Əsrin müqaviləsi"nin imzalanmasının 31-ci ildönümü və Azərbaycan neftçilərinin peşə bayramı günüdür**

# Azərbaycanın yeni neft-qaz strategiyasının təməl daşı

**1994-cü il sentyabrın 20-də imzalanan, sonralar "Əsrin müqaviləsi" adını alan möhtəşəm saziş Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli"(AÇG) yataqlarının tammiqyaslı işlənməsini nəzərdə tutur. AÇG dənizdə, Bakıdan təxminən 100 kilometr şərqdə yerləşir. Bu meqastruktur Xəzər dənizinin altında 2000-3500 metr dərinlikdə yerləşən Balaxanı VIII və X, həmçinin yuxarı və aşağı Fasilə lay dəstələrini əhatə edir.**



"Əsrin müqaviləsi"nin imzalandığı vaxt torpaqlarının 20 faizi işğal altında olan Azərbaycan dünyada riskli ölkə sayılırdı. Belə bir vəziyyətdə xarici neft şirkətlərini inandırmaq, onları Azərbaycana sərmayə qoymağa cəlb etmək mürəkkəb məsələ idi. Ölkənin xəzinəsinin boş olması isə xarici investisiyanın cəlb edilməsini gündəmə gətirmiş, demək olar ki, zərurətə çevirmişdi.

Məhz belə çətin dövrdə Ulu Öndər Heydər Əliyev növbəti tarixi missiyasını yerinə yetirdi. Ümummilli Liderin uzaqgörənliyi, səyi və mübarizəsi, dünyadakı siyasi nüfuzu sayəsində Azərbaycanın yeni neft strategiyasının təməl daşı olan "Əsrin müqaviləsi" imzalandı. Bu da bir həqiqətdir ki, keçmiş sovet respublikaları arasında xarici neft şirkətləri ilə beynəlxalq müqavilə imzalayan ilk dövlət məhz Azərbaycan olub. Başqa sözlə, "Əsrin müqaviləsi" postsovet məkanında xarici neft şirkətləri ilə imzalanan ilk beynəlxalq sazişdir.

AÇG-nin işlənməsi bir neçə mərhələdə həyata keçirilib. Belə ki, "Çıraq" yatağından hasilat İlkin Neft Layihəsi (İNL) çərçivəsində 1997-ci ildən başlanıb. Bunun ardınca "Azəri" layihəsinin birinci mərhələsi - "Mərkəzi Azəri" gəlir. Buradan hasilat 2005-ci ilin əvvəlində başlanıb. Sonrakı ikinci faza - "Qərbi Azəri" və "Şərqi Azəri" platformalarını əhatə edib. Onlardan isə hasilat müvafiq olaraq 2005-ci ilin dekabrında və 2006-cı ilin axırlarında alınıb. AÇG-nin işlənməsinin növbəti üçüncü fazası çərçivəsində "Dərinsulu Günəşli" platformasından hasilat 2008-ci ilin aprelində başlanıb. Həmin fazalardan sonra "Qərbi Çıraq" platformasını əhatə edən "Çıraq Neft Layihəsi" reallaşıb. Bu platformadan ilk neft 2014-cü il yanvarın 28-də əldə edilib. AÇG yataqlarının işlənməsi ilə əlaqədar ən sonuncu layihə "Azəri Mərkəzi Şərqi"dir (ACE). Bu layihə AÇG-nin müddətinin 2050-ci ilə qədər uzadılması barədə Prezident İlham Əliyevin iştirakı ilə 2017-ci il sentyabrın 14-də imzalanmış yeni sazişə - "Yeni əsrin müqaviləsi"nə əsasən işlənir. Layihəyə 2019-cu ildə sanksiya verilib. Bundan sonra tikilən ACE platformasından ("Yeni əsrin müqaviləsi" çərçivəsində) ilk neft keçən il aprelin 16-da çıxarılıb.

Hazırda AÇG üzrə iştirak payları belədir: BP (Böyük Britaniya) - 30,37 faiz, SOCAR (Azərbaycan) - (31,65 faiz), MOL (Macarıstan) - 9,57 faiz, İNPEKS (Yaponiya) - 9,31 faiz, "EksonMobil" (ABŞ) - 6,79 faiz, TPAO (Türkiyə) - 5,73 faiz, İTOÇU (Yaponiya) - 3,65 faiz, ONGC Videş (Hindistan) - 2,92 faiz. Yeri gəlmişkən onu qeyd edək ki, Azərbaycan dünyanın bir çox aparıcı enerji şirkətləri ilə uğurlu, qarşılıqlı maraqlara əsaslanan möhkəm əməkdaşlıq və tərəfdaşlıq platforması yaradıb. AÇG-nin və bir sıra önəmli neft, qaz və ixrac layihələrimizin operatoru BP şirkətididir. 2017-ci il sentyabrın 14-də AÇG üzrə yenilənmiş saziş imzalanarkən Prezident İlham Əliyev demişdir:"Bu gün mən xüsusilə bizim əsas tərəfdaşımızın - BP şirkətinin fəaliyyətini qeyd etmək istəyirəm… BP bizim bütün əsas layihələrimizdə əsas tərəfdaş və investor kimi fəaliyyət göstərir. Həm "Azəri-Çıraq-Günəşli"də, Bakı-Tbilisi-Ceyhan layihəsində, "Şahdəniz" layihəsində, "Cənub qaz dəhlizi" layihəsində. Yəni bu strateji tərəfdaşlıq artıq böyük sınaqlardan çıxıb. Bizim aramızda - SOCAR ilə BP arasında yaranmış çox gözəl işgüzar münasibətlər, qarşılıqlı etimad o cümlədən bugünkü mərasimi mümkün etmişdir. Çünki sirr deyil ki, - mən də bunu qeyd etdim, - "Azəri-Çıraq-Günəşli" yatağının çox böyük potensialı var. Bir daha qeyd etmək istəyirəm, bugünkü hesablamalara görə 1 milyard ton neft ehtiyatı var. Bu gün imzalanan saziş 1994-cü ildə imzalanan sazişdən daha da böyük miqyaslıdır".

Bu il sentyabrın 18-də, "Əsrin müqaviləsi"nin imzalanmasının 31-ci ildönümü ərəfəsində dövlətimizin başçısı İlham Əliyevin BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Counz Robert Qərini "Şöhrət" ordeni ilə təltif etməsi də bütövlükdə əməliyyatçı şirkətə burada misilsiz layihələri gerçəyə çevirən insanların əməyinə verilən yüksək qiymətdir.

Bu gün AÇG-dən hasilat fasiləsiz və təhlükəsiz halda davam edir. İndi buradan gündə təxminən 327 min barel neft alınır. Əlbəttə, hasilatın pik vaxtında çıxarılan neft həcmləri bundan xeyli çox olmuşdu. Hazırda AÇG nefti dünya bazarlarına əsasən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) kəməri ilə ixrac edilir.

Neft həcmlərinin Azərbaycana gətirdiyi faydalar da misilsizdir. Bu barədə çox deyilib, çox yazılıb. Dövlətimizin başçısı dönə-dönə vurğulayıb ki, ölkəmizin əsas gəlir mənbəyi "Azəri-Çıraq-Günəşli" yataqlarıdır və bunu hamı bilməlidir. Bu gün Azərbaycan o ölkələrdəndir ki, öz hesabına yaşayır, kifayət qədər valyuta ehtiyatları var, iqtisadiyyatı dinamik şəkildə inkişaf edir, iqtisadi şaxələndirmə, neft-qaz amilindən asılılığının azaldılması istiqamətində önəmli addımlar atır.

31 il əvvəl kontrakt imzalanarkən Ulu Öndər Heydər Əliyevin dediyi sözlər yada düşür: "Biz belə bir addım atmaqla Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk. Biz müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq. Biz bu müqaviləni imzalamaqla dünyaya bir daha nümayiş etdiririk ki, müstəqil Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir. Azərbaycanda demokratik prinsiplərin bərqərar olması və inkişaf etməsi üçün geniş meydan açılmışdır. Azərbaycan Respublikası bazar iqtisadiyyatı yolu ilə getmək əzmindədir. Bu müqavilənin imzalanması bazar iqtisadiyyatının Azərbaycanda həyata keçirilməsi üçün ilk böyük addımdır. Biz bu müqaviləni imzalamaqla xarici ölkələrdən Azərbaycana investisiya qoyulması üçün böyük yol açırıq, digər sahələrdə çalışan şirkətlərin də Azərbaycanda fəaliyyət göstərməsi üçün zəmin yaradırıq, müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatında və ictimai-siyasi həyatında hökm sürən sabitliyi dünyaya bir daha nümayiş etdiririk".

İndi bu sazişin təcrübəsindən özümüz də bəhrələnirik, qonşularımız və dostlarımız da. "Əsrin müqaviləsi" elə möhkəm özülə, elə davamlı platformaya çevrilib ki, onun üzərindən yeni möhtəşəm layihələrə yol açılıb. Üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan, Ümummilli Lider Heydər Əliyevin adını şərəflə daşıyan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri çəkilib, Azərbaycanı qaz ixracatçısı kimi tanıdan Bakı-Tbilisi-Ərzurum kəməri inşa edilib. Ölkəmizi pan-Avropa qaz təchizatçısına çevirən 3500 kilometrlik "Cənub qaz dəhlizi" yaradılıb.

Nailiyyətlərimiz daha da artır. Ən başlıcası isə mənfur düşməni zəbt etdiyi doğma torpaqlarımızdan qovmuş, erməni faşizmi üzərində tam qələbə çalmışıq. İndi Qarabağı və Şərqi Zəngəzuru cənnətə çeviririk. Prezidentimiz bu zəfərlər üçün neft layihələrindən iqtisadi güc aldığımızı dəfələrlə vurğulayıb.

Bəli, bu gün "Əsrin müqaviləsi"nin imzalanmasının 31 ili tamam olur. Bu gün həm də qəhrəman Azərbaycan neftçilərinin peşə bayramı günüdür. Avropanın enerji xəritəsini dəyişdirən "Cənub qaz dəhlizi"nin təməli də sentyabrın 20-də qoyulub (2014-cü ildə). İki il əvvəl isə sentyabrın 20-də Azərbaycan öz suverenliyini tam bərpa edib. Bütün bu mühüm hadisələrin arasında görünən və görünməyən möhkəm bağlar var. Qısaca desək, bayram bayrama qovuşub və qoy həmişə belə olsun!

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Slovakiya Respublikasının baş prokuroru ölkəmizdə səfərdədir



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən hüquqi və institusional islahatlar, xüsusilə şəffaflıq, hesabatlılıq və korrupsiyaya qarşı mübarizə sahəsində atılan məqsədyönlü addımlar beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir.**

Bu kontekstdə Azərbaycan Prokurorluğu beynəlxalq əməkdaşlığın genişləndirilməsi və qabaqcıl təcrübə mübadiləsinin təşviqi istiqamətində fəal siyasət həyata keçirir.

Bu çərçivədə Slovakiya Respublikasının baş prokuroru Maroş Jilinkanın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdədir.

Sentyabrın 19-da nümayəndə heyəti Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub. Eyni zamanda Şəhidlər xiyabanı ziyarət olunub, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə çiçəklər düzülüb.

Daha sonra Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev Maroş Jilinkanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirib.

Baş prokuror görüşdə Azərbaycan və Slovakiya arasında yüksəksəviyyəli münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşımasını, dövlət başçılarının ölkələrimizi və xalqlarımızı birləşdirən dostluq və qarşılıqlı əməkdaşlıq əlaqələrinin əhəmiyyətini, Slovakiya şirkətlərinin Qarabağda bərpa işlərinə verdiyi töhfələri, eləcə də ticarət, texnologiya və sənaye sahələrində əməkdaşlığın genişlənməsi fonunda prokurorluq orqanları arasında da peşəkar əlaqələrin gücləndirilməsinin vacibliyini qeyd edib.

Görüşdə Azərbaycanda həyata keçirilən hüquq islahatları, o cümlədən prokurorluq orqanlarının fəaliyyətində operativlik və hesabatlılığın artırılması məqsədilə tətbiq olunan Elektron Prokurorluq İnformasiya Sistemi (EPIS) barədə məlumat verilib.

Tərəflər həmçinin Azərbaycan Prokurorluğunun beynəlxalq və regional təşkilatlarla, habelə digər ölkələrin prokurorluq və hüquq-mühafizə orqanları ilə səmərəli əməkdaşlığına toxunaraq hüquqi dialoqun intensivləşdirilməsi, təcrübə mübadiləsi, ekstradisiya və hüquqi yardım sahəsində əməkdaşlığın genişləndirilməsi məsələlərini müzakirə ediblər.

Slovakiya Respublikasının baş prokuroru Maroş Jilinka çıxışında Azərbaycanda həyata keçirilən hüquqi islahatların beynəlxalq hüquq və ədalət prinsiplərinə uyğunluğunun mühüm əhəmiyyət kəsb etməsini vurğulayaraq ölkəmizin hüquq sisteminin inkişafı istiqamətində atdığı addımların təqdirəlayiq olduğunu qeyd edib.

Görüşdə həmçinin korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi, cinayətkarlığa qarşı mübarizədə bilik və təcrübə mübadiləsi, eləcə də beynəlxalq hüquq normalarına uyğun fəaliyyətin daha da inkişaf etdirilməsi məsələləri də diqqət mərkəzində olub.

Sonda Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Slovakiya Respublikasının Baş Prokurorluğu arasında Anlaşma Memorandumu imzalanıb.

Qonaqlar həmçinin Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olub, onlara prokurorluğun fəaliyyəti ilə bağlı eksponatlar barədə ətraflı məlumat verilib.

Nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri davam edir.

***"Azərbaycan"***

# Fövqəladə hallar naziri Naftalan şəhərində vətəndaşların müraciətlərini dinləyib

**Prezident İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin respublikanın bölgələrində vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, fövqəladə hallar naziri Kəmaləddin Heydərov sentyabrın 19-da Naftalan şəhərində, Heydər Əliyev Mərkəzinin binasında Naftalan şəhəri, Goranboy və Xocalı rayonları sakinlərinin qəbulunu keçirib.**

Bu barədə AZƏRTAC-a Fövqəladə Hallar Nazirliyinin İctimaiyyətlə əlaqə idarəsindən məlumat verilib.

Bildirilib ki, əvvəlcə nazir K.Heydərov xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naftalan şəhərindəki abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub, əziz xatirəsini dərin ehtiramla yad edib. Sonra fövqəladə hallar naziri tərəfindən qəbul edilən Naftalan şəhəri, Goranboy və Xocalı rayonları sakinlərinin müraciətlərinin əksəriyyəti yerindəcə öz həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə nazirliyin aidiyyəti strukturlarının rəhbərlərinə tapşırıqlar verilib.

Fövqəladə hallar naziri ilə yanaşı, nazirliyin müvafiq struktur bölmə və qurumlarının rəhbərləri də vətəndaşları qəbul ediblər. Qəbula gələn vətəndaşlar onların müraciətlərinə yerində və operativ yanaşılması üçün yaradılan şəraitə görə ölkə Prezidentinə minnətdarlıq ediblər.

# Naxçıvan enerji sistemi yenidən qurulur









**Azərbaycan Respublikası Prezidentinin 23 noyabr 2024-cü il tarixli, 235 nömrəli Fərmanına uyğun olaraq "AzərEnerji" tərəfindən Naxçıvan Muxtar Respublikasında elektroenergetika sahəsində mühüm addımlar atılır.**

Qurumun Mətbuat xidmətindən verilən məlumata görə, hazırda regionun elektrik enerjisi təminatında əsas rol oynayan istismar müddətini keçmiş bir neçə yarımstansiya sökülərək yenidən tikilir. Belə ki, 154/110/10 kilovoltluq "Babək", 110/35/10 kilovoltluq "Çeşməbasar" və 110/35/10 kilovoltluq "Naxçıvan" yarımstansiyaları sökülərək tam yenidən qurulur. Həmçinin Naxçıvan Regional Rəqəmsal İdarəetmə və SCADA mərkəzi, eləcə də müasir texniki infrastrukturlar yaradılır.

Yeni enerji obyektləri tikilərək istifadəyə verildikdən sonra regionda elektrik enerjisi təchizatının etibarlılığı və dayanıqlılığı əhəmiyyətli dərəcədə artacaq, eyni zamanda Naxçıvanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə və davamlı inkişafına töhfə verəcək.

Bununla yanaşı, "AzərEnerji" tərəfindən Naxçıvan ötürücü elektrik şəbəkəsinin modernləşdirilməsi istiqamətində də ciddi işlər aparılır. Muxtar respublikanın ötən əsrin 50-ci illərinin sonlarından istismarda olan hava elektrik verilişi xətləri "AzərEnerji" tərəfindən sökülərək yenidən qurulur. İlkin mərhələdə 110 kilovoltluq "Culfa", "Ordubad-1" və "Ordubad-2" yüksəkgərginlikli ötürmə xətləri ikidövrəli olmaqla, ümumilikdə 68 km məsafədə yenidən çəkilir.

"AzərEnerji" tərəfindən Naxçıvan Muxtar Respublikasında 3 istiqamətdə çəkilən ötürmə xətlərində və 3 yerdə tikilən yarımstansiyalarda, o cümlədən Regional Rəqəmsal İdarəetmə Mərkəzində aparılan işlərin gələn il ərzində yekunlaşdırılması planlaşdırılır.

*N.ƏSGƏROVA,*
*"Azərbaycan"*




# Azadlığın bayramı

## Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhər günlərini qeyd edirlər



**Bütün Qarabağ artıq tam nəzarət altındadır və bildiyiniz kimi, bu ərazi iki il bundan əvvəl işğalçılardan azad edildi. Elə bu günlərdə - sentyabrın 19-20-də şanlı ordumuz separatçılığa son qoydu. Onunla da separatçılığın kitabı bağlandı və Azərbaycan tam suverenliyini bərpa etdi.**

İki il əvvəl Qarabağda qalan erməni qeyri-qanuni hərbi birləşmələrinin məğlubiyyəti, tərk-silah olması ilə xunta rejimi devrildi və bütün ərazilərimizdə erməni separatizminin kökü birdəfəlik kəsildi. Elə o gündən də Azərbaycan azad, müstəqil olmaqla yanaşı, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi, Cənubi Qafqazın lider, dünyada isə nüfuzlu ölkəyə çevrildi.

Ötən ilin 18 sentyabrında Prezident İlham Əliyevin 2023-cü il 31 iyul tarixli "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" sərəncamına dəyişiklik edilərək daha dörd şəhər günləri təsis edildi - "20 sentyabr - Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü".

2023-cü il sentyabrın 19-da başlanan antiterror əməliyyatı 20 sentyabr 13:00-da dayandırıldı. Razılığa əsasən, qeyri-qanuni erməni silahlı birləşmələri silahı yerə qoyaraq Azərbaycan torpaqlarını tərk etməli oldular. Antiterror əməliyyatı nəticəsində qalib Azərbaycan Ordusu 90-dan çox döyüş mövqeyini nəzarət altına aldı. Beləliklə, 4 şəhərimiz də tam azadlığına qovuşaraq erməni tör-töküntülərindən təmizləndi.

### Ağdərə və Xankəndiyə açılan yollar

Ağdərəyə ilk köç karvanı 2023-cü il martın 16-da gerçəkləşdi. 20 ailə - 90 nəfər 30 ildən sonra doğma Talış kəndinə qovuşdu. Ağdərədə ilk Novruz tonqalını da elə yurdlarına dönən kəndin sakinləri qaladılar. Uzun illər doğma yurdlarından didərgin düşmüş sakinlərin bayram sevinci birə on artdı. Bu günə qədər Talış kəndindən başqa, Ağdərənin Həsənriz kəndinə 566 nəfər (159 ailə), Suqovuşana 592 nəfər (180 ailə), Kolatağa 89 nəfər (26 ailə), Vəngli kəndinə 83 nəfər (22 ailə) olmaqla, ümumilikdə 1400-dən çox sakin qayıdıb.

Bu ilin martında Həsənriz kənd sakinləri ilə Novruz tonqalını alovlandıran Prezident İlham Əliyev onların da bayramını təbrik etdi. Ağdərəyə səfəri çərçivəsində dövlət başçısı Suqovuşanda ilk yaşayış kompleksinin açılışını edərək, mənzillərə köçən kənd sakinləri ilə də görüşdü. Eyni zamanda kənddə məscidin də açılışı oldu.

Bu gün Böyük qayıdış çərçivəsində Xankəndiyə rəsmi köç gerçəkləşməsə də, orada işləyən, hətta təhsil alanlar var. İşğaldan azad olunmuş ərazilərdə yaradılan ilk ali təhsil ocağı olan Qarabağ Universiteti ötən il ilk tələbələrini qəbul edib.

Xankəndi erməni separatçılarından təmizləndikdən sonra bir neçə beynəlxalq əhəmiyyətli tədbirlərə də evsahibliyi edib. İyulun 3-4-də keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşünün ünvanının məhz Xankəndi seçilməsi, təbii ki, təsadüfi deyildi. Prezident İlham Əliyev tədbirdə çıxışında bu məsələyə toxunaraq bildirdi ki, Zirvə görüşünün Qarabağda, Xankəndidə təşkil edilməsinin xüsusi mənası var: "Ermənistanın işğalından azad edilmiş torpaqlarımızda artıq bir neçə mühüm beynəlxalq tədbir keçirilmişdir. Şuşada 2023-cü ildə ECO-nun Nazirlər Şurasını, 2024-cü ildə Türk Dövlətləri Təşkilatının ilk qeyri-rəsmi Zirvə görüşünü və bu ilin may ayında Laçında Azərbaycan, Türkiyə və Pakistan rəhbərlərinin üçtərəfli Zirvə görüşünü qeyd etmək istərdim".

Bir sıra dövlət rəhbərlərinin də iştirak etdiyi ECO Zirvə görüşü Xankəndidən dünyaya bir daha mühüm mesajlar verdi. Eyni zamanda ölkə liderləri də tədbirin Xankəndidə keçirilməsindən məmnunluqlarını ifadə etdilər. Bu gün Xankəndi də sürətlə bərpa edilir. 2023-cü ildən sonra şəhərdə görülən işlərin nəticəsidir ki, burada artıq qlobal əhəmiyyətli tədbirlər keçirilir, təhsil həyatı başlayıb və insanlar yaşayıb çalışırlar.

### "...Biz burada əbədi yaşayacağıq"

Başına müsibətlər gətirilərək soyqırıma məruz qalan, qanlı günlərdən keçən, sağalmaz yara alan Xocalıya qayıdış isə ən ümdə, müqəddəs vəzifələrdən biri idi. Təbii ki, Xocalısız Qarabağı düşünmək olmazdı. Məhz elə Xocalının da azadlığı ilə Azərbaycan tam suverenliyini bərpa etdi. Bu gün artıq xocalılılar da öz yurdlarına qayıdırlar. Ötən ilin dekabr ayında Xocalının Ballıca kəndi ilk sakinlərini qarşıladı. Bundan sonra isə mərhələli şəkildə Təzəbinə və Xanyurdu kəndlərinə də köç karvanları yola salındı. Suverenlik Gününün ildönümü ərəfəsində isə yeni-yeni yaşayış məntəqələrinə də əzəli sahibləri ayaq açdılar. Rayonun Şuşakənd, Badara, Daşbulaq, Seyidbəyli kəndlərində də həyat qaynamağa başladı. Xocalıya indiyədək ümumilikdə 1500-ə yaxın sakin köçürülüb ki, onların yaşayışı, məşğulluğu təmin olunub. İşğaldan azad olunmuş ərazilərdə yalnız keçmiş məcburi köçkünlər deyil, orada təhsil alan, çalışanlar da yaşayırlar. Beləliklə, artıq Xocalı da azaddır və dövlət başçısının da qeyd etdiyi kimi, bu, ədalətin təntənəsidir. Prezident İlham Əliyev bayram ərəfəsində Xocalıya yeni köçən sakinlərlə görüşündə onları təbrik edərək, Qarabağ diyarında artıq əbədi yaşayacaqlarını vurğulayıb: "... Biz ədaləti bərpa etdik, ilk növbədə öz haqqımızı bərpa etdik, erməni işğalına son qoyduq. Bunu mərhələli yollarla etdik".

Ölkə rəhbəri həmçinin işğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq işlərindən söz açaraq bütün Qarabağ və Şərqi Zəngəzuru tikinti meydançasına bənzədib: "Qısa müddət ərzində bu gözəl evlərin bərpası, tikintisi, bütün infrastrukturun yaradılması bizim gücümüzü, niyyətimizi göstərir. Əsas odur ki, bütün siyasi addımlarımızın mərkəzində Azərbaycan vətəndaşı dayanır. Siz - Azərbaycan vətəndaşları, erməni işğalından əziyyət çəkən Qarabağ bölgəsinin sakinləri bu gün ən gözəl şəraitə layiqsiniz. Mən sizi təbrik edirəm, sizə xoşbəxt həyat arzulayıram və biz burada əbədi yaşayacağıq".

Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara sonuncu səfəri, sakinlərlə görüşləri bir daha göstərir ki, dövlətimizin prioritet istiqaməti Böyük qayıdış proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin əzəli yurdlarına qısa və təhlükəsiz şəraitdə qayıtmasıdır. Bunun üçün dövlət tərəfindən lazım olan bütün tədbirlər görülür. Elə bunun nəticəsidir ki, 2022-ci ildən başlanan qayıdış nəticəsində bu günə kimi 19 minə yaxın keçmiş məcburi köçkünün yurd həsrətinə son qoyulub. Təbii ki, Böyük qayıdış proqramı mərhələli şəkildə davam edir. Prezident tərəfindən 2027-2030-cu illəri əhatə edən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın hazırlanması haqqında sərəncam da artıq imzalanıb.

### Xocavəndlilərin yurd həsrəti sona çatdı

Dövlət Suverenliyi Günü xocavəndlilərə də ikiqat bayram oldu. Xocavənd Şəhəri Günü ərəfəsində rayonun iki qəsəbə və bir kəndinə köç karvanları yola salındı. Prezident İlham Əliyev səfər çərçivəsində Qırmızı Bazar qəsəbəsində Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə görüşdü. Dövlət başçısı onları təbrik edərək son beş ilin Zəfər tarixi, şanlı tarix olduğunu vurğuladı. "Sizin üçün burada şərait yaradılıb, evlər tikilib, təmir edilib. Bütün şərait var - su, qaz, elektrik, istilik, məktəb, tibb məntəqəsi, yollar. Ən önəmlisi - bura doğma Qarabağ diyarıdır. Gözəl mənzərəli yerlərdir, hər tərəf dağ, meşə, bulaq, su da boldur. Yəni burada, sadəcə olaraq, rahat yaşamaq, qurub-yaratmaq, uşaqları böyütmək, onlara yaxşı tərbiyə vermək üçün bütün şərait var. Yəni artıq Azərbaycan xalqı bundan sonra sülh içində yaşayacaq".

Dövlət başçısının işğaldan azad olunmuş ərazilərə mütəmadi səfərləri, xüsusən şəhər günləri ərəfəsində həmin rayonlara baş çəkməsi, təməlqoyma, açılış mərasimlərində iştirakı, sakinlərlə görüşü, yeni yaşayış məntəqələrinə qayıdış artıq ənənə halını alıb. Bu gün Qarabağ və Şərqi Zəngəzurun hər bir yerində sürətli quruculuğun şahidi oluruq. Otuz il ərzində xarabazarlığa çevrilmiş, viran edilmiş bütün şəhər və kəndlər müasir standartlara uyğun şəkildə qısa zamanda bərpa edilərək əzəli sahiblərini qarşılayır. Bu gün Azərbaycan dünyanın heç bir yerində görünməmiş ilklərə imza atır. İllərlə işğalda qalan torpaqlarını öz gücünə azad edən ölkəmiz iqtisadi gücü hesabına da Qarabağ və Şərqi Zəngəzuru cənnətə çevirir.

44 günlük Vətən müharibəsindən başlanan şanlı qələbəmiz 2023-cü ildə antiterror əməliyyatı ilə ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpası ilə başa çatdı. Müharibədə qalib gələn Azərbaycan bu gün danışıqlar masasında da qalibdir. Beynəlxalq hüquq norma və prinsiplərinə uyğun olan irəli sürdüyü bütün şərtlər qəbul olunur. Tarixi Vaşinqton görüşü isə bütün bunları rəsmi şəkildə təsdiq etməklə, Azərbaycanın tarixinin şanlı, qüdrətli dövrünü yaşadığını, qalib ölkə olduğunu bir daha göstərdi.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

# Adı qəlblərdə yaşayır

**Artıq sənin ölümündən bizi 31 illik zaman məsafəsi ayırır. Təəssüflər olsun ki, arxada qalmış, xatirələrə hopmuş və tarixə dönmüş o illəri sənsiz yaşadıq, Nurəddin. Sənin keçdiyin həyat və döyüş yolunu ağ vərəqlər üzərinə köçürmək üçün əlimizə qələm alanda həmişə təbəssümlü çöhrənlə gəlib gözlərimiz önündə dayanırsan. O mehriban baxışlarından ürəyimizə süzülən doğmalıq, yaxınlıq hər dəqiqə gözlərimizi yaşla doldurur. Yəqin elə buna görədir ki, ilk sətirlərdən sonra sənin haqqında nəsə yazmağa özümüzdə güc tapa bilmirdik. Gözlərimizdən ürəyimizə axan göz yaşları sanki barmaqlarımızı dondururdu. Amma günlərin birində qəlbimizi, ürəyimizi bürüyən kədərə üstün gələrək sənin ömür və döyüş yolunu özündə əks etdirən yazıya ilk sətirləri köçürə bildik...**

1980-ci ilin sonlarından başlayaraq erməni işğalçıları başqa rayonlar kimi, Zəngilanın da sərhəd kəndlərini atəşə tutur, evlərə hücum çəkib yandırırdılar. Bu ağır günlərdə sən silaha sarılıb torpaqlarımızın müdafiəsində dayanan qeyrətli oğulların sıralarına qoşuldun. Neçə-neçə qanlı döyüşlərin iştirakçısı oldun. Ölümdən qorxmadan cəsarətlə, hünərlə vuruşdun. Dəqiq atəş zərbələrinlə neçə-neçə erməni quldurunu məhv etdin. Havadarlarına arxalanan işğalçılar göstərdiyiniz ciddi müqavimətə baxmayaraq, dayanmadan irəliləyirdilər. Günlər keçdikcə vəziyyət gərginləşirdi. Artıq rayonun işğal olunmaq təhlükəsi yaranmışdı. Sən Zəngilan rayonu uğrunda gedən son döyüşlərdə də iştirak etdin.

Amma nə qədər müqavimət göstərsəniz də, vuruşsanız da erməni işğalçılarının hücumlarını dayandıra bilmədiniz. Çünki havadarları yağıları yaxşı silahlandırmış, arxalarında möhkəm dayanmışdılar. Çox təəssüflər olsun ki, qəsbkarlar qoynunda dünyaya göz açdığı Zəngilan rayonunu da işğal etdilər. Başqa yaşayış məntəqələri kimi, kəndimizin də sakinləri doğma ocaqlarından didərgin düşdülər. Onlar Arazın soyuq sularından güclə keçib o tərəfə, İran İslam Respublikasının ərazisinə adladılar. Erməni işğalçılarının əlindən güclə qurtardılar. Ata-baba torpaqlarımızın düşmənlərin əlinə keçməsi ürəyimizi yandırdı, qəlbimizi göynətdi.





## Nurəddin canından da çox sevdiyi Vətən uğrunda şəhid oldu

Doğma ocaqlarımız erməni işğalçıları tərəfindən zəbt olunduqdan sonra sən bəziləri kimi qaçıb orda-burda gizlənmədin. Xidmət və döyüş yolunu Füzuli istiqamətində vuruşan hərbi hissənin tərkibində şərəflə davam etdirdin. Son döyüşün bu rayonun Qorqan kəndi uğrunda oldu. Soyuq bir qış günündə döyüşdə şəhid olduğunu eşitdik. Ölüm xəbərin bizləri, səni sevənləri çox sarsıtdı. Acı göz yaşları içində səni İkinci Şəhidlər xiyabanında uğrunda qanını tökdüyün Vətən torpağına tapşırdıq. Heç birimiz sənin yoxluğunla barışmaq istəmirdik. Amma bu reallıq idi, sən canından da çox sevdiyin Vətən uğrunda şəhid olmuşdun. Qəhrəmanlığınla, igidliyinlə əbədilik qazanmışdın. Sən kəndimizin ilk şəhidi oldun.

Ölümündən bir neçə ay sonra xidmət etdiyin hərbi hissəyə getmişdik. Sənin hansı şəraitdə şəhid olduğunu öyrənmək istəyirdik. Çünki kimlərsə anana, Əminə bibimə demişdi ki, guya oğlun ölməyib, sağdır, ermənilər onu yaralı vəziyyətdə əsir götürüblər. Düzdür, bu inandırıcı deyildi. Sənin haqqında həqiqəti öyrənmək üçün taborunuzun komandiri zabit Tarıyel Qəhrəmanovla görüşdük. O, bizi sonadək dinlədikdən sonra masasının üstündəki jurnalı açıb bir-bir şəhid olanların adlarını nəzərdən keçirməyə başladı. Jurnal asta-asta vərəqləndikcə ürəyimizdə Allaha yalvarırdıq ki, kaş sənin adın bu siyahıda olmasın. Amma o, bir azdan komandirin dayanıb əlini sətirlərdən birinin üstünə qoyaraq - budur, Nurəddinin adını tapdım, - dedi. Bu sözlər sənin sağ qaldığına olan ümidimizi tamamilə ürəyimizdən sildi. Zabitin dəftərçəsində əyri-üyrü xətlərlə yazılmış bu qeydləri öz gözlərimizlə oxuduq: "Nuriyev Nurəddin Azad oğlu 18 yanvar 1994-cü ildə Qorqan kəndi uğrunda gedən döyüşdə şəhid olub. Meyiti dayısına verilib". Bu yerdə qəhər bizi boğduğundan danışa bilmədik. Amma belə yerdə göz yaşları heç vaxt adama kömək eləmir...

## Yeddi saat mühasirədə qalıb müdafiə olundular

Kədərli hisslərlə, ağır addımlarla bir vaxtlar yatıb gecələdiyin taborun kazarmasına gəldik. İstəyirdik ki, səninlə çiyin-çiyinə xidmət etmiş, vuruşmuş əsgər dostlarınla görüşək. Sənin adını hörmətlə yad edən Heydər İsmayılov, İxtiyar Süleymanov və adlarını unutduğum başqa döyüşçülərlə xeyli söhbət etdik. Daha çox sənin şəhid olduğun son döyüşlərindən bəhs etdilər. Əsgər dostun İxtiyar Süleymanov səni kədər hissi ilə xatırlayaraq dedi:

- Nurəddin Nuriyevi xidmətə gələn ilk günlərdən tanıyırdım. O, Zəngilan rayonunun Babaylı kəndində dünyaya göz açmışdı. 1993-cü ilin oktyabr ayına qədər doğulub boya-başa çatdığımız rayonu Qafanla, Gorusla və Mehri ilə həmsərhəd olan kəndlərini erməni işğalçılarından müdafiə etdik. Zəngilan işğal olunduqdan sonra biz yenə də Nurəddinlə birlikdə Füzuli istiqamətində gedən döyüşlərə qoşulduq. Ordumuz getdikcə güclənirdi, silah-sursatla, canlı qüvvə ilə təminatımız yaxşılaşırdı. Buna görə də rayonun yaşayış məntəqələrini bir-bir işğalçılardan azad edirdik. Yanvar ayının 18-də taborumuza Qorqan kəndini düşməndən təmizləmək tapşırıldı. Səhər tezdən yaşayış məntəqəsinin sağ tərəfindən, əlverişli mövqedən qəsbkarların üzərinə hücuma keçdik. Xeyli vuruşduqdan sonra nə səbəbdənsə bizdən yan tərəfdəki qüvvələrimiz hücumu yarımçıq qoyub geri çəkildilər. Buna görə də biz üçbucaq şəklində mühasirəyə düşdük. Həmişəki kimi Nurəddin yenə də lap öndəki qüvvələrin sırasında döyüşürdü. Onlar səkkiz nəfər idilər. Biz çətinliklə də olsa, vuruşa-vuruşa geri çəkildik. Amma irəlidə döyüşən əsgərlərimiz mühasirəyə düşdülər. Həmin ərazi düşmənin nəzarətində olduğundan vəziyyət xeyli gərginləşdi. Mühasirəyə düşmüş cəsur əsgərlərimiz təslim olmur, əlverişli mövqe tutub vuruşurdular. Rabitə vasitəsilə öyrəndik ki, Nurəddin ayağından yaralanıb. Nəyin bahasına olursa-olsun, mühasirəni yarıb həm Nurəddini, həm də digər döyüşçülərimizi xilas etməliydik. Amma nə qədər cəhd göstərsək də, bu mümkün olmurdu. Mövqelərində möhkəmlənən yağılar ciddi müqavimət göstərirdilər. Əsgərlərimiz yeddi saat düşmənin mühasirəsində qalıb müdafiə olundular. Axşama yaxın güclü artilleriya hazırlığından sonra işğalçılar üzərinə hücuma keçdik. Bir neçə saat çəkən ağır, qanlı döyüşdən sonra düşmən geri çəkildi, mühasirə yarıldı. Təəssüf ki, artıq əsgər dostum, cəsur döyüşçü Nurəddin Nuriyev dünyasını dəyişmişdi. Yadımdadır, Füzulinin kəndlərini daşnaklardan bir-bir azad etdikcə o sevinirdi. Deyirdi ki, İxtiyar, əgər döyüşlər belə uğurla davam eləsə, yəqin vuruşa-vuruşa yaxın vaxtlarda Zəngilana, doğma ocaqlarımıza gedib çıxacağıq. Amma düşmən gülləsi onun bu arzusunu ürəyində qoydu.

Əsgər dostlarınla söhbət etdikdən sonra şəhid olduğun Qorqan kəndinə də getdik. Sənin ölümündən bir neçə gün sonra cəsur əsgərlərimiz bu kəndi qəsbkarlardan azad etmişdilər. Həm kəndin özü, həm də ətrafdakı dərələr necə də bizim tərəflərə oxşayırdı.

Tez-tez Şəhidlər xiyabanına gedirik. Məzarının qarşısında dayanıb kədər hissləri ilə sənli günlərimizi xatırlayırıq. Sən əmimizin ailəsində doğulmuşdun, gözlərimiz qarşısında böyümüşdün. Bütün olub-keçənlər kino lenti kimi gözlərimiz önündən gəlib keçir. Məzar daşından boylanan şəklinə baxdıqca göz yaşlarımız üzümüzə süzülürdü. Kədərin, qəmin əlindən yanıb-yaxılırdıq. Məzarında rahat uyu, Nurəddin. Çünki şanlı ordumuz şəhidlərin qanını yerdə qoymadı, qisasınız düşmənlərdən alındı.

## Nurəddin qısa, amma şərəfli bir ömür yaşadı

Sən çox qısa, lakin şərəfli bir ömür yaşadın. Biz hamımız - səni tanıyanlar nə vaxtsa, neçə illər sonrasa həyatda heç bir iz qoymadan dünyadan köç edib gedəcəyik. Amma sən həmişə həm bugünkü, həm də gələcək nəsillər tərəfindən xatırlanacaqsan, ziyarət olunacaqsan. Çünki sən torpaq, Vətən uğrunda axıtdığın qanınla, döyüşlərdə göstərdiyin igidliyinlə, cəsarətinlə tarixin səhifəsinə öz adını böyük hərflərlə yazmısan. Şəhidlər heç vaxt unudulmur, həmişə hörmət və ehtiramla xatırlanır.

Ölümündən altı ay sonra böyük qardaşın Məcnunun ailəsində yenicə doğulmuş körpəyə sənin adını verdilər. Bu balaca Nurəddin evdəki bütün əşyalara diqqətlə baxırdı. Onun baxışları sənin böyüdülüb divardan asılmış şəklinin üstünə gələndə bir anlıq dayanır, sanki körpə sənin ruhunla danışır. Sənin adın qoyulduğundandır, yoxsa nədəndirsə hamımız bu balaca körpəni çox istəyirik. Bütün bunlarla demək istəyirəm ki, biz sənin adını qəlbimizdə, ürəyimizdə yaşadırıq, unutmuruq. İndi maşallah, adını daşıyan Nurəddin xeyli böyüyüb.

Sənin ölümündən sonra uzun illər idi ki, doğma ocaqlarımızın həsrətini çəkə-çəkə qalmışdıq. Ata-baba yurdumuz üçün burnumuzun ucu göynəyirdi. Aradan uzun illər keçməsinə baxmayaraq, hələ də o yerlərə qayıda bilmirdik. Hələ də doğma ocaqlarımız, dünyasını dəyişmiş əzizlərimizin məzarları, üstündə böyüdüyümüz o gözəl yerlər erməni işğalçılarının tapdağı altında inləyirdi. Kəsilmək bilməyən bu inilti ürəyimizi, qəlbimizi dağlayırdı. Yurd yerlərimiz bizsiz, biz də doğma ocaqlarsız qalmışdıq. Ermənilər sülh yolu ilə torpaqlarımızı qaytarmaq fikrində deyildilər. İstəyirdilər ki, zəbt etdikləri torpaqlar həmişəlik olaraq onlara qalsın. Təbiidir ki, bununla barışmaq, razılaşmaq olmazdı. Hansı yolla olursa-olsun, torpaqlarımızı erməni işğalçılarından azad etməliydik. Ermənilər illərdən bəri əllərində saxladıqları ərazilərimizi geri qaytarmaq əvəzinə yeni torpaqlarımızı zəbt etməyi planlaşdırırdılar. Sən şəhid olandan 26 il sonra, 27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başladı. Şanlı Azərbaycan Ordusu Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında 44 gün ərzində torpaqlarımızı işğaldan azad etdi. 20 oktyabr 2020-ci ildə qoynunda dünyaya göz açdığın, bir zamanlar uğrunda vuruşduğun Zəngilan rayonu da azadlığına qovuşdu.

Bu xoş xəbər hamımızı ürəkdən sevindirdi. Rəşadətli Azərbaycan Ordusunun erməni işğalçıları üzərində qazandığı bu şanlı Zəfərdən siz şəhidlərin də ruhu şad oldu. 30 ilə yaxın idi ki, doğma ocaqlarımızın həsrətini çəkə-çəkə qalmışdıq. Çox şükürlər olsun ki, həsrətə, intizara son qoyuldu. Uzun illərin ayrılığından sonra gözəl günlərin birində kəndimizə getmişdik. Ermənilər evləri uçurub dağıtmış, kəndimizdə bir kəndlik qoymamışdılar. Çox üzücü, kədərli mənzərələr idi, hər tərəf qan ağlayırdı. Sənin qoynunda böyüdüyün kəndimizdən heç bir iz qalmamışdı. Əzizlərimizin məzarını ziyarət etmək üçün qəbiristanlığa da baş çəkdik. Ermənilər ölüləri də rahat qoymamışdılar. Məzarların başdaşlarını sındırıb dağıtmışdılar, qəbirlərin ətrafını oyuq-oyuq etmişdilər. Ürəyimizdə qəm yükü əzizlərimizin məzarlarını ziyarət etdik.

Rayondakı Şəhidlər xiyabanını ziyarət edəndə sənin də burada rəmzi məzarının qoyulduğunu gördük. Şəklindən boylanan baxışlarına baxa-baxa rəmzi məzarını ziyarət etdik. Şəklinin qarşısına gül dəstələri qoyduq. Bizdən başqa, xiyabana digər gələnlər də var idi. Xalqımız sənin kimi torpaqlarımızın azadlığı uğrunda vuruşaraq şəhid olan oğulları heç vaxt unutmur, həmişə xatirələrini ehtiramla yad edir.

Kənddən geri qayıdanda bir ovuc torpaq gətirib Şəhidlər xiyabanındakı məzarının üstünə səpdik. Məzarında rahat uyu, əmioğlu Nurəddin! Həm düşmənlərdən torpaqlarımız azad olundu, həm şəhidlərin qisası alındı. Biz sənin kimi cəsur oğullarımızı heç vaxt unutmayacağıq, həmişə məzarlarınızı ziyarət edəcək, xatirənizi böyük ehtiramla anacağıq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Rəşadət dolu həyat

**Gecənin sükutunu yeddi yaşlı uşağın divarlarda əks-səda verən səsi pozdu. Sanki ruhunu parçalayan bir boşluğun içindən gəlirdi bu hıçqırıq səsi. Ana tələsik otağa girdi, titrək əlləri ilə ona toxundu:**

**- Burdayam, - dedi - oğlum, burdayam. Yuxu görmüsən?..**

**- Atamı gördüm… Mən atamı istəyirəm… Ana, görəsən Allaha çox-çox dua etsəm, atamı geri gətirər?..**

**Və anasının sinəsinə sığındı. Hıçqırtılar azaldı, amma qəlbinin dərinliyindəki səs susmadı, heç vaxt susmayacaq da...**







## Atasının arzusunu yerinə yetirdi

Yağı düşmən təkcə vətən torpaqlarımızı yaralamadı, təkcə neçə-neçə nər igidlərimizin canına qıymadı, yüzlərlə, minlərlə ailənin ocağını söndürdü, gözləri yaşlı, ürəkləri nisgilli, intizarlı, həsrətli qoydu. Hər şəhidin arxasında sükuta qərq olmuş bir ev, gözü yaşlı, ürəyi dağlı ana, həyat yoldaşı, övlad qaldı. Düşmən yalnız torpağımızı deyil, ailələrimizin sevincini, ömrümüzün ən dəyərli parçalarını da bizdən aldı.

Vətənini öz həyatından üstün tutan şəhidlərimizin hekayəsi isə ayrı bir dastandır. O dastanlardan biri də Çevik Polis Alayının çavuşu Ramil Şirinovun həyat yoludur. Uşaqkən xəyal etdiyi arzuları, gənclik illərində qazandığı uğurları, son səfərinə gedərkən söylədiyi sözləri ilə o, yaddaşlarda silinməz iz buraxdı.

Şirinov Ramil Arif oğlu 1987-ci il avqustun 8-də İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsində ziyalı ailəsində anadan olub. İlk təhsilini qəsəbədəki Rəhim Alışov adına tam orta məktəbində alıb. Daha sonra ailəsi ilə birlikdə Sumqayıta köçüb və təhsilini 12 saylı tam orta məktəbdə başa vurub.

Ramil hələ 18 yaşında ikən həyatının ən sərt sınağıyla qarşılaşır. Bir müddətdir xərçəng xəstəliyi ilə mübarizə aparan və son günlərini yaşayan atası onu yanına çağırıb hara qəbul olduğunu soruşur. Atasının bu dünyadakı son gününün olduğunu hiss edən Ramil hələ cavablar çıxmasa da, onun nigaranlığına son qoymaq üçün Azərbaycan Texnologiya Universitetinə qəbul olduğunu deyir. Bu, onların son söhbəti olur. Bir neçə gün sonra nəticələr elan edilir və məlum olur ki, Ramil həqiqətən Azərbaycan Texnologiya Universitetinə qəbul olunub.



Universiteti bitirib, həqiqi hərbi xidmətə yollanır. Sonra bir müddət mülki işlərdə çalışır. Uşaqlıqdan idmanla məşğul olan Ramil həm intizamı, savadı, həm də fiziki hazırlığı ilə həmişə seçilir. Günlərin birində təsadüfən polis orqanlarına qəbulla bağlı elan görür, sənədlərini hazırlayıb müraciət edir. Sıra baxışı zamanı Ramil DİN rəhbərliyinin diqqətini cəlb edir və birbaşa nazirliyin Əlahiddə Çevik Polis Alayının Xüsusi təyinatlı taboruna göndərilir.

## O dünyadan gələn qonaq...

2017-ci ildə sevib-seçdiyi Aynur xanımla ailə həyatı qurur, Arif və Şəms adlı övladları dünyaya gəlir. Aynur xanım deyir ki, onu belə erkən itirəcəyini bilsəymiş, yenə də onu seçərmiş: "Heç küsmədik, incimədik biri-birimizdən. O qədər xoşbəxt idim ki... Heyif ki, xoşbəxtliyimiz uzun çəkmədi. O, mənim yalnız həyat yoldaşım deyildi, dostum, sirdaşım idi. Tanıdığım heç kimə bənzəmirdi, sanki bu dünyaya aid deyildi. Yanımda olanda dünya mənim idi. Hərdən düşünürdüm ki, ona, bizə nəsə olacaq... Qorxduğum başıma gəldi".

Aynur Şirinova deyir ki, polis xanımı olmaq nə qədər qürurverici olsa da, bir o qədər çətin idi: "Ailəmiz üçün önəmli olan günlərdə, bayramlarda çox zaman yanımızda olmurdu. Ad günlərimizi çox vaxt bir neçə gün sonra qeyd edirdik. Onun evdə, yanımızda olması bizim üçün həmişə toy-bayram idi. Ramilin istirahət gününü səbirsizliklə gözləyib, uşaq kimi sevinirdik".

2023-cü ilin sentyabrında Ramil deyib ki, yaxın günlərdə təlimə gedəcəklər. Elə o gündən Aynurun yuxuları ərşə çəkilib: "Bugünkü kimi yadımdadır. Sentyabrın 13-ü idi. Gecə 3-də qəfil oyandım, öz-özümə dedim ki, Ramilə bir şey olsa nə edərəm, necə yaşayaram, uşaqları necə böyüdərəm. Özü də evdə idi. O qədər ağırlıq vardı ki üstümdə..."

Şəhid xanımının həyat yoldaşı ilə son görüşü sentyabrın 18-də olub. İşdə olan xanımına zəng edib, Qarabağa gedəcəyini deyib. Aynur onu yola salmaq, çantasını hazırlamaq üçün evə gedib. "Sanki son sözlərini demək üçün çağırmışdı. Ağlaya-ağlaya gəldim, onu bir daha görməyəcəyimdən elə qorxurdum ki. Sağollaşıb qapıdan çıxanda arxaya dönüb gördü ki, ağlayıram. Dedi ki, "ağlama, üç günə qayıdacam..." Sözünü tutdu, düz üç gün sonra qayıtdı... Ramil gedəndən sonra heç yerə sığmırdım. Sanki dünya balacalaşıb bapbalaca olmuşdu. Həmin gün axşam telefonla düz 40 dəqiqə danışdıq. Həmişə iş vaxtı, yoldaşları yanında olanda bizimlə çox danışmazdı. Bu dəfə vəziyyətin fərqli olduğunu o da bilirdi".

Sonuncu dəfə Füzulidə olublar. Ramil yazıb ki, telefonun enerjisi az olduğu üçün söndürür, bir də mənzil başına çatanda zəng edəcək.

## Gözü yolda qalan var...

O gecə Aynurun gözünə yuxu getməyib. Səhər xəbərlərdə Xocavənd rayonu istiqamətində polislərin minaya düşdüyünü, şəhidlərimizin olduğunu oxuyub. Telefon əlindən yerə düşüb. Nigaran olsa da, məcbur işə getsə də, özünə yer tapa bilməyib. Həyat yoldaşları hərbçi olan iş yoldaşları bəzən günlərlə əlaqə yarada bilmədiklərini deyib, təskinlik veriblər. Məktəbin direktoru onu kabinetinə dəvət edəndə evə, övladlarına tələsib. Sanki dəhşətli xəbərdən qaçırmış kimi. Həyətlərinə çatanda onu Ramilin polis yoldaşlarının gözlədiyini görüb...

"Ramil şəhid olanda oğlumun hələ 5 yaşı tamam olmamışdı, 15 gün sonra ad günü olacaqdı. Qızım isə iki yaş yarımlıq idi. Nitq ləngiməsi var idi deyə, fikirlərini ifadə edə bilmirdi. Sadəcə, atasının şəkillərini qucaqlayıb yavaşdan ağlayırdı. Oğlum həmişə deyirdi ki, "atam mənim dünyamdır". Onunla fəxr edirdi, qürur duyurdu. Əbəs deyilmiş", - deyir şəhid xanımı.

Şəhid Ramil Şirinovun timsalında Azərbaycan polisinin qətiyyəti, peşəkarlığı və mərdliyi tarixə yazıldı. Onun göstərdiyi igidlik və qorxmazlıq gənclərimiz üçün örnəyə, xalqımız üçün qürur mənbəyinə çevrildi. Düşmənin 23 saat 43 dəqiqəlik müqaviməti məhz belə qəhrəman oğulların sayəsində puç oldu. Bu gün biz xalqımızın yenilməz iradəsi, ordusuna inamı, ölkəmizin rəhbərinin sərkərdəlik qüdrəti və Ramil kimi oğullarımızın canı bahasına qazandığımız qələbənin verdiyi qürur hissilə Qarabağımızda azadlığın, ədalətin və əbədi Zəfərin təntənəsini yaşayırıq.



*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*




# Bakı sürət həvəskarlarını salamladı



**Bakı ilk dəfə deyil ki, “Formula-1” yarışına evsahibliyi edir. Şəhər indiyədək 8 dəfə - 2016-2024-cü illərdə bolid pilotları arasında sürət mübarizəsinin şahidi olub. Bu gün isə 9-cu dəfə paytaxtımız “Formula-1” üzrə dünya çempionatının 17-ci mərhələsi - Azərbaycan Qran-prisinin final yarışı motoidman fanatlarının diqqətini özünə cəlb etməkdədir. Beləcə “Odlar yurdu” beynəlxalq idman ictimaiyyətinin ən çox maraqlandığı məkandır.**





Ölkəmiz müstəqilliyinin bərpasından sonra ev sahibi kimi mötəbər beynəlxalq idman tədbirlərinin təşkilində yetərli təcrübə toplayıb. Beynəlxalq turnirlərə hazırlıq işləri aparılarkən səlahiyyətli orqanlar vahid komanda kimi çıxış edir, idmançıların və azarkeşlərin rahatlığını təmin etmək üçün bütün lazımi tədbirləri görür. Təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirilir. Ölkədən ayrılan qonaqlar vətənlərinə xoş xatirələr, zəngin təəssüratlarla qayıdırlar. Ona görə də Avropa və Beynəlxalq Olimpiya komitələrinin, beynəlxalq federasiyaların rəhbərləri Azərbaycanın təşkilatçılıq səviyyəsini həmişə yüksək qiymətləndirirlər. Çünki istənilən beynəlxalq idman tədbiri zamanı həm idmançıları beynəlxalq standartlar çərçivəsində qarşılamaq lazımdır, həm də yarışı izləmək üçün ölkəyə gələn çoxsaylı xarici qonaqların yerləşə bilməsi üçün müəyyən infrastruktur olmalıdır.

Azərbaycan artıq uzun illərdir ki, beynəlxalq tədbirlərin, o cümlədən idman yarışlarının keçirilməsində möhtəşəm nümunələr yaradır. İndiyədək Azərbaycanda I Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, UEFA Avropa Liqasının finalı, futbol üzrə Avropa çempionatının final mərhələsinin 4 qarşılaşması, minifutbol üzrə dünya çempionatı kimi böyük idman tədbirləri keçirilib. Prezident İlham Əliyevin inkişaf və quruculuq siyasətinin nəticəsi olaraq Bakıda yaradılan möhtəşəm infrastruktur bu yarışların hər birini ən mükəmməl şəkildə təşkil etməyə imkan verib. Həm də təsdiq olunub ki, Bakı şəhəri, eləcə də regionlarımız istənilən sayda xarici qonağı qəbul edə bilər.

Azərbaycan bu idman yarışlarına ən ideal şəkildə evsahibliyi etməklə Avropanın idman tarixinə öz möhürünü vurub, yeni və ideal təşkilatçılıq nümunələri yaradıb. Ölkəmiz bütün dünyaya evsahibliyinin və yüksək təşkilatçılığın necə olduğunu göstərib.

“Formula-1” də sıradan bir yarış deyil, dairəvi və sürətli avtoyürüş üzrə dünya çempionatıdır. Hər il keçirilən bu yarışın müxtəlif şəhərlərdə Qran-pri mərhələləri təşkil olunur. Bu mərhələlərdə toplanan xallara əsasən, pilotlar və komandalar ilin sonunda çempionluq titulu qazanırlar. Mübarizə aparan iştirakçıların sayı digər idman tədbirlərindən az olsa da, bu avtomobil yarışı tamaşaçı sayına görə yalnız futbol üzrə dünya çempionatından və Olimpiya Oyunlarından geri qalır. Hesablamalara görə, “Formula-1”in dünyadakı auditoriyası təxminən 500 milyon nəfərdir.

“Formula-1”də gündəlik həyatda görmədiyimiz və xüsusi olaraq bu idman növü üçün hazırlanan avtomobillər yarışır. Bolid adlandırılan müasir “Formula-1” avtomobilləri bir sıra özəllikləri ilə fərqlənir. Onlar təkadamlıq olur, üstəlik, sürücü yeri və təkərləri açıqdadır. Bu avtomobillərin yürüşü üçün tələblərə cavab verən trekin olması vacib şərtdir. Xüsusi olaraq inşa olunmuş Bakı Şəhər Halqası “Formula-1” təqviminin ən gözəl mübarizə meydanlarından biridir. Çünki Bakı mübarizəsində pilotlar xüsusi avtodromda deyil, məhz şəhərin küçələrində yarışırlar. Qeyd edək ki, pilotlar həmişə Bakı Şəhər Halqası barədə yüksək fikirlər söyləyiblər. Çünki Bakıdakı mübarizə meydanı çempionatın ən uzun və düz xətlərindən birinə sahib qeyri-adi şəhər trasıdır. Nadir xüsusiyyətlərə malik Bakı Şəhər Halqası elə qurulub ki, yarış zamanı pilotlar və milyonlarla televiziya tamaşaçıları paytaxtımızın gözəlliyini, tarixi və müasir memarlıq abidələrini, bir sözlə, ecazkar bir mənzərəni görə bilirlər.

*Elçin CƏFƏROV,*
*“Azərbaycan”*

# Küçələrin 9-cu fəthi başladı

**Artıq dünyadakı "Formula-1" həvəskarları bu yarışı Bakısız təsəvvür etmirlər. Xüsusi olaraq inşa olunmuş Bakı Şəhər Halqası isə bu yarışlarda özünəməxsusluğu ilə seçilir. Trekin uzunluğu 6 kilometrdən bir qədər artıqdır. Bu, uzunluğuna görə dünyada ikincidir.**











Unikal xüsusiyyətlərə sahib Bakı Şəhər Halqası ətrafındakı tribunaların sayı doqquzdur. Bunlar "Abşeron", "Azneft, "Muğam", "Sahil", "İçərişəhər", "Qız qalası", "Bulvar", "Xəzər" və "Filarmoniya" tribunalarıdır. Həmçinin ayaqüstü zonalar üçün də bilet satışı həyata keçirilir. Ümumi tamaşaçı tutumu (ayaqüstü zonalar daxil olmaqla) 30 minə yaxındır. Trekin ən geniş yeri 13 metrdir, ən dar hissəsi trekin İçərişəhər ətrafında olan bölmələrində yerləşir. Ən ensiz hissəsi isə 7,6 metrdir (Qoşa qala divarlarının yanı).

Start xətti Azadlıq meydanında, finiş xətti isə "Abşeron" tribunasının qarşısında təyin olunan trekboyu döngələrin sayı 20-dir.

"Formula-1" yarışlarının yaranma tarixi XX əsrin 20-30-cu illərini əhatə edir. Həmin illər təşkil olunan Avropa Qran-pri turnirləri qısa müddət ərzində böyük marağa səbəb oldu. Lakin İkinci Dünya müharibəsinin başlaması ilə bu yarışlara da fasilə verildi. Yalnız müharibədən sonra yenidən aktiv fəaliyyətə başlayan FİA formula yarışlarına da yeni qaydalarla start verdi.

Bu növ üzrə ilk rəsmi dünya çempionatı isə 1950-ci il mayın 13-də İngiltərənin Silverstoun trekində təşkil olundu. Britaniya kral ailəsinin də maraqla izlədiyi turnirdə 21 bolid qələbə uğrunda mübarizə apardı. Həm təsnifat, həm də əsas mərhələdə finiş xəttinə birinci gələn "Alfa Romeo"nun italiyalı pilotu Cüzeppe Nino Farina "F1" yarışının ilk qalibi kimi tarixə düşdü. Birincilik uğrunda mübarizədə onun əsas rəqibi komanda yoldaşı, argentinalı Xuan Manuel Fanxio oldu. Lakin sonralar X.M.Fanxio bu məğlubiyyətin əvəzini yetərincə çıxdı. Belə ki, o, karyerası ərzində 5 dəfə (1951-ci, 1954-cü, 1955-ci, 1956-cı və 1957-ci illərdə) dünya çempionu adını qazanmaqla rəqiblərinə aman vermədi. Hər il "Formula-1" üzrə dünya çempionatı çərçivəsində Qran-pri adlanan bir neçə mərhələ yarışı keçirilir. Bu mərhələlər müxtəlif ölkələrdə, o cümlədən Avstraliya, Monako, Bəhreyn, İspaniya və bir çox başqa ölkələrdə təşkil edilir.

Dünyada geniş tamaşaçı auditoriyasına malik bu turnirlər izlənmə sayına görə yalnız Yay Olimpiya Oyunları və futbol üzrə dünya çempionatından geri qalır. Daha çox sürət həvəskarlarının maraq dairəsində olan "Formula-1" Qran-priləri bir zamanlar ancaq Avropa ölkələrində keçirilsə də, hazırda dünyanın dörd bir tərəfində təşkil edilir. "Formula-1"də qələbə uğrunda komandalar və heyətində pilotlar mübarizə aparır. Hər komandada iki pilot və buna müvafiq olaraq iki bolid olmalıdır. Mövsüm boyu keçirilən "Formula-1" Qran-pri yarışlarında ən çox xal toplayan pilot dünya çempionu olur.

*"Azərbaycan"*

## "Formula-1" Azərbaycan Qran-prisinin kuboku "Odlar Yurdu"na həsr olunub

**"Formula-1" Azərbaycan Qran-prisinin kuboku "Odlar Yurdu"na həsr olunub. Bu barədə AZƏRTAC xəbər verir.**



Yarışın qaliblərinə təqdim olunacaq kubok yenilənmiş dizaynı ilə diqqət çəkir. Məşhur dizayn şirkəti Pininfarina tərəfindən hazırlanan rəsmi mükafat Azərbaycanın "Odlar Yurdu" kimi tanınmasını simvolizə edir.

Kubokun əsas özəlliyi onun alov təsiri yaradan formasıdır. Yan tərəflərində isə Azərbaycanın zəngin xalçaçılıq ənənələrindən ilhamlanan naxışlar həkk olunub. "Xan Qarabağ" motivindən elementlər sürət, hərəkət və dövrəni təcəssüm etdirərək, "Formula-1"in dinamik ruhunu milli irslə birləşdirir.

Qeyd edək ki, kubok sentyabrın 21-də final yarışından sonra qaliblərə təqdim olunacaq.

## Bakıda "Formula-1" pilotları fanatlarla görüşüblər

**"Formula-1" Azərbaycan Qran-prisi 2025 çərçivəsində yarış həftəsinin ən çox gözlənilən tədbirlərindən biri - Fan Forum Dənizkənarı Bulvar ərazisində yerləşən Fanzonada keçirilib.**



AZƏRTAC xəbər verir ki, səhnədə təşkil olunan sessiyada dünyaşöhrətli "Formula-1" pilotları azarkeşlərlə görüşərək, onların suallarını cavablandırıb, avtoqraf verib və şəkil çəkdiriblər. Komandalar üçün ayrılmış vaxt ərzində fanatlar sevimli "Formula-1" ulduzlarını yaxından görmək və yarış həyəcanını birgə bölüşmək imkanı əldə ediblər.

Cümə günü keçirilən Fan Forumda "Rasing Bulls", "Uilliams", "McLaren", "Kick Sauber" və "Aston Martin" komandalarının üzvləri iştirak ediblər. Şənbə günü isə digər komandaların pilotlarının fanatlarla görüşü nəzərdə tutulub.

Beləliklə, Fan Forum həm pilotlar, həm də azarkeşlər üçün yarış həftəsinin ən yaddaqalan anlarından birinə çevrilib.

BEYNƏLXALQ HƏYAT

# Kolumbiya hökuməti ilə "Klan del Golfo" cinayətkar qruplaşması arasında sülh danışıqları başlayıb

**Kolumbiya hökuməti ilə ölkənin ən böyük kriminal təşkilatı sayılan "Klan del Golfo" cinayətkar qruplaşması arasında sülh danışıqları başlayıb.**



Danışıqlar Qətərin paytaxtı Dohada başlayıb. Birinci mərhələdə tərəflər arasında etimadın yaradılması və "Klan del Golfo"nun fəaliyyət göstərdiyi beş regionda pilot layihələrin həyata keçirilməsi planlaşdırılır.

Hökumət nümayəndə heyətinin rəhbəri Alvaro Ximenez və qrupun nümayəndəsi Luis Armando Peres "sülh prosesi" adlanan mərhələyə keçidi elan edən birgə bəyanat imzalayıblar.

Sülh Komissiyasının yaydığı bəyanatda silahlı təşkilatın "sülhün qurulması yolunda ilk addım" olaraq mülki şəxslərin, xüsusilə də uşaqların hüquqlarına hörmətlə yanaşmağı öhdəsinə götürdüyü vurğulanır.

Sənəddə həmçinin qeyd olunur ki, qrup beynəlxalq humanitar qanunlara əməl edəcək və 2026-cı ildə Kolumbiyada keçiriləcək seçkilərə müdaxilə etməyəcək.

Yerli mətbuatın məlumatına görə, "Klan del Golfo" narkotik kartelinin 6-9 min silahlı üzvü var.

Fevralın 17-də qruplaşmanın üzvləri Seqoviya bələdiyyəsində (Antyokiya departamenti) hərbi qulluqçulara silahlı hücum edərək 4 əsgəri öldürüblər.

Kolumbiya ordusu son əməliyyatlar zamanı təşkilatdan külli miqdarda kokain və silah arsenalı ələ keçirib.

"Klan del Golfo"nun keçmiş lideri, "Otoniel" ləqəbli Dayro Antonio Usuqa David 2021-ci il oktyabrın 23-də ölkənin şimal-qərbindəki Nekokli bələdiyyəsində həbs edilib. "Osiris" əməliyyatında 22 helikopter, 650 polis və hərbçi iştirak edib.

"Otoniel" Boqotadakı Dijin həbsxanasından Katam Hərbi Hava Limanına gətirilib və xüsusi təyyarə ilə Bruklindəki federal həbsxanaya aparılıb.

# Şiveluç vulkanı 4,5 kilometr yüksəkliyə kül püskürüb

**Sentyabrın 19-da Kamçatkada Şiveluç vulkanı dəniz səviyyəsindən 4500 metr hündürlüyə qədər kül atıb. Bu barədə Rusiyanın dövlət mediası xəbər yayıb. Bildirilir ki, Şiveluç üçün narıncı kodlu aviasiya xəbərdarlığı verilib. Vulkanın aktivliyi yerli hava nəqliyyatı üçün təhlükə yaradır.**



Rusiya Elmlər Akademiyasının Uzaq Şərq Bölməsinin Vulkanologiya və Seysmologiya İnstitutunun Kamçatka vulkan püskürməsinə qarşı mübarizə qrupunun mətbuat xidməti bildirib ki, kül dumanı vulkandan təxminən 20 kilometr şimala doğru uzanıb.

Şiveluç təxminən 5000 insanın yaşadığı Ust-Kamçatski rayonunun Klyuçi kəndindən 45 kilometr aralıda yerləşən Kamçatkanın ən şimalındakı aktiv və ən böyük vulkanlarından biridir. Onun 60-70 min il yaşı olduğu təxmin edilir.

Rusiya Elmlər Akademiyası Geofizika Xidmətinin Kamçatka bölməsinin direktoru Danila Çebrov təsdiqləyib ki, Kamçatkadakı Şiveluç vulkanına son zəlzələlər səbəbindən ən yüksək qırmızı aviasiya təhlükəsi kodu verilib, digər vulkanlarda isə aktivlik azalır.

"30 iyul zəlzələsindən sonra bir neçə vulkanda aktivlik əhəmiyyətli dərəcədə artdı. Bu, onların yay seysmik hadisələri ilə "sarsıdılmış" toplanmış enerjisi ilə əlaqədardır. Payızda onlar bu enerjini toplamamışdılar, ona görə də aktivliyin artması yəqin ki, gözlənilmir. Yalnız Şiveluç aktivliyi artırır; biz ona birbaşa olaraq qırmızı aviasiya kodu təyin etmişik. Şiveluç proqnozlaşdırılması kifayət qədər çətin vulkandır, heç bir qanunla idarə olunmur, lakin seysmik hadisələrə görə onun aktivliyi hazırda artır", - Çebrov bildirib.

Danila Çebrov bildirib ki, afterşok prosesi hazırda əksər güclü zəlzələlərə xas olan tipik sxem üzrə gedir.

"Artşok prosesi gözlənildiyi kimi inkişaf edir və hər şeyin əksər güclü zəlzələlərə xas olan tipik sxemə uyğun olması bizi sevindirir. Ümid etmək üçün əsas var ki, sentyabrın 19-da səhər saatlarında baş vermiş zəlzələ iki ay ərzində baş verəcəyini gözlədiyimiz kimi eyni güclü afterşok olub. Bununla belə, yaxın gələcəkdə 7,5 bal gücündə təkrar seysmik hadisənin baş verməsini istisna edə bilmərik", - alim bildirib.

Rusiya Elmlər Akademiyası Geofizika Xidmətinin Kamçatka bölməsinin məlumatına görə, ekspertlər cümə günü səhər Kamçatkada baş verən 7,4 bal gücündə zəlzələdən sonra 30-dan çox yeraltı təkan qeydə alıblar.

Bildirilir ki, Moskva vaxtı ilə saat 00:33-2:27 arasında baş verən yeraltı təkanların gücü 4,2-5,8 bal təşkil edib. Onların hamısı okeanda, episentri 10,4-52,9 kilometr dərinlikdə yerləşib.

Rusiya Fövqəladə Hallar Nazirliyinin Kamçatka diyarı üzrə Baş İdarəsinin rəsmi "Teleqram" kanalı səhər saatlarında baş verən ən güclü zəlzələnin maqnitudasının 7,8 bal olduğunu bildirib.

Zəlzələnin episentri Petropavlovsk-Kamçatski şəhərindən 162 kilometr şərqdə yerləşib.

Kamçatka Sunaminin Monitorinqi və Xəbərdarlıq Mərkəzinin məlumatına görə, bölgədə sunami təhlükəsi ötüşüb. Əhalinin təxliyəsinə ehtiyac olmayıb.

# Berlində bomba tapılıb: 10 min insan təxliyə edilib

**Almaniyanın paytaxtı Berlinin 10 minə yaxın sakini İkinci Dünya müharibəsinə aid aviasiya bombasının tapılmasından sonra təxliyə edilib.**

Berlin polisinin məlumatına görə, partlayıcı qurğu Şpreye çayının 3 metr dərinliyində aşkar edilib.

Təxliyədən sonra sursatın heç bir təhlükə yaratmadığı müəyyən edilib. Bomba çaydan çıxarılaraq zərərsizləşdirilib.

Bombanın tapıldığı yerin ətrafında təxminən 500 metr ərazi 12 saat quru və çay trafikinə bağlanıb.

Təxliyə edilmiş sakinlərin evlərinə qayıtmasına icazə verilib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*




**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Zəfərin təntənəsi, suverenliyin nidası
Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində uğurlu əməkdaşlıq qurulub
Prezident İlham Əliyev Avropa İttifaqının Genişlənmə siyasəti üzrə komissarını qəbul edib
BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Azərbaycana səfəri barədə paylaşım edib
Memar Əcəmi Naxçıvaninin abidəsinin ucaldılması haqqında
Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
Counz Robert Qərinin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında
Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
Füzulidə qarşılanma, Şuşada razılaşma

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Neftçalada sərbəst güləş üzrə rayon turniri keçirilib

**Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin Neftçala rayonu üzrə Gənclər və İdman sektorunun təşkilatçılığı ilə Neftçala Olimpiya İdman Kompleksində "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Dövlət Suverenliyi Günü"nə həsr olunmuş yeniyetmələr arasında sərbəst güləş idman növü üzrə rayon turniri keçirilib.**




Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin və Neftçala Rayon Gənclər və İdman sektorunun məsul əməkdaşları, idmançılar iştirak ediblər.

İlk öncə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canını fəda edərək şəhidlik zirvəsinə ucalan igidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Çıxışçılar yeniyetmə idmançıları salamlayaraq, "Konstitusiya və Suverenlik İli" və Dövlət Suverenliyi Günü barədə ətraflı məlumat vermiş, tədbirin əhəmiyyətini diqqətə çatdırmışlar.

Sonra yarışın start fiti çalınıb. Yarış iki gün davam edib, maraqlı və gərgin keçib. 40 nəfər idmançının mübarizə apardığı turnirdə müxtəlif çəki dərəcələrində I, II və III yerlərə layiq görülənlər müvafiq diplomlarla təltif ediliblər.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

# Bəzi yerlərdə leysan xarakterli yağış yağacaq

Sentyabrın 20-nə gözlənilən hava şəraiti açıqlanıb.



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir. Ayın 19-dan 20-nə keçən gecə və səhər yarımadanın ayrı-ayrı yerlərində leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 16-18, gündüz 19-21 dərəcə isti olacaq. Atmosfer təzyiqi 753 millimetr civə sütunundan 760 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə yağıntının intensiv və güclü olacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 14-17, gündüz 20-25, dağlarda gecə 1-5, gündüz 5-9 dərəcə isti olacaq.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 10-15, gündüz 22-27 dərəcə isti olacağı gözlənilir.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöldə bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 7-12, gündüz 12-17 dərəcə isti təşkil edəcək.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda bəzi yerlərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 6-11, gündüz 12-17 dərəcə isti olacağı proqnozlaşdırılır.

Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalanda bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Səhər yağıntıda fasilə olacaq. Arabir duman müşahidə ediləcək. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 13-17, gündüz 20-25 dərəcə isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda bəzi yerlərdə arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 11-16, gündüz 17-22, dağlarda gecə 5-9, gündüz 9-13 dərəcə isti olacaq.

Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Mingəçevir, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçalada bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Gündüz yağıntıda fasilə olacaq. Arabir duman müşahidə ediləcək. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 14-17, gündüz 20-25 dərəcə isti olacağı proqnozlaşdırılır.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda hava əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman müşahidə ediləcək. Mülayim şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 14-17, gündüz 19-23, dağlarda gecə 9-12, gündüz 12-14 dərəcə isti olacağı bildirilir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 4147
Sifariş 1894
Qiyməti 60 qəpik

**20 SENTYABR DÖVLƏT SUVERENLİYİ GÜNÜDÜR**

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



XÜSUSİ BURAXILIŞ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR


# "DƏMİR YUMRUQ" və SİYASƏT



## İlham Əliyev istədiklərinə bir-bir və tələsmədən nail olur

44 gündə işğala da, bütün siyasi oyunbazlıqlara da son qoyuldu!

Müzəffər Ali Baş Komandan İlham Əliyev əvvəlcə hərb meydanında, diplomatiya sahəsində və informasiya müharibəsində düşməni biabırçı məğlubiyyətə uğratdı, diz çökdürərək kapitulyasiya aktını imzalatdırdı!

Sonra isə danışıqlar apararaq qoyduğu şərtlər əsasında sülh müqaviləsinin tələblərinin ardıcıllıqla yerinə yetirilməsinə nail oldu.

8 avqust Vaşinqton sülh danışıqları isə müharibədən sonrakı ən böyük uğurlardan birinə çevrildi!

Dünyanın bir nömrəli ofisində bir nömrəli prezidentin iştirakı və vasitəçiliyi ilə aparılan danışıqlar, imzalanan sənədlər Azərbaycanın bütün istəklərinin ifadəçisinə çevrildi.

Artıq Ermənistanın Baş naziri N.Paşinyanın Azərbaycanın şərtlərini yerinə yetirərək paraflanmış sülh müqaviləsinin imzalanması üçün zəruri addımlar atmaqdan başqa yolu yoxdur!

Trampın adını daşıyan Zəngəzur dəhlizinin (TRIPP-in) işə salınması da zaman məsələsidir.

2

# Dövlət suverenliyi milli sərvətimizdir

Qarşıya çıxan problemin həllinin, hansısa mübahisəli məsələnin çözümünün iki yolu var:

Danışıb müəyyən razılığa gəlmək;

Yaxud yumruğa, gücə əl ataraq qarşı tərəfi məğlubiyyətə uğratmaqla güzəştə vadar etmək!

*Birinciyə məsələnin dillə həlli, ikinciyə isə qol gücünə tabe edərək məcburetmə deyilir!*

Bu, insanlar, ailələr, müəyyən qruplar arasında yaranmış mübahisəli məsələnin həlli üsuludur.

**Dövlətlərarası münasibətlərdə, siyasətdə də belədir:**

**Ya danışıqlar yolu ilə mübahisəli məsələdə ortaq məxrəcə, yəni razılığa gəlirsən, yaxud da sözü orduya və silahlara verirsən!**

Sivil dünya üçün birinci yol məqbuldur!

Lakin ikincisi də çoxişlənən vasitədir!

Əgər müasir dünyadakı proseslərə fikir versək, onda görərik ki, hazırda insanlar "dil"lə bərabər "qol"a, "əzələ"yə də yer verirlər.

Burada kiçik bir fərq də mövcuddur.

*Bir var ki, mübahisə başlayan kimi yumruğunu işə salasan!*

*Bir də var xeyli danışıq aparasan, ağsaqqalları, diplomatik dildə desək, vasitəçiləri məsələnin həllinə cəlb edəsən və bütün səylər tükənəndən sonra yumruğunu işə salmaq məcburiyyətində qalasan!*

Elə Azərbaycan kimi!

❖ ❖ ❖

**Son səksən ildə dünyanın heç bir dövləti Azərbaycanın 44 günlük Zəfər müharibəsində qazandığı möhtəşəm qələbə kimi hər hansı bir uğura nail ola bilməyib!**

* Bu, işğalçı üzərində qazanılan qələbədir!

* Bu, özünü "məğlubedilməz xalq" və "məğlubedilməz ordu" adlandıran düşmən üzərində qələbədir!

* Bu, dünyanın bir neçə güclü dövləti tərəfindən müdafiə olunan, silah-sursatla təmin edilən və beynəlxalq təşkilatlarda arxalarında dayanılan dövlət üzərində qələbədir!

* Bu, separatizm üzərində tam qələbədir!

* Bu, bütün parametrlər üzrə mütləq və qəti qələbədir!

**Bütün bunlar Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, uzaqgörənliyi, müdrikliyi və "dəmir yumruğ"u sayəsində mümkün olub!**

*Ən əsası nəyi nə vaxt və necə etmək məharəti hesabına.*

**İlham Əliyev səbir etməyi də, əlverişli məqam seçməyi də, hansı vasitədən necə istifadə olunmasını da dəqiq müəyyənləşdirməyi məharətlə bacarır.**

Dövlət başçısı seçildiyi ilk gündən sülh danışıqlarında daim iştirak etdi, münaqişənin dinc vasitələrlə həllinə daim dəstək verdi.

*Xam xəyallara düşənlərə də daim xəbərdarlıq etdi:*

* Azərbaycan bir qarış torpağını belə kimsəyə güzəştə getməyəcəkdir!

* Azərbaycan heç zaman öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına yol verməyəcəkdir!

* Sülh danışıqları baş tutmasa, Azərbaycan münaqişəni digər vasitələrlə həll edəcəkdir!

**Prezident İlham Əliyev böyük təmkin və uzaqgörənliklə "digər vasitə"dən istifadəyə də hazırlaşırdı.**

* Tarixinin ən qüdrətli Azərbaycanını yaratdı!

* Müstəqil Azərbaycanı dünya birliyinin nüfuzlu üzvlərindən birinə çevirdi!

* Yeni gənclər nəsli tərbiyə etdi, onların da iştirak etdiyi qüdrətli ordu qurdu.

* Xüsusi təyinatlılardan, komandolardan ibarət hərbi hissələr yaradaraq onlara müntəzəm təlimlər keçirdi, ordunun peşəkarlığını yüksəltdi.

* Ordunu ən müasir silah-sursatla, yeni strategiya və taktika ilə təmin etdi.

* Azərbaycanın dostlarının, haqq işini müdafiə edənlərinin sayını artırdı.

Xalqın pozulmaz milli birliyinə nail oldu.

**Vətən müharibəsi başlayarkən cənab İlham Əliyev yenə də təmkinlə və uzaqgörənliklə hərəkət etdi.**

*"Dəmir yumruq"la düşmən ordusunu məhv edərək qarşısında diz çökdürdü, qoyduğu şərtləri yerinə yetirərək kapitulyasiya aktını imzaladıqdan sonra hərbi əməliyyatları dayandırdı.*

Havadarlarına güvənərək üçtərəfli Bəyanatın bir neçə vacib bəndini yerinə yetirmək istəməyən, Laçın dəhlizi vasitəsilə ərazilərimizə, əvvəllərdə olduğu kimi, yenə silah-sursat, mina, orduya təchizat daşınmasını davam etdirən düşmənə qarşı yeni bir əməliyyatla Xudafərin çayı üzərindəki körpünü ələ keçirdi, Azərbaycanın ərazi bütövlüyünü təmin etdi.

Düşmən yenə ağıllanmadı, separatçı əməllərini davam etdirdi.

**Bu dəfə cəmi 23 saat çəkən lokal xarakterli antiterror əməliyyatı zamanı Dövlət suverenliyi və Konstitusiya əsasları da təmin olundu.**

Ermənistana məxsus qanunsuz hərbi birləşmələr və terrorçu qrupları tərk-silah edildilər, Azərbaycan qanunlarını qəbul edib, Azərbaycan Konstitusiyası əsasında yaşamaq istəməyən haylar isə dinc şəkildə ərazilərimizi tərk etdilər.

*Çox keçmədən İlham Əliyevin uzaqgörən siyasəti və müdrik addımları sayəsində daim ermənipərəst mövqeyində dayanan, əslində, görəcəyi bir iş qalmayan Rusiyanın sülhməramlı kontingenti də ərazilərimizdən çıxarıldı.*



## "DƏMİR YUMRUQ" və SİYASƏT

## İlham Əliyev istədiklərinə bir-bir və tələsmədən nail olur

* Bu gün Azərbaycan ərazisində əcnəbi əsgər olmayan dövlətlərdəndir!

* Bu gün Azərbaycan dünyada separatizmə tam qalib gələn və bir nəfər belə separatçı yaşamayan dövlətlərdəndir.

**Lakin ölkəmizin möhkəm və etibarlı sülh uğrunda mübarizəsi hələ də davam edir.**

❖ ❖ ❖

Kapitulyasiya aktına diz çökərək imza atan Ermənistan hələ də sülhdən yayınmağa çalışır.

"Dəmir yumruq" isə əvvəlkindən də yüksək səviyyədə hazır vəziyyətə gətirilmişdir.

Sülhyaratma prosesində gah Rusiyaya, gah Fransaya, gah da Avropa İttifaqına güvənən Ermənistan üçtərəfli Bəyanatın mühüm bəndlərini yerinə yetirmir, sülh müqaviləsinin imzalanmasını hər vəchlə uzadırdı.

**Qətiyyətli mövqe nümayiş etdirən Azərbaycan erməni maraqlarının müdafiəçilərinə çevrilən vasitəçilərin hamısını danışıqlar prosesindən kənarlaşdırdı.**

*Ötən ayın əvvəllərində isə ABŞ Prezidenti Donald Trampın sülh yaradılmasında yardımçı olmaq istəyini qəbul etdi.*

**ABŞ-də Prezident D.Trampın iştirakı ilə keçirilən imzalanma mərasimində bir çox vacib sənədlər qəbul edildi, Cənubi Qafqazda möhkəm sülh yaradılması, ölkənin sülh və əməkdaşlıq məkanına çevrilməsi, Zəngəzur dəhlizinin (TRIPP) reallaşdırılması yönündə mühüm addımlar atıldı.**

Kəlbəcərdə vətənə dönmüş keçmiş məcburi köçkünlərlə keçirilən görüşdə Azərbaycan Prezidenti İlham Əliyev mühüm qərarlar qəbul edilən və sənədlər imzalanan görüşün nəticələrini yüksək qiymətləndirərək dedi:

*"Bəzi başqa ölkələr kimi, heç bir ölkənin torpağını zəbt etməmişik, etnik təmizləmə aparmamışıq, heç bir ölkənin şəhər və kəndlərini viran qoymamışıq. Biz öz torpağımızda döyüşmüşük, düşməni böyrü üstə qoymuşuq və ərazi bütövlüyümüzü bərpa etmişik, o cümlədən BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında. Ancaq buna baxmayaraq, Ermənistana himayədarlıq edən ölkələr bizə qarşı daim hərəkətdə idi və Vaşinqton şəhərində, dünyanın bir nömrəli ofisində imzalanmış sənədlər bütün bu səylərə də son qoydu.*

*Yəni dünya birliyi, beynəlxalq aləm bizim Qələbəmizi və yeni reallıqları tam qəbul etmişdir və bu da özlüyündə tarixi hadisədir!"*

**Artıq Ermənistanın geriyə yolu yoxdur!**

**Sənədlərdə göstərilən bütün işlər görülməli, Azərbaycanın şərtləri tam təmin olunmalı, Zəngəzur dəhlizi (TRIPP) işə salınmalıdır!**

❖ ❖ ❖

Azərbaycan öz hədəflərinə doğru inamla addımlayır!

Qarabağda və Şərqi Zəngəzurda möhtəşəm və sürətli quruculuq işləri gedir.

Keçmiş məcburi köçkünlər uzun illər boyu həsrətini çəkdikləri doğma yurda böyük sevinclə qayıdır, dövlətin saldığı "smart" tipli yaşayış məntəqələrindəki bir-birindən yaraşıqlı və rahat evlərdə, mənzillərdə xoşbəxt günlərinə başlayırlar.

Erməni vəhşiliklərinin əlamətlərindən təmizlənən torpaqlarımızda dünyada tayı-bərabəri olmayan kəndlər, qəsəbələr, şəhərlər bir-birinin ardınca öz əbədi sakinlərini qəbul edirlər!

❖ ❖ ❖

Otuzillik işğal dövründə erməni işğalçıları ərazilərimizi təkcə xarabalıqlara çevirməmişdilər, həm də özlərinə məxsus, niyyət və məqsədlərini əks etdirən "bina-abidələr" də yaratmışdılar.

Söhbət hayların təkcə bütün yaşayış məntəqələrində daş üstə daş qoymayaraq hər tərəfi viran qoymaqlarından, genosid, ekosid, urbisid törətmələrindən, dini abidələrimizi təhqir etmələrindən getmir.

Onlar həm də tarixi abidələri saxtalaşdırmış, soyqırımı aksiyalarında qəddarlıqları ilə fərqlənənlərin "xatirəsini əbədiləşdirmək üçün" müəyyən addımlar da atmışdılar.

Təbii ki, nə qondarma qurumların "yadigarları", nə də terrorçulara qoyulan "xatirə abidələri" müqəddəs torpaqlarımızda qala bilməzdi!

Onların da "dqr"ın statusunun ardınca göndərilməsi vacib idi!

Azərbaycan bunu da ədalətli və səriştəli şəkildə həyata keçirir.

❖ ❖ ❖

ATƏT-in sülhyaratma missiyası dövründə ermənilər "artsax" adlı sarsaq bir qurum yaradaraq onu "müstəqil respublika" kimi qələmə verir, həmin "respublika"nın "fəaliyyəti"ni təmin edəcək "təsisatlar" təşkil edirdilər.

İşğal dövründə qondarma qurumlara hətta saxta "prezident" və "parlament" seçkiləri də keçirilirdi.

Dünya ölkələri bəyanat verərək seçkilərin nəticələrini tanımadıqlarını bildirsələr də, ATƏT bütün bunları nə görür, nə eşidir, nə də pisləyərək qəti tədbirlər görürdü.

Sanki gözləri kor, qulaqları kar, dilləri lal olmuşdu!

*Ermənilər isə elə qudurmuşdular ki, daha Xankəndiyə sığışmırdılar...*

**Azərbaycanın qədim mədəniyyət paytaxtı Şuşada saxta parlamentləri üçün yeni binanın inşasına başladılar.**

*Guya burada - təmiz havada işləyərək yeni "qanun"lar yaradacaq, sonda da Ermənistana birləşməkdən ötrü yeni "qanun" qəbul edəcəkdilər.*

**Qəhrəman Azərbaycan Ordusunun misilsiz Şuşa əməliyyatı hayların arzularını gözlərində qoydu!**

**Şuşa murdar ləpirlilərdən təmizlənərək paklaşdı, əvvəlki və əsl sahibinə qayıtdı.**

*Təbii ki, separatizmə xidmət edən və ölkəmizin ərazi bütövlüyünə zidd fəaliyyət göstərəcək qondarma parlament binası da gorbagor edildi!*

**"Dəmir yumruq" təkcə xəyanət təmsilçisi olan maddi nümunələrini deyil, separatizmin mənəvi nişanələrini də bir zərbəsilə yoxa çıxarmağı bacarır!**

Şuşa 1993-cü ilin 8 mayında AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində işğala məruz qalmışdı.

Ermənilər bunu özlərinin ən böyük qələbəsi hesab edirdilər.

"İt damın kölgəsində yatar, elə bilər öz kölgəsidir" - Azərbaycan atalar sözüdür.

Ermənistanda təlim verilərək Azərbaycana göndərilən, Rusiyanın silah-sursatı, zabit kadrları ilə təchiz edilən Qarabağdakı terrorçu dəstələri və qeyri-qanuni silahlı birləşmələri özlərini yeni ərazilər "fəth etmiş" qəhrəmanlar kimi aparırdılar.

*Azərbaycanlılara qarşı soyqırımlarında, mülki əhaliyə qarşı vandallıq aksiyalarında xüsusi qəddarlıqları ilə seçilənləri isə özlərinin milli qəhrəmanları təki təqdim edərək adlarına abidələr qoyurdular.*

Belə psevdoqəhrəmanlara aid bina "Yerkrapa" terrorçu təşkilatının təşəbbüsü ilə Xankəndi şəhərində inşa olunmuşdu.

Şəhərin mərkəzi meydanında üç mərtəbədən ibarət, xaç formasında tikilən binanın açılışı 2013-cü ilin 8 mayında olmuşdu.

*Bu münasibətlə təşkil olunan təntənəli mərasimdə ozamankı Ermənistan prezidenti S.Sarkisyan və qondarma rejimin ozamankı "prezidenti", hazırda Bakıdakı məlum ünvanda "çay içən" Bako Saakyan iştirak etmişdilər.*

**Erməni cəlladlarının vəhşiliklərini, terrorçuların murdarlıqlarını əks etdirən bu "muzey-bina" da "miatsum" ideyası kimi iflasa uğradığından Xankəndinin pak torpaqlarından silinərək yox edildi!**

Separatçıların daha bir nişanəsi "artsax"ın "xarici işlər nazirliyi"nin binası idi.

Kasıb itinin adını "gümüş" qoyar - demişlər.

Artıq bunlar Azərbaycan ərazilərinə əbədi yiyələndiklərini düşünərək dünya dövlətləri ilə "əlaqələr" yaratmaq xülyasındaydılar.

*Bu gün "həmkarları" ilə birlikdə Bakıdakı "çay qonaqlığı"nda iştirak edən David Babayan, gülməli də görünsə, "artsax"ın "xarici işlər naziri" təyin edilmişdi.*

**Doğrudur, Ermənistan özü də daxil dünyanın heç bir dövləti nə "dqr"ı, nə də "artsax"ı müstəqil dövlət kimi tanıdı və qəbul etdi!**

Amma ermənilərin havadarları kimi çıxış edənlər qondarma qurumların "rəhbərləri"nin ABŞ Senatında, Fransa Milli Assambleyasında, Rusiya Dumasında qonaq kimi görüşlərini təşkil edirdilər, onlara "ürək sözləri"ni, açıqlamalarını söyləməyə imkan yaradırdılar.

**Son sözü isə Müzəffər Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğ"u dedi!**

❖ ❖ ❖

*Erməni separatçılarının həyati fəaliyyətini mənəvi cəhətdən dəstəkləyən qurumlardan biri, bəlkə də birincisi ATƏT-in Minsk qrupu idi.*

**ATƏT-in Minsk qrupu işğalı aradan qaldırmaq, beynəlxalq hüququ təmin etmək üçün yaradılmışdı.**

BMT-nin havada qalan və erməni işğalçı qüvvələrinin dərhal və qeyd-şərtsiz Azərbaycan ərazilərini tərk etməyə çağıran dörd qətnaməsinin icrasını, əslində, sülh və danışıqlar yolu ilə təmin etməli idi.

*Yaradıldığı gündən Vətən müharibəsi başlayanadək ATƏT-in Minsk qrupu gəldi-getdi...*

*Saysız-hesabsız görüşlər keçirdi, danışıqlar apardı.*

Həmsədr dövlətlərin nümayəndələri, ATƏT-in fəaliyyətdə olan sədri müntəzəm olaraq dəyişdi, yeniləndi...

* Hamısı uzun illər boyu ən yüksək əməkhaqqı aldılar.

* Azərbaycana gələndə doyunca plov, bozbaş yedilər...

* Ermənistana gedəndə tut arağı ilə donuz kababı "nuş" etdilər.

* Həm qazandılar, həm də istirahət etdilər.

*Amma hansı məqsədlə yaradıldıqlarını unutdular...*

*İşğalçı ilə işğala məruz qalana heç bir fərq qoymadılar.*

**Əksinə, danışıqların müddətini uzatmaqla işğalın ömrünü uzatdılar!**

**Həm də şüurlu şəkildə!**

**Həm də erməni dəyirmanına su tökməklə!**

Ermənilər də elə güman edirdilər ki, işğal müddəti uzananda Azərbaycan reallıqla barışmaq zorunda qalacaq, Qarabağı və I Qarabağ müharibəsini görməyən yeni nəsil yetişəndə daha torpaq uğrunda vuruşaraq qan tökən olmayacaqdır!

*Öz ağılları, öz mənəviyyatları ilə ölçüb-biçirdilər.*

Amma heç kim və heç nə Azərbaycan xalqının iradəsini qıra bilmədi!

Azərbaycan xalqı heç zaman torpaq itkisi ilə barışmadı!

Yeni yetişən nəsil "dəmir yumruğ"un ətrafında sıx birləşərək atalarının qisasını aldı.

❖ ❖ ❖

*44 gündə işğala da, bütün siyasi oyunbazlıqlara da son qoyuldu!*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev əvvəlcə hərb meydanında, diplomatiya sahəsində və informasiya müharibəsində düşməni biabırçı məğlubiyyətə uğratdı, diz çökdürərək kapitulyasiya aktını imzalatdırdı!**

Sonra isə danışıqlar apararaq qoyduğu şərtlər əsasında sülh müqaviləsinin tələblərinin ardıcıllıqla yerinə yetirilməsinə nail oldu.

*8 avqust Vaşinqton sülh danışıqları isə müharibədən sonrakı ən böyük uğurlardan birinə çevrildi!*

**Dünyanın bir nömrəli ofisində bir nömrəli prezidentin iştirakı və vasitəçiliyi ilə aparılan danışıqlar, imzalanan sənədlər Azərbaycanın bütün istəklərinin ifadəçisinə çevrildi.**

Artıq Ermənistanın Baş naziri N.Paşinyanın Azərbaycanın şərtlərini yerinə yetirərək paraflanmış sülh müqaviləsinin imzalanması üçün zəruri addımlar atmaqdan başqa yolu yoxdur!

*Trampın adını daşıyan Zəngəzur dəhlizinin (TRIPP-in) işə salınması da zaman məsələsidir.*

❖ ❖ ❖

Uzun illər boyu arabanın beşinci təkəri, habelə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin "həll simvolu" sayılan ATƏT-in 44 günlük Zəfər müharibəsindən sonra görəcəyi iş qalmamışdı...

Amma onun "təcrübəsi"ndən bəhrələnməyə çalışanların, artıq həll olunmuş münaqişəni yenidən hansısa formada beynəlxalq miqyasa çıxarmaq istəyənlərin gizli və mənfur istəkləri də vardı...

Odur ki, bu yarıtmaz qurumu hər vəchlə saxlamağa, yeni bir qiyafədə xortlatmağa çalışanlar çox cəhdlər göstərirdilər...

**Lakin Azərbaycan Prezidenti İlham Əliyevin möhkəm iradəsi və qətiyyəti ilə qarşılaşdıqlarından onu konservləşdirilmiş vəziyyətdə saxlamağa çalışırdılar.**

**Cənab İlham Əliyev Vaşinqton görüşündə bu niyyətlərə də son qoydu!**

*Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı ATƏT-in hazırda fəaliyyətdə olan sədrinə birgə məktub imzaladılar.*

Sentyabrın 1-də Minsk prosesi və əlaqədar strukturların bağlanması barədə ATƏT Nazirlər Şurası qərar qəbul etdi.

Strukturun bağlanmasından irəli gələn təşkilati və texniki məsələlərin 1 dekabr 2025-ci ildən gec olmayaraq yekunlaşdırılması ATƏT katibliyinə tapşırılmışdır.

**Bununla da fərsiz bir qurum kimi tanınan ATƏT-in Minsk qrupu tarixin arxivinə verildi!**

Göründüyü kimi, hələlik "dəmir yumruq" gücünü və qüdrətini saxlamaqla öz funksiyasını ikitərəfli formatda keçirilən sülh danışıqlarına vermişdir.

*Qısa müddətdə bu sahədə görülən işlər, xüsusən, Vaşinqton razılaşmaları isə göstərir ki, artıq Cənubi Qafqaz sülh və əməkdaşlıq məkanına çevrilir və kimsə burada sabitliyi pozmaq niyyətinə düşə bilməz!*

**Bəli, İlham Əliyev istədiklərinə bir-bir və tələsmədən nail olur.**

**Azərbaycanın yeni tarixi, Zəfər tarixi yazılır!**

**Bəxtiyar SADIQOV**

# Konstitusiya və Suverenlik İli 2025



# Siyasi iradəni, qələbələrimizi və dövlətçilik ənənələrimizi yaşadan tarix

**Tarix boyu xalqların öz taleyinə sahib çıxaraq, müstəqil və inkişaf edən dövlət qurması onların ən böyük nailiyyəti olub. Azərbaycan xalqının tarixin müxtəlif dövrlərində üzləşdiyi çağırışlara, işğala, məhrumiyyətlərə baxmayaraq, müstəqillik və dövlətçilik əzmi sarsılmamış, heç bir qüvvə buna mane ola bilməmişdir.**

1990-cı illərin əvvəlində Ermənistan BMT-nin Nizamnaməsini, beynəlxalq hüququn hamılıqla qəbul olunmuş norma və prinsiplərini kobud şəkildə pozaraq torpaqlarımızı işğal etmiş, soyqırımı, etnik təmizləmə, ekosid və urbisid cinayətləri törətmişdir.

2018-ci ildə dəyişən Ermənistan hökuməti də münaqişənin sülh yolu ilə həll edilməsi istiqamətində addım atmadı, özündən əvvəlki hakimiyyətlər kimi müzakirələri uzatmaq taktikasına üstünlük verdi. Bu ölkənin yeni işğalçılıq planlarının və təxribatlarının qarşısının alınması məqsədilə 5 il öncə - sentyabrın 27-də başlamış 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın etdi və tarixi Zəfər qazandı. Azərbaycan Prezidenti cənab İlham Əliyevin misilsiz liderliyi, şəhidlərimizin, qazilərimizin, əsgər və zabitlərimizin şücaəti sayəsində Azərbaycan öz torpaqlarını 30 illik işğaldan azad edərək ərazi bütövlüyünün bərpasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə nail oldu. İşğal altındakı ərazilərimizin böyük bir hissəsi azad edildi, Kəlbəcər, Ağdam və Laçın rayonlarında yerləşən Ermənistan silahlı qüvvələri isə həmin ilin sonuna qədər ərazidən çəkildilər.

44 günlük müharibədə məğlub olan Ermənistan sülh müzakirələrinə başlamaq niyyətini nümayiş etdirmədir. BMT-yə üzv olan heç bir dövlət tərəfindən tanınmayan qondarma rejimin Qarabağda fəaliyyətini davam etdirməsi qeyri-qanuni və suveren dövlət daxilində qəbuledilməz idi. Bununla yanaşı, ermənilər mütəmadi olaraq atəşkəsi pozur, təhlükəsizliyi ciddi şəkildə təhdid edir, militarist bəyanatlar səsləndirirdilər.

2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda qondarma qurumun növbəti təxribatlarının qarşısının alınması, Ermənistanın ərazilərimizi tərk etməyən silahlı qüvvələrinin qalıqlarının tərk-silah olunaraq torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə ordumuz tərəfindən antiterror tədbirlərinə başlanıldı. Bir sutkadan da az davam edən və sentyabrın 20-də başa çatan əməliyyat nəticəsində qəhrəman Azərbaycan Ordusu bütün hədəfləri yüksək peşəkarlıqla icra etdi. Parlaq Zəfər nəticəsində suverenliyimiz tam bərpa edildi və dövlət bayrağımız artıq bütün ərazilərimizdə əzəmətlə dalğalandırıldı.

Öz həyatını xalqına həsr etmiş, Vətənimizin daim çiçəklənən və qüdrətli bir ölkə olması naminə əzmkarlıqla və yorulmadan çalışmış, müasir və müstəqil Azərbaycanın banisi, Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin mükəmməl liderliyi sayəsində son 80 ildə heç bir dövlətə nəsib olmayan tam qələbəyə nail olduq. Düşməni torpaqlarımızdan qovaraq, hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsipləri və ədaləti döyüş meydanında bərpa edərək, BMT-nin məlum 4 qətnaməsi və BMT Nizamnaməsinin 51-ci maddəsi əsasında ərazi bütövlüyünü və suverenliyini tam təmin edən Azərbaycan regionumuzun siyasi, iqtisadi, hərbi-təhlükəszilik arxitekturasını dəyişdi və dayanıqlı inkişaf üçün əlverişli şərait yaratdı. Cənab Prezident İlham Əliyevin ədalətə və beynəlxalq hüquqa əsaslanan, regionun gələcək inkişafına hesablanmış sülh modeli əsasında əldə olunan razılaşmalar dünyanın aparıcı dövləti - ABŞ-nin paytaxtı Vaşinqtonda bu ilin 8 avqust tarixində təsdiq edildi, beynəlxalq ictimaiyyət tərəfindən təqdir olundu və alqışlandı.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2024-cü il 19 sentyabr tarixli sərəncamı ilə hər il sentyabrın 20-də qeyd olunacaq unudulmaz tarix - Dövlət Suverenliyi Günü təsis edildi. Bu sərəncam Azərbaycanın 1991-ci ildə müstəqilliyinin bərpası ilə başlayan hadisələrin kulminasiya nöqtəsi olan ərazi bütövlüyü və müstəqillik uğrunda onilliklər boyu davam edən mübarizənin rəmzi sonunu əks etdirir. Bu yeni tarixin təqvimdə rəsmi yer alması 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılan Zəfərin, 2023-cü ildə antiterror tədbirlərinin və XXI əsrdə ölkənin müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində atılan addımların əhəmiyyətini bir daha nümayiş etdirir.

Dövlətçilik tariximizdə daha bir mühüm hadisə isə Azərbaycan Prezidenti İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsidir.

Suverenlik dövlətlərin varlığını, həyat qabiliyyətini dünyaya nümayiş etdirən ən başlıca və zəruri olan amillərdən biridir. Konstitusiya və suverenlik anlayışları isə dövlətlərin hüquqi və siyasi əsasları ilə yanaşı, onların milli kimliyini də aydın şəkildə təsdiq və ifadə edir, onları dünyaya yaxından tanıtdırır. Dövlət Suverenliyi Gününün təsis edilməsi və 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ölkəmizin dövlətçilik ənənələrinin möhkəmlənməsi, suverenlik anlayışının daha dərindən dərk olunması və müasir dövrdə Azərbaycan dövlətinin öz yolunu qətiyyətlə davam etdirməsinin simvoludur.

Bu gün Azərbaycan xalqı bütün sahələrdə yeni inkişaf tarixinə qədəm qoyub. Artıq dövlət suverenliyimiz tam, ərazilərimiz bütöv, sərhədlərimiz isə toxunulmazdır. Mövcud daxili sabitliyin möhkəmlənməsinə və iqtisadi yüksəlişin daha da sürətlənməsinə əlavə stimul verəcək tam suverenlik şəraitində bu pozitiv dinamikanı qoruyub saxlamaq, uğur və nailiyyətləri artırmaq xalqımızın və dövlətimizin qarşısında duran prioritet vəzifədir.

Xalq yalnız birlik, qətiyyət və uzaqgörən siyasət sayəsində öz müstəqilliyini əbədi və dönməz edə bilər və məhz bu baxımdan Dövlət Suverenliyi Günü gələcək nəsillərə bir mesajdır. Bu sadəcə bir əlamətdar gün deyil, bu tarix həm də böyük qələbələrin, siyasi iradənin və dövlətçilik ənənələrinin bayramıdır. Azərbaycan dövləti Ulu Öndər Heydər Əliyevin uzaqgörən dövlətçilik siyasəti və bu siyasi kursu son dərəcə uğurla davam etdirən Prezident İlham Əliyevin misilsiz xidmətləri sayəsində müstəqilliyini qoruyub saxlamaqla yanaşı, dövlət suverenliyini möhkəmləndirərək, regionda və dünyada nüfuzlu, etibarlı tərəfdaşa çevrilmişdir. Məhz bu siyasətin nəticəsində Vətənimiz Azərbaycan gələcək illərdə daha da güclənərək, qlobal miqyasda davamlı və hərtərəfli inkişafına nail olan dövlət olacaqdır.

*Zaur ŞÜKÜROV,*
*Milli Məclisin deputatı*

# Müdrik və dahiyanə siyasi gedişlər

**2025-ci il Azərbaycan dövlətçilik tarixində "Konstitusiya və Suverenlik İli" kimi xüsusi əhəmiyyət daşıyır. Bu il ölkənin milli müstəqilliyi, ərazi bütövlüyü və qanunvericilik prinsiplərinin gücləndirilməsi baxımından yeni mərhələnin başlanğıcıdır. Prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl və uzaqgörən siyasət ölkənin beynəlxalq mövqeyini möhkəmləndirdi, Qarabağın dirçəlişini sürətləndirdi və regionda yeni siyasi balans yaratdı. Bütün bu proseslərin mərkəzində Azərbaycanın suverenliyi və konstitusiya prinsiplərinə sadiqlik dayanır.**

7-8 avqust 2025-ci il tarixlərində İlham Əliyevin Vaşinqtona səfəri Azərbaycanın xarici siyasət tarixində mühüm hadisə kimi qiymətləndirilir. Ağ Evdə ABŞ Prezidenti Donald Tramp ilə aparılan görüş zamanı iki ölkə arasında strateji tərəfdaşlıq xartiyası üzrə razılıq əldə olundu və 1992-ci ildən qüvvədə olan 907-ci düzəlişin ləğvi qərara alındı. Ən əhəmiyyətli nəticə Ermənistanla sülh sazişinin razılaşmasına və regionun inkişafına yönəlik "Trump Route for International Peace and Prosperity" dəhlizinin yaradılması idi. Bu dəhliz Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasını birləşdirərək illərlə davam edən blokada və tranzit məhdudiyyətlərini aradan qaldıracaq. Eyni zamanda bu addım Azərbaycanın suverenliyinin beynəlxalq aləmdə tanınması və qorunması istiqamətində strateji əhəmiyyət daşıyır.

Ən qürurverici faktlardan biri də odur ki, Qarabağda bərpa və inkişaf konstitusiyanın təmin etdiyi suverenliyə söykənən addımlarla davam edir. Müzəffər Ali Baş Komandan Qarabağa tez-tez səfərlər edir. Cənab Prezidentin Qarabağa səfərləri yalnız rəsmi mərasimlərlə məhdudlaşmır, eyni zamanda regionun infrastruktur, mədəniyyət və sosial sahələrdə bərpasına rəhbərlik edir.

Şuşada məscidlərin, muzeylərin və abidələrin bərpası, yeni yaşayış komplekslərinin təməli və müasir sosial infrastrukturun yaradılması şəhəri Azərbaycan mədəniyyətinin paytaxtı kimi yenidən formalaşdırır.

Xankəndi, Ağdam və Xocalıda məktəblər, bağçalar, yaşayış evləri, sənaye müəssisələri tikilir və yollar açılır. Bütün bunlar tarixi irsin bərpası ilə yanaşı, bölgədə müasir iqtisadi və sosial həyatın bünövrəsini yaradır. Bu fəaliyyət hərbi qələbədən sonra Qarabağın davamlı inkişafını təmin etməklə yanaşı, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin konstitusiya prinsiplərinə uyğun şəkildə bərqərar olmasını təmin edir. Qarabağın dirçəlişi, əhalinin geri dönüşü və infrastrukturun yenidən qurulması uzunmüddətli strateji perspektivi və konstitusion dövlətçilik prinsipini əks etdirir. 16 sentyabr 2025-ci il tarixində Şuşada Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nahyan ilə keçirilən görüş Azərbaycanın diplomatik uğurlarının daha bir nümunəsi, suverenliyin güclü tərəfdaşlıqla möhkəmləndirilməsi oldu. İmzalanan "Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə" ilə iki ölkə arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəldi. Enerji, investisiya, nəqliyyat və turizm sahələrində imzalanan sənədlər Azərbaycanın suveren iqtisadi və siyasi maraqlarını qoruyur.

Bu addım, cənab Prezidentin Qərb ilə əməkdaşlığı dərinləşdirərkən eyni zamanda Yaxın Şərqdə güclü iqtisadi dayaqlar yaratmaq strategiyasının nümunəsidir.

2025-ci ilin siyasi hadisələri göstərdi ki, İlham Əliyev yalnız bir dövlət başçısı deyil, həm də regionun siyasi memarı və dövlətçilik prinsiplərinə sadiq lideridir. Onun diplomatik manevrləri, strateji baxışları və Qarabağda həyata keçirilən genişmiqyaslı infrastruktur layihələri Azərbaycanı Qafqazın güc mərkəzinə və beynəlxalq səviyyədə etibarlı tərəfdaşa çevirib.

Vaşinqtondan Qarabağa, Qarabağdan Körfəz regionuna uzanan bu strateji yol, Azərbaycanın gələcək onilliklərini müəyyən edən, konstitusiya və suverenlik prinsiplərinə əsaslanan dahiyanə siyasət və gedişlər silsiləsidir. Bu siyasətin ideya qaynağı isə Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi müstəqil dövlətçilik, suverenlik və konstitusiya prinsipləridir. Prezident İlham Əliyev həmin prinsipləri müasir dövrün tələblərinə uyğun davam etdirərək Azərbaycanın milli maraqlarını qoruyur və Ulu Öndər Heydər Əliyev ideyalarının reallaşdığını bütün dünyaya nümayiş etdirir.

*Sadiq QURBANOV,*
*Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri*

# Azərbaycanın dövlətçilik tarixində yeni mərhələ

**Hər bir xalqın və dövlətin tarixində onun müstəqilliyini, azadlığını və suverenliyini əks etdirən önəmli günlər var. Azərbaycan tarixində belə mühüm günlərdən biri də 20 Sentyabr Dövlət Suverenliyi Günüdür. Bu gün ölkəmizin suveren dövlət kimi mövcudluğunu, xalqın öz taleyinə sahib çıxmaq əzmini və dövlət müstəqilliyinin bərqərar olunmasında atılmış əhəmiyyətli addımı təcəssüm etdirir.**

1991-ci ilin əvvəllərində Sovet İttifaqında baş verən siyasi, iqtisadi və sosial böhranlar ittifaq respublikalarında müstəqillik hərəkatlarını gücləndirdi. Azərbaycan xalqı da öz azadlığı və dövlət suverenliyi uğrunda mübarizəyə qalxdı. Bu hərəkatın nəticəsi olaraq, 1991-ci ilin 20 sentyabrında Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət Suverenliyi haqqında" Konstitusiya Aktını qəbul etdi. Bu sənəd Azərbaycan dövlətçiliyinin bərpası yolunda atılan həlledici addımlardan biri oldu. Konstitusiya Aktı Azərbaycanın siyasi, iqtisadi, hərbi və mədəni sahələrdə müstəqilliyini təsdiqlədi. Azərbaycan xalqının öz taleyini özü müəyyən etmək hüququ tanındı, respublikanın qanunvericilik və idarəetmə orqanları tam müstəqil fəaliyyət göstərməyə başladı.

Bu gün Azərbaycan Respublikası müstəqil və suveren bir dövlət olaraq beynəlxalq aləmdə layiqli yerini tutur. Ölkəmizdə dövlət quruculuğu istiqamətində böyük nailiyyətlər əldə edilmiş, iqtisadiyyat güclənmiş, ordu quruculuğu sahəsində ciddi irəliləyişlər olmuşdur.

Ermənistanın 2020-ci il Tovuz hadisələri ilə başlayan növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına Azərbaycanın verdiyi cavab nəticəsində 27 sentyabrda başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsində Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandanın rəhbərliyi ilə Ermənistan ordusunu darmadağın etdi və tarixi Zəfər qazandı. Müharibə nəticəsində işğal olunmuş ərazilərimiz azad edildi, Kəlbəcər, Ağdam və Laçın rayonlarında yerləşən Ermənistan silahlı qüvvələri isə həmin ilin sonuna qədər ərazidən çəkildilər. Bununla da torpaqlarını 30 illik işğaldan azad edən Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini özü yerinə yetirdi.

2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə böyük əməliyyatlara başlanıldı. Cəmi 23 saat davam edən dövlət suverenliyinin tam bərpası əməliyyatı nəticəsində müzəffər Azərbaycan Ordusu qarşısındakı bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirdi. Qondarma Dağlıq Qarabağ rejimi özünü buraxdığını elan etdi. Bununla da Azərbaycan bütün əraziləri üzərində suverenliyini tam bərpa etdi. Hakimiyyətin aliliyi və nəzarət funksiyası tam şəkildə bərpa olundu.

2024-cü ilin 19 sentyabr tarixində Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti sərəncam imzaladı. Beləliklə, hər il 20 sentyabr Dövlət Suverenliyi Günü kimi qeyd olunur. Suveren dövlət - beynəlxalq hüquqda ali hakimiyyəti təmsil edən, öz dövlətinin daxili və xarici siyasətində tamamilə müstəqil olan, başqa dövlətin hakimiyyətindən asılı olmayan və hansısa bir coğrafi ərazidə suverenliyi olan dövlət deməkdir. Dövlət suverenliyi hər bir xalqın azad yaşamaq, özünü idarə etmək, milli dəyərlərini qorumaq və inkişaf etdirmək hüququdur. Bu prinsip beynəlxalq hüququn əsasını təşkil edir. Azərbaycan üçün suverenlik təkcə siyasi müstəqillik deyil, həm də iqtisadi azadlıq, mədəni dəyərlərin qorunması və milli maraqların təmin olunması deməkdir.

Dövlət Suverenliyi Günü xalqımızın azadlıq və müstəqillik uğrunda apardığı mübarizənin simvoludur. Bu gün yalnız tarixə nəzər salmaqla kifayətlənmir, həm də gələcək nəsillərə dövlətçilik ruhunun aşılanması, milli birlik və həmrəyliyin möhkəmləndirilməsi üçün mühüm bir vasilədir. Prezident İlham Əliyev "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli"nin elan edilməsi haqqında" 2024-cü il 28 dekabr tarixli sərəncam imzalayıb və 2025-ci il 11 fevral tarixində müvafiq Tədbirlər Planını təsdiq edib. "Konstitusiya və Suverenlik İli"nin elan edilməsi mühüm siyasi və tarixi əhəmiyyət daşıyan qərarlardan biridir. Bu təşəbbüs Azərbaycanın dövlətçilik tarixində yeni mərhələnin başlanğıcını simvolizə edir. Həm konstitusiya prinsip və dəyərlərinin möhkəmləndirilməsi, həm də milli suverenliyin tam bərpası bu ilin əsas məzmununu təşkil edir.

*Pərvanə VƏLİYEVA,*
*Milli Məclisin deputatı*

# Dövlət suverenliyi milli sərvətimizdir

## Cənubi Qafqazda sülh və təhlükəsizliyi təmin edən mühüm faktor



**Vaxtilə Ümummilli Lider Heydər Əliyev deyirdi ki, "Bizim qarşımızda duran əsas məqsəd, vəzifə Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq və inkişaf etdirməkdən ibarətdir". Artıq bu, arzu deyil, biz gündəlik həyatda, ölkəmizin iqtisadi göstəricilərində, sosial sahədə əldə edilmiş nailiyyətlərdə görürük ki, Prezident İlham Əliyevin həyata keçirdiyi islahatların çox böyük əhəmiyyəti var. Bu, həm də ictimai-siyasi iqlimin sağlamlaşdırılmasında da öz əksini ifadə edir. Vətən müharibəsində parlaq Qələbə qazanaraq, Azərbaycan öz ərazi bütövlüyünü, tarixi ədaləti bərpa etdi. Torpaqlarımız erməni işğalından azad olundu. Buna bütün nəsillərin nümayəndələri öz töhfələrini verməklə, canları, qanları bahasına qəhrəmanlıq göstərərək tarixi Qələbəni qazandı. Bu Qələbə hər bir azərbaycanlıya stimul verdi, ləyaqətini qaytardı, əyilmiş qamətini dikəltdi. Əlbəttə, bu, həm də aparılan uzaqgörən, düşünülmüş, müdrik siyasətin nəticəsi idi.**

Xalqımızın yaddaşında əbədi qalacaq 44 günlük Vətən müharibəsində parlaq qələbədən sonra Azərbaycan Ermənistana sülh və ikitərəfli münasibətlərin normallaşdırılmasını təklif etdi. Prezident İlham Əliyev İrəvanı bu tarixi fürsətdən istifadə etməyə, suverenliyin və ərazi bütövlüyünün qarşılıqlı tanınmasına əsaslanan sülh müqaviləsi bağlamağa çağırdı. Lakin Ermənistanın hərbi-siyasi rəhbərliyi 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın müddəalarını tam şəkildə yerinə yetirmək əvəzinə, təxribatlar edir, üzərinə götürdüyü öhdəliklərdən boyun qaçırırdı. 2023-cü il sentyabrın 2-də Ermənistanın Baş naziri Nikol Paşinyan qanunsuz xunta liderlərini qondarma "müstəqillik günü" münasibətilə təbrik etdi. Bundan əlavə, İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra əldə edilmiş razılaşmalara baxmayaraq, 2023-cü il sentyabrın 9-da Rusiya sülhməramlı kontingentinin müvəqqəti məsuliyyət daşıdığı ərazidə qondarma "seçkilər" keçirildi və nəticədə qondarma "prezident" seçildi. Eyni zamanda Ermənistan Azərbaycan ərazisinə canlı qüvvə, silah və hərbi texnika göndərməkdə davam etdi. Bundan başqa, Rusiya sülhməramlı kontingentinin məsuliyyəti zonasında erməni tərəfi yeni istehkamlar tikməyə, mövqelərinin möhkəmləndirilməsi üçün mühəndis işləri aparmağa cəhd göstərir və minalar basdırırdı.

Belə ki, 2023-cü il sentyabrın 19-da Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda erməni diversiya qrupları tərəfindən əvvəllər yerləşdirilmiş minanın partlaması nəticəsində iki mülki şəxs həlak oldu. Həmin gün Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-təxribat qrupu tərəfindən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularını daşıyan avtomobil minaya düşərək partladıldı, nəticədə 4 nəfər həlak oldu. Bütün bunlar Qarabağ iqtisadi rayonunda genişmiqyaslı təxribatların qarşısının alınması, erməni birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, o cümlədən bölgədə konstitusiya quruluşunun bərpası məqsədilə lokal antiterror tədbirlərinə başlanılması üçün real zəmin yaratdı.

Nəhayət, Vətən müharibəsində Qələbəmizin davamı olaraq, 2023-cü il sentyabrın 19-da lokal xarakterli antiterror tədbirləri keçirildi, Azərbaycan öz suverenliyini tamamilə bərpa etdi. Xankəndi, Ağdərə, Əsgəran, Xocavənd və Xocalıda erməni separatizmi kökündən kəsildi. İstər 44 günlük Vətən Müharibəsi, istərsə də, 1 gündən də az davam edən antiterror əməliyyatı zamanı Azərbaycan Ordusu bütün dünyaya ləyaqətlə mübarizə apardığını bir daha nümayiş etdirdi. Antiterror tədbirləri zamanı Azərbaycan Ordusu yüksək peşəkarlıq və qəhrəmanlıq göstərdi.

Əməliyyat öncəsi hərbi birləşmələrə mülki şəxslərin qorunması ilə bağlı tapşırıqlar verilmişdi. Müdafiə Nazirliyi mülki əhalinin təhlükəsizliyini təmin etmək üçün müxtəlif xəbərdarlıq tədbirləri həyata keçirdi. Antiterror tədbirləri aparıldığı zaman mülki əhali hədəf alınmadı, mülki infrastruktura zərər vurulmadı, yalnız legitim hərbi infrastruktur və obyektlər sıradan çıxarıldı. Yaşayış yerlərini tərk etməmək barədə Azərbaycan tərəfinin çoxsaylı çağırışlarına, tətbiq etdiyi reinteqrasiya proqramına baxmayaraq, erməni sakinlər Azərbaycan ərazilərini tərk etmək barədə qərar verdilər. Bu onların azad seçimi idi və bütün bunlar dünyanın gözü qarşısında baş verdi.

Azərbaycan tarix yazdı: 23 saat ərzində Ermənistanın Qarabağda illərdir qanunsuz olaraq saxladığı 15-18 minlik işğalçı hərbi dəstələrini təslim olmağa məcbur etdi. Qarabağda 100 ildən çox kök salmış separatizm tamamilə məhv edildi, ölkəmizin suverenliyi və konstitusiya quruluşu Qarabağın hər yerində bərpa olundu.

Sentyabr əlamətdar tarixlər ayıdır. Bu gün biz Azərbaycan Ordusunun 2023-cü il 19-20 sentyabr tarixlərində uğurla həyata keçirdiyi unikal antiterror əməliyyatının ildönümünü qeyd edirik. Sentyabrın 20-də ölkəmizdə və regionda müsbət proseslərin əsasını qoyan tarixi "Əsrin müqaviləsi"nin 31 illiyi tamam olacaq. "Əsrin müqaviləsi" müstəqil Azərbaycan üçün təkcə iqtisadi nailiyyət deyil, həm də möhtəşəm siyasi və diplomatik uğurdur. 27 sentyabr Qələbəyə aparan yolun başladığı gündür. Həmin gün biz Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda şəhid olanların hamısını yad edirik. Prezident İlham Əliyevin sərəncamı ilə hər il sentyabrın 20-si Azərbaycanda Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü və Dövlət Suverenliyi Günü kimi qeyd edilir. Bu tarixlərin hər biri ölkənin müasir tarixinə qızıl hərflərlə yazılıb. Və fəxr edə bilərik ki, təqvimimizdə belə tarixlər var.

Cəmi beş il əvvəl Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpasını, eləcə də Ermənistanın, dünya ölkələrinin, beynəlxalq təşkilatların da bu reallığı qəbul edəcəyini təsəvvür edə bilərdikmi? Doğrudur, biz inanır və ümid edirdik ki, gec-tez ədalət bərpa olunacaq. Ancaq, düzünü desək, belə sürətli qələbəyə inananlar az idi. Yalnız Azərbaycan Prezidenti İlham Əliyev hakimiyyətə gəldiyi ilk gündən bunu qəti şəkildə bilirdi. Dövlətimizin başçısı hər gün, hər saat öz tarixi missiyasını həyata keçirmək üçün bütün qüvvələri səfərbər edirdi. Azərbaycan yeganə dövlətdir ki, öz ərazi bütövlüyünü bərpa edib, incəliklə "dondurulmuş" adlandırılan, "həll olunmaz" kimi göstərilən münaqişənin ədalətli həllinə nail oldu.

Ötən 80 il ərzində heç kim torpaqlarının azad edilməsi, işğalçının təslim olması ilə müharibədə tam qələbə qazana bilməyib. Prezident İlham Əliyev qarşıya qoyduğu bu məqsədə uğurla nail oldu.

Bakı sülh müqaviləsinin imzalanması təşəbbüsü ilə çıxış edib. Təşəbbüsün müəllifi Azərbaycan Prezidenti İlham Əliyev idi. Ölkəmizin, xalqımızın yaşadıqları bütün faciələrə, işğalın Azərbaycana vurduğu bütün zərərlərə baxmayaraq, Azərbaycan rəhbəri keçmiş işğalçıya Ermənistanı aşağılayacaq sənəd deyil, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinə əsaslanan və iki xalq üçün uzunmüddətli sülhü təmin edən saziş imzalamağı təklif edib. Bu, Azərbaycanın ruhunu, onun rəhbərinin müdrikliyini göstərən çox humanist addım idi. Qalib ölkə məğlub olan düşmənə ədalətli sülh üçün bərabər şərait təklif edir.

Avqustun 8-də Vaşinqtonda imzalanan birgə bəyannamə sülh müqaviləsi istiqamətində atılan ən mühüm addımdır. Vaşinqtonda əldə olunan tarixi nəticələr: sülh sazişinin paraflanması, ATƏT-in Minsk qrupunun ləğv edilməsi, Zəngəzur dəhlizinin (TRIPP) açılması üçün razılığa gəlinməsi onu göstərir ki, Cənubi Qafqaz bir neçə il əvvəl qeyri-mümkün görünən tektonik dəyişiklikləri yaşayır. Bu gün region uzun sürən münaqişənin davamlı sülh və mehriban qonşuluq mərhələsinə qədəm qoyur. Bu yeni reallığın baş memarı hərbi-siyasi vasitələrlə ölkənin ərazi bütövlüyünü bərpa edən və bununla da bütün regional arxitekturanı yenidən yaradan Prezident İlham Əliyevdir. Dövlət başçısı, bir daha bütün dünyaya, hətta Azərbaycanın haqlı mövqeyinə qarşı çıxan siyasi dairələrə, revanşist qüvvələrə, Azərbaycanı daxildən parçalamağa çalışan təşkilatlara, dövlətimizin inkişafını, bütövlüyünü qəbul etmək istəməyən antimilli qruplara, özünü radikal müxalifət adlandıran, lakin Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad olunmasına, bu tarixi ərazilərdə aparılan tikinti-quruculuq işlərinə, öz doğma yurdlarına qayıdan insanların xoşbəxtliyinə sevinməyən şəxslərə sübut etdi ki, Azərbaycan bütün çətinliklərə baxmayaraq, ərazi bütövlüyünü və suveren hüquqlarını təmin edib və davamlı inkişaf edərək Cənubi Qafqaz regionunun lideri statusunu qazanıb.

İndi sülhün və təhlükəsizliyin təmin olunması üçün mühüm vəzifə və öhdəliklərin başa çatdırılması istiqamətində düşünülmüş, ardıcıl işlər aparılır. Biz inanırıq ki, bu məqsədə də nail olacağıq! Çünki Ümummilli Lider Heydər Əliyevin dediyi kimi: "Azərbaycan indi keçmiş Azərbaycan deyil. Azərbaycan dünya birliyində öz yerini tapıb və hər yerdə nəinki tanınır, hər yerdə öz sözünü deyir, öz siyasətini həyata keçirir. Bu gün Azərbaycan qarşısında dayanan taleyüklü məsələləri həll edərək, daha da inkişaf edir, beynəlxalq aləmdə özünü təsdiqləyir, haqqını qoruyur. İndi dövlətimizin təkcə bölgədə deyil, dünyada nüfuzu artır. Ölkəmiz qlobal təşəbbüslər irəli sürür, bütövlükdə dünyanı düşündürən məsələləri səsləndirir, təkliflər irəli sürür, sülh, təhlükəsizlik, harmoniya, bərabərlik, ədalətlilik naminə öz layiqli töhfələrini verir. Azərbaycan Prezidentinin siyasi uzaqgörənliyi, xalqla birliyi və qətiyyətli mövqeyi bütün ölkələrin liderləri tərəfindən hörmətlə qarşılanır. Hər kəs aydın şəkildə görür ki, onun üçün xalqımızın və dövlətimizin maraqları birinci yerdədir. O, təkcə siyasi baxımdan deyil, eyni zamanda şəxsi keyfiyyətləri - uzaqgörənliyi, prinsipiallığı və xalqına bağlılığı ilə dünya liderlərinin, eləcə də beynəlxalq ictimaiyyətin dərin hörmətini qazanmışdır. Bəli, Azərbaycan sübut etdi: Cənubi Qafqazda sülh yalnız ədalətin bərpasından sonra mümkündür.

*Hicran HÜSEYNOVA,*
*Milli Məclisin Komitə sədri, professor*

## Azərbaycanı bütün hədəflərinə çatdıran qətiyyətli və müdrik siyasət

**Azərbaycanın hərb tarixinin qürurdoğuran səhifələrindən biri olan antiterror tədbirlərindən iki il ötür. Qarabağdakı erməni separatçılarına qarşı 2023-cü il sentyabrın 19-20-də keçirilən bu əməliyyat Vətən müharibəsindən sonra respublikamızın növbəti möhtəşəm zəfəri oldu. Bunun nəticəsində Qarabağda erməni separatçılığına birdəfəlik son qoyuldu, Azərbaycan Respublikasının konstitusiya quruluşu bərqərar edildi, bütün ərazilərimiz üzərində dövlətimizin milli suverenliyi təmin olundu.**

2020-ci ildə Vətən müharibəsinin başa çatmasından sonra rəsmi Bakı Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Qarabağ iqtisadi rayonunda Azərbaycanın suverenliyinin və konstitusiya quruluşunun bərpa edilməsi üçün geniş siyasi-diplomatik fəaliyyət həyata keçirdi. Lakin 2020-2023-cü illərdə dövlətimizin bu istiqamətdə atdığı addımlar Ermənistan tərəfindən qeyri-konstruktiv qarşılandı. Həmin dövrdə sülh prosesindən müxtəlif bəhanə, spekulyasiya və hərbi təxribatlarla yayınan İrəvan Azərbaycan dövlətinin yaratdığı şansı dəyərləndirə bilmədi.

Ermənistan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla üzərinə düşən öhdəliklərini də kobud şəkildə pozaraq, qoşunlarının qalıqlarını Qarabağdan çıxarmadı. Qarabağdakı erməni separatçılar isə tərk-silah edilmədilər. Bunun nəticəsi kimi 2023-cü ilin sentyabr ayına qədər Qarabağdakı separatçılar tərəfindən Azərbaycan Ordusunun mövqelərinə, habelə işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işlərində çalışan mülki vətəndaşlarımıza qarşı davamlı şəkildə təxribatlar törədildi. Üstəlik, Laçın yolu ilə Ermənistandan Qarabağa silah-sursat daşınır, ərazilərimiz minalanırdı. Bunlarla yanaşı, separatçılar Qarabağın təbii sərvətlərini talan edərək Ermənistana daşıyır, respublikamızın ekosisteminə zərər vururdular.

Buna qədər ordumuz tərəfindən uğurla həyata keçirilən Fərrux və Qisas əməliyyatları, 2023-cü ilin aprelində Laçın rayonunda Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsinin yaradılması ermənilər üçün, əslində, xəbərdarlıq idi. Bütün bunlar onu göstərirdi ki, ərazilərimizdə separatçılığa son qoyulacağı, Qarabağ torpaqlarında Azərbaycanın konstitusiya quruluşunun bərpa ediləcəyi gün uzaqda deyil. Cənab Prezident İlham Əliyev çıxışlarında, Qarabağ və Şərqi Zəngəzura köçən vətəndaşlarımızla görüşlərində bir neçə dəfə Qarabağdakı separatçılara xəbərdarlığını etmişdi. 2023-cü ilin may ayında Laçın şəhərinə qayıdan vətəndaşlarımızla görüşdə Prezident İlham Əliyev bildirmişdi ki, o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. 2023-cü il iyunun 23-də Müdafiə Nazirliyinin komando hərbi hissəsində hərbçilər qarşısında çıxış edən Prezident İlham Əliyev bir daha xəbərdarlığını edərək demişdi: "Biz hələlik özümüzü təmkinlə aparırıq. Son iki il yarım ərzində biz bir neçə dəfə məcbur olub Ermənistan tərəfinə öz gücümüzü göstərmişik, birincisi, onların hərbi təxribatlarına cavab olaraq. İkincisi, onlara bir siqnal göndərmişik ki, özlərini yaxşı aparmasalar, öz imzalarına hörmət etməsələr, nəticə onlar üçün acınacaqlı olacaq".

Lakin Qarabağdakı separatçılar bu xəbərdarlıqlardan, Vətən müharibəsində aldıqları acı dərsdən nəticə çıxarmaq istəmədilər. Əksinə, Azərbaycan Ordusunun bölmələrinə qarşı təxribatlar həyata keçirir, Ermənistandan silah daşıyır, yolların terror məqsədilə minalanmasını həyata keçirir, mülki təyyarələrin uçuşlarına radioelektron vasitələrlə problemlər yaradırdılar. Bütün bunlar separatçılara qarşı təsirli tədbirlərin həyata keçirilməsini zəruri edirdi. 2023-cü il sentyabrın 19-da separatçılar tərəfindən polislərimizə və mülki vətəndaşlarımıza qarşı həyata keçirilən terrorçu hücumlar isə Azərbaycan Ordusu tərəfindən təxirəsalınmaz tədbirlərin görülməsini qaçılmaz etdi. Üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Azərbaycan Ordusu tərəfindən 2023-cü il sentyabrın 19-da başladılan lokal xarakterli antiterror tədbirləri cəmi 23 saat çəkdi. Bir sutkadan da az davam edən və Qarabağdakı separatçıların darmadağın edilməsi ilə nəticələnən antiterror tədbirləri Azərbaycan Ordusunun düşmənə vurduğu növbəti "dəmir yumruq" oldu. Bu hadisə Prezident İlham Əliyevin yürütdüyü qətiyyətli siyasətin növbəti təntənəsi oldu, ordumuzun malik olduğu yüksək döyüş qabiliyyətini bir daha nümayiş etdirdi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev 2020-ci ildə Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsinin ardınca növbəti tarixi zəfərimizin müəllifinə çevrildi.

Antiterror tədbirləri nəticəsində Azərbaycan ərazilərində hələ 19-cu əsrdən başlanmış erməni separatçılığına son qoyuldu. Bununla dünya erməniliyinin, başda Fransa olmaqla, erməni təəssübünü çəkən siyasi dairələrin Azərbaycan ərazilərində ikinci erməni dövləti yaratmaq kimi çirkin planları iflasa uğradıldı.

Azərbaycanın Qarabağ iqtisadi rayonunda erməni separatizminə son qoyulması nəticəsində regionda sülhün əldə edilməsi üçün əlverişli şərait formalaşdı. Məhz bundan sonra Ermənistan rəhbərliyinin Azərbaycanın şərtləri ilə razılaşmaqdan başqa yolu qalmadı. Avqust ayında sülh sazişi layihəsinin Ermənistan tərəfindən paraflanması göstərdi ki, cənab İlham Əliyev qalib lider kimi həm də regionda sülhü bərqərar edir.

2023-cü il sentyabrın 20-də uğurla başa çatan antiterror tədbirlərinin əsas nəticələrindən biri də odur ki, bununla Azərbaycan dövləti Qarabağda respublikamızın konstitusion əsaslarını və suverenliyini bərpa etdi. Bu hadisə Azərbaycanın müasir tarixində dövlət suverenliyinin təşəkkülü prosesinin mühüm mərhələsidir. Ona görə "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" Prezident İlham Əliyevin 19 sentyabr 2024-cü il tarixli sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd olunur.

Suveren dövlət daxili və xarici siyasətində tamamilə müstəqil olan, başqa dövlətin hakimiyyətindən asılı olmayan və hansısa bir coğrafi ərazidə suverenliyi olan dövlət deməkdir. Prezident İlham Əliyevin sözügedən sərəncamında qeyd olunduğu kimi, Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir.

Qarabağda erməni separatizminə son qoyulması, Azərbaycan Respublikasının qanunlarının aliliyinin təmin olunması və beləliklə, milli suverenliyimizin tam təmin edilməsi Prezident İlham Əliyevin "Nəyi necə nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Azərbaycan xalqı mənə inanır. Mən də bu inama arxalanaraq bütün lazımi tədbirləri görürəm" sözlərinin növbəti təntənəsi və təsdiqi oldu.

O da reallıqdır ki, ziddiyyətli və gərgin qlobal konyunkturanın mövcud olduğu, beynəlxalq hüququn tapdalandığı bir şəraitdə dövlətlərin öz milli hüquqlarını təmin etmək imkanları da nəinki məhdud, demək olar ki, mümkün deyil. Lakin tarixə ekskurs edərək prosesləri bir daha nəzərdən keçirəndə görürük ki, Prezident İlham Əliyev uzaqgörən və düşünülmüş siyasəti ilə təmkinlə dövlətimizi öz milli hədəflərinə uğurla çatdırıb, Azərbaycanın hüquqlarını layiqincə təmin edib. Artıq dövlət suverenliyimiz və ərazi bütövlüyümüz bərpa olunub, sərhədlərimiz isə toxunulmazdır.

*Nəsib MƏHƏMMƏLİYEV,*
*Milli Məclisin deputatı*

# Dövlət suverenliyi milli sərvətimizdir



# Dövlət suverenliyi və iqtisadi müstəqillik

**2023-cü ilin 19-20 sentyabrında həyata keçirilən lokal xarakterli antiterror əməliyyatı Azərbaycan dövlətçiliyinin tarixində yeni mərhələ açdı. Belə ki, bu əməliyyat nəticəsində separatizmə son qoyuldu və dövlət suverenliyinin tam bərpası öz məntiqi sonluğuna çatdı. Bu münasibətlə Prezident İlham Əliyev tərəfindən Dövlət Suverenliyi Gününün təsis edilməsi müstəqil, ləyaqətli və qətiyyətli dövlət siyasətinin təntənəsidir.**

Dövlət suverenliyi dünyanın bütün siyasi sistemlərində ali prinsip hesab olunur. Bu, sadəcə beynəlxalq-hüquqi status deyil, eyni zamanda iqtisadi məzmun daşıyan bir anlayışdır. İlk baxışdan suverenlik atributlarla - bayraq, gerb, himn və konstitusiya ilə təzahür etsə də, real məzmun yalnız bu simvolların arxasında dayanan siyasi və iqtisadi güclə, müstəqil siyasətlə formalaşır.

Vətən müharibəsindən sonra regionda yaranmış yeni geosiyasi reallıq da göstərdi ki, suverenliyin bərpası real güc tələb edir. Onun bərpası uzunmüddətli və mərhələli proses olmuşdur və əsası 1990-cı illərin ortalarından Ulu Öndər tərəfindən qoyulmuşdur.

## Suverenliyin mahiyyəti

Suverenlik dövlətin öz ərazisində və beynəlxalq münasibətlərdə müstəqil qərar vermək hüququ və imkanlarıdır. Bu, daxili və xarici siyasətdə qərarvermə azadlığı, daxili resurslara əsaslanan idarəetmə, xalqın iradəsi ilə formalaşan ali hakimiyyət və ərazi bütövlüyünü qoruma bacarığı deməkdir. Əsl suverenlik yalnız hüquqi status deyil, həm də real gücdür və heç bir halda güzəştə getməyəcək prinsipial dəyərdir. Bu yanaşma Azərbaycanda dövlət siyasətinin əsasının təşkil etmişdir.

## Heydər Əliyev mərhələsi: dövlətçilik və iqtisadi quruculuq

Ulu Öndər Heydər Əliyev dövlətçiliyi qorumaq ənənəsinin əsasını qoyaraq müstəqil idarəetmə aparatını formalaşdırdı. Onun rəhbərliyi ilə vahid dövlət siyasəti quruldu, ictimai-siyasi sabitlik təmin edildi və ölkə inkişaf yoluna çıxarıldı. "Əsrin müqaviləsi"nin imzalanması və Dövlət Neft Fondunun yaradılması dövlət suverenliyini iqtisadi əsaslarla gücləndirən mühüm addımlar oldu.

## Dövlət suverenliyi və iqtisadi müstəqilliyin qarşılıqlı əlaqəsi

Dövlət suverenliyi və iqtisadi müstəqillik arasında sıx əlaqə mövcuddur. İqtisadi müstəqillik olmadan real siyasi suverenlikdən danışmaq mümkün deyil. Xarici iqtisadi asılılıq siyasi qərarvermə azadlığını məhdudlaşdırır, güzəşt riskləri yaradır. Güclü iqtisadi baza isə dövlətə diplomatik manevr imkanları qazandırır və milli maraqları qorumağa xidmət edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil dövlət siyasəti daha da möhkəmləndi. Ərazi bütövlüyü bərpa olundu, enerji təhlükəsizliyi dövlət siyasətinin mərkəzi istiqamətinə çevrildi, strateji layihələr suverenlik baxımından yeni imkanlar yaratdı. Dövlət başçısının siyasətində suverenlik yalnız siyasi bəyanat deyil, milli strateji hədəf kimi müəyyənləşdirildi. Müstəqil dövlət siyasəti qətiyyətlə həyata keçirildi. Siyasi və iqtisadi müstəqillik uğurlu bir şəkildə uzlaşdırıldı. Enerji təhlükəsizliyi dövlət suverenliyinin əsaslarını möhkəmləndirdi.

## Suverenliyi möhkəmləndirən iqtisadi amillər

Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi aşağıdakı bir sıra amillərə söykənir:

- Strateji resursların dövlətin öz nəzarətində saxlanılması;
- Aşağı xarici borc səviyyəsi;
- İnkişaf proqramlarının daxili resurslar hesabına həyata keçirilməsi;
- Yüksək valyuta ehtiyatları (78,4 milyard dollar);
- Enerji və nəqliyyat layihələri (TANAP, TAP, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars) vasitəsilə regional təsir imkanlarının genişlənməsi.

Bütün bunlar Azərbaycanı regionda enerji və nəqliyyat sahəsində mühüm oyunçuya çevirib.

## İlham Əliyevin baxışları

Prezident İlham Əliyev dəfələrlə vurğulamışdır:

- "Azərbaycan müstəqil siyasət aparan dövlətdir və heç bir dairənin təsiri altına düşmür".
- "İqtisadi cəhətdən müstəqil olmayan ölkə heç vaxt siyasi cəhətdən tam müstəqil ola bilməz".
- "İqtisadi müstəqillik bizim milli təhlükəsizliyimizin əsas dayağıdır".
- "Müstəqillik bizim ən böyük sərvətimizdir. Biz onu qoruyacağıq, gücləndirəcəyik və əbədi edəcəyik".
- "Bizim heç bir beynəlxalq təşkilat qarşısında öhdəliyimiz yoxdur ki, o, suverenliyimizi məhdudlaşdırsın".
- "Neft Fondu Azərbaycanın iqtisadi suverenliyinin əsas dayaqlarındandır".

Bu baxışlar göstərir ki, iqtisadi müstəqillik həm milli təhlükəsizliyin əsas dayağıdır, həm də siyasi suverenliyin təminatçısıdır.

Dövlət suverenliyi yalnız hüquqi atributlarla deyil, iqtisadi güc və təhlükəsizliklə qorunur. Azərbaycan təcrübəsi göstərir ki, iqtisadi müstəqilliyin möhkəmləndirilməsi dövlət suverenliyini təmin edən ən etibarlı yoldur. Bu yol həm milli maraqların müdafiəsini, həm də ölkənin beynəlxalq aləmdə müstəqil və güclü oyunçu kimi mövqeyini təmin edir.

*Azər ƏMİRASLANOV,*
*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri*

# Azərbaycan Konstitusiyasında Heydər Əliyevin suverenlik ideyaları

**Dünyanın ən aparıcı dövlətlərinin tarixində onları sınağa çəkən, inkişaf yolunda maneəyə çevrilən hadisələr az olmamışdır. Bu hadisələr istər başlanğıcda, istərsə də sonralar həmin xalqları tutduqları yoldan sapındırmağa çalışsa da, tarixi iradə onların firavan inkişaf yoluna çıxmasına kömək etmişdir. Dünya xalqları buna görə məhz şəxsiyyətlərə, onların adı ilə bağlı olan zəngin siyasi irsə minnətdardırlar. Yəni tarix şəxsiyyətləri insanlara sanki özünün sınaqları üçün bəxş etmişdir. Amerikalılar üçün bu şəxsiyyət Corc Vaşinqton, ingilislər üçün Uinston Çörçill, fransızlar üçün Şarl de Qoll, türklər üçün Mustafa Kamal Atatürkdürsə, azərbaycanlılar üçün də Ulu Öndər Heydər Əliyevdir! Dünya miqyaslı ictimai-siyasi xadim, Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi, iqtisadi əsaslarını yaratmış, xalqın müstəqil və güclü dövlətə sahib olmaq arzusunu praktik şəkildə gerçəkləşdirmiş strateq kimi çağdaş tariximizdə əbədiyaşarlığını təmin etmiş, hələ sağlığında canlı əfsanəyə çevrilmişdir. Xalqımız tarix boyu qazandığı dövlətçilik ənənələrini, milli dəyərləri, nailiyyətləri, ali mənəvi keyfiyyətləri məhz Heydər Əliyev epoxasında təkmilləşdirərək dayanıqlı müstəqil dövlətini qurmuş, millət kimi mövcudluğunu, özünü idarə etmək bacarığını ən yüksək səviyyədə nümayiş etdirmişdir.**

Ulu Öndər Heydər Əliyev dövlətin maraqlarını rəhbər tutmaqla hər bir vətəndaşın qanuni hüquqlarının yüksək səviyyədə təmin edildiyi təkmil idarəçilik sistemini formalaşdırmışdır. 1995-ci ildə xalqın azad iradəsi əsasında Azərbaycanın mütərəqqi ənənələrə söykənən ilk milli konstitusiyasının qəbuluna nail olan Ümummilli Lider sonrakı mərhələdə dövlət-vətəndaş münasibətlərinin hüquq müstəvisində tənzimləndiyi, insan və vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, humanizm ideyalarının möhkəm təmələ çevrildiyi ədalətli cəmiyyətin formalaşdırılması, idarəçilikdə demokratik ənənələrin tam bərqərar olması naminə misilsiz xidmətlər göstərmişdir. İctimai həyatın ən müxtəlif sahələrində haqq-ədalət prinsipinin qorunmasına çalışan Heydər Əliyev dövlətlə xalq arasında möhkəm mənəvi, siyasi və hüquqi bağlantıya, qarşılıqlı etimada nail olmağı mümkün hesab etmişdir.

Keçmiş sovet ittifaqının süqutu illərində Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə Ermənistan tərəfindən edilmiş qəsd və müdaxilə dövlət və hüquq quruculuğu sahəsində demokratik-hüquq institutlarının inkişafına maneə olan ciddi amillərdən sayılmalıdır.

Suverenlik ali dövlət hakimiyyətinin xarici təsirlərdən müstəqilliyi və öz sərhədləri üzərində hökmranlığın tam təminatı deməkdir. Suverenliyi hər bir dövlətin ayrılmaz xüsusiyyəti, onun beynəlxalq hüquq subyektliyinin mütləq şərtidir. Bu səbəbdən ilk demokratik konstitusiyalar suverenliyin bölünməzliyini dəqiq təsbit edirdi. Məsələn, 1791-ci il Fransa Konstitusiyası müəyyən edirdi: suverenlik "vahid, bölünməz, özgəninkiləşdirilməyən və ayrılmazdır". Həmçinin suverenlik dövlətin öz ərazisində və hüdudlarından kənarda, beynəlxalq ünsiyyətdə, öz funksiyalarını müstəqil və muxtar şəkildə həyata keçirmək qabiliyyətidir. 1991-ci ildə müstəqilliyinin bərpasına nail olmuş Azərbaycan Respublikası özünün Dövlət Suverenliyini və ərazi bütövlüyünü, tam mənasında, ancaq 20 sentyabr 2023-cü ildə bərpa edə bilmişdir. Belə ki, 1991-1994-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20 faizi işğal edilmiş, 20 mindən çox insan qətlə yetirilmiş, 50 mindən artıq adam yaralanmış və şikəst olmuşdur. Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin nəticəsi olaraq bir milyondan artıq insan öz vətənində qaçqın və məcburi köçkün vəziyyətinə düşərək elementar insan haqlarından məhrum edilmişdir. Bundan sonrakı dövrdə ATƏT-in Minsk qrupunun və digər beynəlxalq təşkilatların vasitəçiliyi ilə aparılan danışıqlar heç bir nəticə verməmiş, Ermənistan işğalçılıq siyasətini davam etdirmişdir. Ancaq 2020-ci ilin sentyabr-noyabr aylarında aparılmış 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Ağdam və Laçın rayonlarını, həmçinin Şuşa şəhərini tamamilə, Xocavənd, Kəlbəcər, Xocalı və Tərtər rayonlarının müəyyən bir hissəsini işğaldan azad etmişdir. Hərbi əməliyyatlar 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanan üçtərəfli Bəyanatla başa çatırılmışdır.

Lakin üçtərəfli Bəyanatda üzərinə öz qoşunlarını Azərbaycan Respublikasının ərazisindən tam şəkildə çıxarmaq öhdəliyi götürmüş Ermənistan bundan sonra həmin öhdəliyinə əməl etməmiş, əksinə, qanunsuz yollarla Qarabağın Rusiya sülhməramlılarının nəzarətində olan ərazilərinə silah-sursat və hərbi təyinatlı müxtəlif avadanlıqlar daşımış, 480 kilometrədək təmas xətti boyunca yeni əraziləri minalamış, 500-dən artıq döyüş mövqeyi və möhkəmləndirilmiş uzunmüddətli atəş nöqtələri, müxtəlif tipli artilleriya qurğuları üçün 350-dən artıq atəş mövqeyi yaratmış, kəşfiyyat-müşahidə vasitələri quraşdırmışdır ki, bununla da işğalçılıq siyasətini davam etdirmək niyyətində olduğunu bir daha göstərmiş, Azərbaycan Respublikasını antiterror əməliyyatı keçirməyə məcbur etmişdir.

2023-cü il sentyabrın 19-da başlanılmış antiterror əməliyyatı Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistanın silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması və həmin ərazilərdə Azərbaycanın konstitusiya quruluşunun bərpa edilməsi ilə nəticələnmişdir. Beləliklə də cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış antiterror əməliyyatı nəticəsində Azərbaycan Respublikasının dövlət suverenliyi tam bərpa edilmişdir.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" olan 19 sentyabr 2024-cü il tarixli sərəncamı ilə sentyabrın 20-si Azərbaycanın Dövlət Suverenliyi Günü kimi müəyyən edilmişdir.

44 günlük Vətən müharibəsi, eləcə də antiterror əməliyyatı bilavasitə Azərbaycan Respublikasının Dövlət suverenliyinin bərpası kimi, onun konstitusiya quruluşunun bərqərar olmasını da təmin etmişdir. Belə ki, Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək respublikamızın ərazisində çıxarılması, eləcə də qanunsuz yaradılmış separatçı qurumun fəaliyyətinə son qoyulması Azərbaycanın bütün ərazisində konstitusiya quruluşunun tam təmin olunması ilə nəticələnmişdir.

2020-ci ildə Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımız Heydər Əliyevin müqəddəs vəsiyyətinə əməl etdi və öz torpaqlarını işğaldan azad edərək Ulu Öndərin ideyalarının təntənəsini bütün dünyaya nümayiş etdirdi.

Azərbaycan xalqı ötən əsrin 90-cı illərinin əvvəlində Ulu Öndərin qətiyyəti və dərin zəkası ilə siyasi böhrandan necə xilas olmuşdusa, məhz Ümummilli Liderin siyasi kursunu və inkişaf strategiyasını inamla davam etdirən Prezident İlham Əliyevin gərgin səyləri və yenilməz iradəsi sayəsində 30 illik erməni işğalına son qoydu. Bu tarixi hadisə bir daha göstərdi ki, Heydər Əliyevin dövlətçilik məktəbi hər zaman olduğu kimi, bu gün də aktuallığını qoruyub saxlayır və ölkəmizin daha da qüdrətlənməsi işinə öz misilsiz töhfələrini verməkdə davam edir.

Müstəqil milli dövlətçiliyimizin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, siyasi irsi Azərbaycanın ən yeni tarixinin ən mühüm və şərəfli səhifələrini təşkil edir. Çünki, xalqımız öz dövlətçiliyinin dünyəvi, demokratik, hüquqi əsaslar üzərində bərqərar olunmasına Ulu Öndər Heydər Əliyevin qətiyyəti nəticəsində nail olmuşdur. Dünya təcrübəsi göstərir ki, dövlətin davamlı inkişafı üçün möhkəm hüquqi bazanın yaradılması, məhkəmə-hüquq və qanunvericilik sisteminin formalaşdırılması vacib şərtdir. Məhz bu səbəbdən də hələ sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə artıq müstəqil dövlətimizin möhkəm bünövrəsini qoyan Ulu Öndər respublikanın məhkəmə-hüquq və qanunvericilik sistemində də mühüm islahatlar həyata keçirmişdir.

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonrakı dövr Azərbaycan konstitusionalizminin inkişafında əsaslı dönüş mərhələsi kimi xarakterizə olunur. Ulu Öndərin sayəsində ölkədə qısa müddət ərzində dayanıqlı ictimai-siyasi sabitlik bərqərar olunduqdan sonra Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu, demokratik dəyərlərə uyğun hazırlanmış yeni konstitusiya 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Məhz bu konstitusiya əsasında Azərbaycanda demokratik quruluşun və hüquqi dövlətin möhkəm təməli qoyulmuş, hüquq islahatlarının aparılmasına başlanılmışdır. Ulu Öndər həmin dövrdə yeni yaradılmış Hüquqi İslahat Komissiyasına rəhbərliyi bilavasitə öz üzərinə götürərək qısa müddət ərzində hüquq sisteminin əsasını təşkil edən mühüm qanun və məcəllələrin qəbul edilməsinə nail olmuşdur.

Ulu Öndərin hüquqi islahatlar kursunun müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf və davam etdirilməsi bu gün Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Dövlət başçımızın imzaladığı məqsədyönlü fərman və sərəncamlar, həyata keçirdiyi əsaslı islahatlar sayəsində hazırda ölkəmizdə dövlət idarəçilik mexanizmlərinin səmərəli fəaliyyətini tənzimləyən qanunların müasirləşdirilməsi və təkmilləşdirilməsi işi davamlı prosesə çevrilib. Təsadüfi deyil ki, bu gün Azərbaycan bir çox göstəricilər üzrə təkcə MDB məkanında deyil, eləcə də bütün dünyada nümunə göstərilir. Heç bir şübhə yoxdur ki, Azərbaycanın bugünkü uğur və nailiyyətlərinin əsasında Ulu Öndər Heydər Əliyevin effektiv dövlətçilik strategiyası və siyasi irsi durur.

Azərbaycan Konstitusiyası bütün qanunvericilik aktları sırasında xüsusi yer tutur. Konstitusiya dövlətimizin və cəmiyyətimizin müasir inkişaf mərhələsində onun hüquqi konsepsiyasını əks etdirən ən mühüm, başlanğıc nöqtələri ehtiva edir. Buna görə də bu sənəd bütün hüquq sisteminin əsası, özəyi kimi çıxış edir. Beləliklə, konstitusiyanın normaları Azərbaycan Respublikasının bütün hüquq sisteminin qurulmasına və inkişafına təsir göstərir. Normativ aktlar sırasında ən yüksək pilləni tutan konstitusiya bütün qanunvericilik aktlarının hüquqi əsası rolunu oynayır. Daha dəqiq desək, Azərbaycan Respublikasının Konstitusiyası hüquqi qüvvəsinə görə dövlətin bütün digər normativ hüquqi aktlarının uyğun gəldiyi, yaxud uyğun gəlməli olduğu ən yüksək normativ hüquqi aktdır. Başqa sözlə, "Konstitusiya Azərbaycan Respublikasının hüquq sisteminin əsasıdır". Bu o deməkdir ki, hüquq sisteminə daxil olan ayrı-ayrı hüquq sahələrinin mənbələri sırasında konstitusiya aparıcı yer tutur. Konstitusiya normaları ictimai münasibətləri tənzimləməklə yanaşı, həm də dövlətin və cəmiyyətin əsaslarını möhkəmləndirir.

Azərbaycan Konstitusiyası ölkənin dövlət suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünün təmin edilməsi, bununla da respublikanın demokratik hüquqi dövlət kimi formalaşması, qanunçuluğa və konstitusionalizmə tam nail olunması üçün zəruri olan ilkin şərtləri yaratmışdır. Əminliklə deyə bilərik ki, Azərbaycan vətəndaşlarının indiki və gələcək nəsillərinin maraqları naminə dövlət müstəqilliyi və suverenliyinin qorunması məqsədilə konstitusiya səviyyəsində əlavə mexanizmlərin müəyyən edilməsi və tətbiqi ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir.

Azərbaycan Prezidenti İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli sərəncam ilə 2025-ci ilin Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilməsi bunun bariz nümunəsidir. Belə ki, "Konstitusiya və Suverenlik İli"nin elan olunması dövlətin hüquqi əsaslarının möhkəmləndirilməsi, təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət suverenliyi və konstitusionalizm ideyalarının daha da inkişaf etdirilməsi məqsədinə xidmət edir.

*Habil QURBANOV,*
*hüquq elmləri doktoru, professor*




# Konstitusiya və Suverenlik İli 2025





## Müstəqillik uğrunda mübarizənin rəmzi sonu

**Azərbaycan Konstitusiyası qəbul edilərkən dövlətin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq altı ali niyyətdən biri kimi müəyyən olunub. Lakin daha öncədən, yəni müstəqillik əldə edildikdən sonra 1993-cü ilə qədərki hakimiyyətlərin səbatsızlığı və xəyanətkar mahiyyəti ucbatından Azərbaycanın beynəlxalq hüquqla tanınan ərazilərinin təcavüzə məruz qalması, nəticədə beynəlxalq hüququn normalarını, BMT Nizamnaməsinin tələblərini kobud şəkildə pozaraq Azərbaycana qarşı təcavüzkar siyasət həyata keçirən Ermənistanın hərbi gücdən istifadə etməklə ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərini 30 ildən çox işğal altında saxlaması, Qarabağ və Şərqi Zəngəzurun viran qoyulması, işğal altındakı bölgəmizin təbii resurslarının talan edilməsi, tarixi, dini, mədəni abidələrin vandallıqla dağıdılması, 30 ilə yaxın davam edən danışıqların dalana dirənməsi sonrakı dövrlərdə bu ali konstitusion niyyətimizin realizəsi qarşısında əngələ çevrilmişdi.**

Nəticədə qeyd olunan qəbuledilməz vəziyyət, Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir. Lakin Ermənistanın işğalçılıq siyasəti nəticəsində ərazilərimizin 20 faizinin 30 ildən artıq bir dövrdə işğal altında qalması, özünü beynəlxalq ictimaiyyət adlandıran bir sıra beynəlxalq subyektlərin Ermənistanın bu işğal və təcavüz siyasətinə dəstək verməsi də uzun bir dövr ərzində dövlətimizin özünün beynəlxalq hüquqla tanınan bütün ərazilərində suveren haqlarının bərpası üçün maneə kimi çıxış etmişdir. Belə bir situasiya işğalçı Ermənistanı yeni cinayətlərə təşviq etmiş, bu ölkə əvvəlki periodda olduğu kimi, sonrakı dövrlərdə də azərbaycanlılara qarşı etnik təmizləmə, insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlər törədərək, habelə işğal altında olan ərazilərimizi kütləvi olaraq minalayaraq problemi daha da dərinləşdirmişdi. Əlbəttə, situasiya ölkəmizin lehinə deyildi, lakin Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" sərəncamında da ifadə edildiyi kimi, tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir.

1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin ölkədə cərəyan edən təhlükəli proseslərin qarşısını alması, ictimai-siyasi sabitliyin təmin edilməsinin müasir dövlət quruculuğu üçün etibarlı zəmin yaratması, cənab İlham Əliyevin isə Ulu Öndər siyasi kursunun layiqli varisi kimi siyasi müstəqilliyi gücləndirməsi, iqtisadi müstəqilliyə tam nail olması, güclü ordu və müdafiə sənayesi quruculuğu, azərbaycançılıq ideologiyası ətrafında tam milli birliyə nail olması, vətənə bağlı, milli təfəkkürlü gənc nəslin yetişməsi vəziyyəti köklü surətdə dəyişdi.

Azərbaycanın güc, nüfuz və imkanlarının artdığı bir şəraitdə 7 il öncə Ermənistanda hakimiyyət dəyişikliyi və hazırkı iqtidarın Köçəryan-Sarkisyan cütlüyünü hakimiyyətdən kənarlaşdırması Bakı-İrəvan dialoqunun praqmatik əsasda qurulmasına ümid yaratsa da, 2018-ci ildə dəyişən Ermənistan hökuməti münaqişənin sülh yolu ilə həll edilməsi istiqamətində nəinki hər hansı ümidverici addım atdı, əksinə, yeni müharibə və yeni torpaqlar tezisini irəli sürərək Azərbaycanın sülh təkliflərini rədd etdi, danışıqlara sıfırdan başlayacağını bəyan etməklə Serjik-Köçəryan qaniçən rejiminin ənənələrini rəhbər tutaraq müzakirələri uzatmaq taktikasına üstünlük verdi. Daha sonra isə Ermənistanın Baş naziri bir az da irəli gedərək Xankəndidə "Qarabağ Ermənistandır, nöqtə" deməklə danışıqları birdəfəlik sonlandırdı. Təbii ki, Azərbaycan bu status-kvo ilə barışa və İrəvanın artan ambisiyalarına laqeyd qala bilməzdi. Lakin cənab İlham Əliyev yenə də müharibə arzulamır, güclü ordu quruculuğu və artan döyüş ruhuna baxmayaraq, hələ də dinc həll yoluna üstünlük verməyə çalışırdı.

Ermənistan isə Bakının sülh və dialoqa sadiqliyini, o cümlədən münaqişələrin həlli üsulu kimi müharibələri rədd etməsini zəiflik kimi dəyərləndirərək heç bir real əsasa söykənmədən işğal miqyasını genişləndirmək iştahına düşdü və bu ölkənin 2020-ci il sentyabrın 27-də başlatdığı II Qarabağ müharibəsi məhz həmin iddiaların praktik realizəsi idi. Lakin Azərbaycan artıq 1990-cı illərin əvvəllərində başsız, milli iradə tərəfindən idarə olunmayan zəif bənd deyildi və Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına ölkəmizin Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığında verdiyi cavab yeni bir dövr başlatdı. 44 gün davam edən müharibədə Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan ordusunu darmadağın etməsi, tarixi Zəfəri ilə işğal altındakı ərazilərinin böyük bir hissəsinin azad olunması, Kəlbəcər, Ağdam və Laçın rayonlarında yerləşən Ermənistan silahlı qüvvələrinin hissələrinin isə strateji yüksəkliklərə nəzarət etmələrinə baxmayaraq, bir güllə atmadan kapitulyasiyanın nəticəsi olaraq 2020-ci ilin sonuna qədər ərazidən çəkilməyə məcbur edilməsi qələbəmizə siyasi çalar qatdı. Beləliklə, Azərbaycan hərbi-siyasi zəfər qazanmaqla torpaqlarını 30 illik işğaldan azad edərək BMT Təhlükəsizlik Şurasının qətnamələrini özü yerinə yetirib beynəlxalq hüququn ümumtanınmış normalarının aliliyini təmin etdi. Lakin narahatlıq yaradan məqamlar davam edirdi və bu qəbildən olan hallardan biri imzalanmış kapitulyasiya aktından sonra Azərbaycanın Qarabağ bölgəsində 10 mindən artıq Ermənistan silahlı qüvvələrinin birləşmələri və qeyri-qanuni erməni silahlı dəstələrinin mövcud olması idi. Halbuki üçtərəfli Bəyanata əsasən, Qarabağ ərazisindəki erməni yaraqlıları 3 il əvvəl tərk-silah edilməli idilər.

Azərbaycan işğala məruz qalan tərəf olsa da, Qarabağda baş verən gərginliyin aradan qaldırılması, azərbaycanlılarla ermənilərin birgə yaşayışını təmin edəcək reinteqrasiya prosesinin normal davam etməsi və məsələnin ikitərəfli danışıqlar yolu ilə həllini tapması üçün 3 il müddətində əlindən gələni etdi. Lakin müharibədən sonra kifayət qədər ehtiyatlı davranan Ermənistan kapitulyasiya şərtlərinə əməl etməyə məcbur qalsa da, sonrakı dövrdə, xüsusən Fransa başda olmaqla, avrostrukturların, habelə ABŞ-nin demokratlar iqtidarının dəstəyi ilə öhdəliklərindən yayınmağa, Azərbaycanın hələ də nəzarəti tam bərpa etmədiyi Qarabağ bölgəsindən və orada hökm sürən separatizmdən ölkəmiz əleyhinə rıçaq kimi istifadə etməyə başladı. Bu çərçivədə Ermənistan və qondarma Dağlıq Qarabağ rəhbərliyi Azərbaycanın səylərinə və təşəbbüslərinə baxmayaraq, heç bir vəchlə sülh müzakirələrinə başlamaq istəməməklə qeyri-konstruktiv davranışlar sərgilədilər. Bu, açıq formada dövlətin əsas xüsusiyyəti hesab edilən və dövlətin üstün və qeyri-məhdud səlahiyyətlərində ifadə olunan suverenliyinə təhdid idi və BMT-yə üzv olan heç bir dövlət tərəfindən müstəqilliyi tanınmayan qondarma rejimin Qarabağda fəaliyyətini davam etdirməsi qəbuledilməz status-kvoya gətirib çıxarmışdı. Üstəlik, Azərbaycan və Ermənistan arasında imzalanan 10 noyabr sənədinə əsasən, Ermənistan və qondarma Dağlıq Qarabağ arasında sosial problemlərin həlli məqsədilə Azərbaycan ərazisindən - Laçın üzərindən keçən humanitar dəhliz separatçılara silah və sursat daşınan marşruta çevrildi. Digər tərəfdən, qlobal himayədarlarına güvənən ermənilər mütəmadi olaraq təxribatlar törətməklə yeni müharibə təhlükəsi yaradaraq regionda bəşəri dəyərləri ciddi şəkildə təhdid etməyə başlamışdı. Nəticədə Azərbaycan daha bir qətiyyətli addım ataraq 2023-cü il aprelin 23-də Laçın-Xankəndi yolunun başlanğıcında, Həkəri çayının üzərində Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsi yaratmaqla suveren hakimiyyətin aliliyinin və nəzarət funksiyasının yerinə yetirilməsinin təmin edilməsi istiqamətində ən ciddi addımlarından birini ataraq İkinci Qarabağ müharibəsində Ağdam, Laçın və Kəlbəcərdə olduğu kimi, sonra bir güllə belə atmadan növbəti tarixi nailiyyətə imza atdı. Bu, cənab İlham Əliyevin Azərbaycan xalqı və dövlətçilik qarşısında növbəti misilsiz qətiyyət nümunəsindən ibarət yeni tarixi xidməti idi. Azərbaycan müstəqillik tarixində ilk dəfə olaraq beynəlxalq aləm tərəfindən tanınmış bütün sərhədləri boyunca suveren hakimiyyətini və nəzarətini təmin edərək ərazi bütövlüyünün bərqərar olunmasına nail oldu. Lakin yenə də Ermənistanın və havadarlarının dəstəyinə güvənən separatçılar nəinki vəziyyəti doğru qiymətləndirmək istəmədi, əksinə, humanitar böhran şousu yaradaraq Azərbaycan əleyhinə təzyiq mühiti formalaşdırmağa, o cümlədən bölgədə silahlı təxribatları və müharibə cinayətlərini intensivləşdirməyə üstünlük verdilər. Məhz bu təxribatların növbətisi nəticəsində xidməti vəzifələrini yerinə yetirən polislərimizin həyatını itirməsi ölkəmizin səbrini daşırdı.

Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı altında növbəti dəfə döyüşə girən qəhraman ordusu 2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə qətiyyətli əks həmlə və peşəkarlıqla həyata keçirilən antiterror tədbirlərinə başlayaraq bir neçə saatlıq hərbi əməliyyatla qarşısındakı bütün vəzifələri yüksək dəqiqliklə yerinə yetirdi. Prezident İlham Əliyevin ötən il sentyabrın 20-də Qarabağ Universitetinin müəllim və tələbə heyəti ilə görüşündəki çıxışında da ifadə etdiyi kimi: "Bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində separatçıların kökü kəsildi, Azərbaycan öz dövlət suverenliyini tam təmin etdi, beynəlxalq hüquq zəfər çaldı və Azərbaycan öz gücünü bir daha göstərdi". Beləliklə, o zaman, cəmi 23 saat öncəyədək təhdid dili ilə danışan qondarma rejimin antiterror əməliyyatlarının gedişindəcə özünü buraxdığını elan etməsi ilə Azərbaycan bütün əraziləri üzərində suverenliyini tam bərpa etdi.

Beləliklə, Azərbaycan Respublikası hakimiyyətin aliliyi və nəzarət funksiyasını tam şəkildə bərpa etməklə öz dövlətinin daxili və xarici siyasətində tamamilə müstəqil olan, başqa dövlətin hakimiyyətindən asılı olmayan və öz coğrafi ərazisində suverenliyi olan bir ölkə kimi yeni inkişaf dövrünə qədəm qoydu. Bu reallıq Azərbaycanın dövlətçilik tarixində müstəsna əhəmiyyətə malikdir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2024-cü il 19 sentyabr tarixli sərəncamı ilə hər il sentyabrın 20-də qeyd olunacaq unudulmaz tarix - Dövlət Suverenliyi Günü təsis edildi və bu hüquqi akt Azərbaycanın 1991-ci ildə müstəqilliyinin bərpası ilə başlayan hadisələrin kulminasiya nöqtəsi olan ərazi bütövlüyü və müstəqillik uğrunda onilliklər boyu davam edən mübarizənin rəmzi sonunu əks etdirir.

Sirr deyil ki, özünün siyasi, mədəni tarixinə, taleyinə sahib çıxmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək hər xalqa nəsib olmur. Dövlətimizin başçısının ifadə etdiyi kimi, "Buna sahib olmaq xalqın ictimai-siyasi həyatında ən böyük nailiyyətidir". Bu baxımdan Dövlət Suverenliyi Günü - Azərbaycanın mövcudluğunun və institusional davamlılığının təmininin ifadəsi, müstəqillik və dövlət quruculuğu tariximizin cənab İlham Əliyevin imzası ilə formalaşan şərəf səhifəsidir. Məhz İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı altında Azərbaycan Silahlı Qüvvələrinin zəfərləri ilə əleyhimizə formalaşan status-kvo köklü şəkildə dəyişmiş, Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması ilə nəticələnən antiterror tədbirləri şanlı tariximizə Azərbaycan Respublikasının bütün ərazilərində konstitusiya quruluşunun bərpa edilməsi tarixi kimi düşmüş oldu. Azərbaycan əleyhinə müxtəlif platformalarda çoxsaylı qarayaxma kampaniyaları və hücumlara baxmayaraq, cənab İlham Əliyevin qətiyyəti və ordumuzun gücü hesabına Azərbaycan müstəqillik tarixində ilk dəfə olaraq Qarabağ iqtisadi rayonunda tam şəkildə suveren haqlarını bərpa etməklə, həm də bütövlükdə bölgə üçün yeni bir səhifə açmış oldu. Belə ki, regionda və regiondan kənarda separatizmdən, terrorçuluqdan əziyyət çəkən qlobal subyektlər Azərbaycanın effektiv mübarizə formuluna ustad dərsi kimi baxmağa və haqlı olaraq nəticə çıxarmağa başladılar. Dövlətimizin başçısı Azərbaycan ərazilərində separatizmə son qoymaqla ölkəmizin suverenliyini tam şəkildə bərqərar edib və bu gün artıq Xankəndi başda olmaqla, Qarabağ iqtisadi rayonunun hər bir guşəsində digər beynəlxalq hüquqla tanınan ərazilərimizdə olduğu kimi, Azərbaycanın üçrəngli bayrağı əzəmətlə dalğalanmaqdadır. Bir zamanlar vandalizm nəticəsində xarabazara çevrilən Qarabağ və Şərqi Zəngəzura yenidən həyat qayıtmaqdadır. Möhtərəm Prezidentin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" müəyyənləşərkən işğaldan azad olunmuş ərazilərə Böyük qayıdış 5 milli hədəfdən biri kimi müəyyən edilib. Cənab İlham Əliyev hesab edir ki, qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcək. Eyni zamanda dövlətin mövqeyi ondan ibarətdir ki, işğaldan azad olunmuş ərazilərimizə Böyük qayıdış vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaq. Azərbaycan dövləti öz doğma torpaqlarından köçkün düşən insanların vətənə qayıdışının təmin olunmasına qələbənin əbədiləşdirilməsi vasitələrindən biri kimi baxır. Məhz bu siyasətin rəhbər tutulmasının nəticəsidir ki, daşı daş üstə qalmamış Qarabağ və Şərqi Zəngəzurda cəmi 5 il ərzində artıq 55 mindən çox vətəndaşımız ən müasir standartlara uyğun şəraitlə təmin olunmuş yaşayış məskənlərinə köçüb, proses isə davam edir. Dövlət başçımız tez-tez həmin bölgələrdə səfərdə olur, işlərin gedişini, həmin ərazilərin cəmiyyətin ən sağlam, müasir və abad yaşayış mühitinə çevrilməsi, dayanıqlı məskunlaşma üçün müasir prinsiplərə əsaslanan komfortlu yaşayış mühiti yaradılmasını şəxsən nəzarətdə saxlayır. Qarabağ, Şərqi Zəngəzur tarixinin heç bir dövründə bu qədər intensiv, müasir quruculuq prosesinə şahidlik etməyib. Artıq əminliklə deyə bilirik ki, işğaldan azad olunmuş bölgələrdə həyata keçirilən prinsipial quruculuq-bərpa prosesi, təbii resurs bolluğu və qazanılan tarixi imic bu ərazilərə sərmayə cəlbinə imkan verməklə yanaşı, bütövlükdə Cənubi Qafqazda dayanıqlı inkişafa mühüm töhfə olacaq. Bu situasiya, o cümlədən işğaldan azad olunmuş ərazilərin potensialından düzgün istifadə edilməsinin bütövlükdə ölkədə iqtisadi yüksəlişin daha da sürətlənməsinə əlavə stimul verməsi, suverenliyin güclənməsi milli maraqların ifadə olunduğu pozitiv dinamikanı qoruyub saxlamasına birmənalı müsbət təsirini göstərməkdədir. Dövlət suverenliyimizin bərqərar olunmasının ikinci ildönümündə, paralel olaraq dayanıqlı sülhə tam yaxınlaşdığımız bir məqamda, daha əminliklə deyə bilirik ki, artıq dövlət suverenliyimizin tamlığı, ərazilərimizin bütövlüyü, sərhədlərimizin isə toxunulmazlığı əbədidir.

*Bəhruz MƏHƏRRƏMOV,*
*Milli Məclisin deputatı*

## Suverenliyimiz, yaxud Qafqazın nüvəsindən yenidən qalib doğulan Azərbaycan

**20 Sentyabr Suverenlik Gününü - bu böyük tarixi hadisəni bütün mənalarda istiqlalını qazanmış, sərhədlərini bərpa etmiş, böyümüş, güclənmiş, əzmini və səriştəsini artırmış, Bakıdan Vaşinqtona qədər uzanan siyasi nüfuz dalğasında milli müqəddəratını özü təyin etmiş bir ölkənin vətəndaşları kimi qarşılayırıq.**

Son otuz ildə keçdiyimiz yolun çətinliklərindən çox bəhs etmişik. Artıq zaman deyil, proseslər, situasiyalar fərqli şəkil alıb. Suverenlik faktının müstəsna tarixi fenomen olduğunu günbəgün daha dərinliyi ilə hiss etməkdəyik. Bu mənada, nəzər nöqtələri, diskurslar, yanaşmalar dəyişib və dəyişməkdədir. Yəqin ki, tədricən şüuraltı axın daha dərinlərə işlədikcə, çağın obrazını daha əhatəli, epik panoram genişliyi ilə idrak edəcəyik. Amma bu günün içindən belə aydın görünən, getdikcə bütün yönləri ilə sərgilənən həqiqətlər var ki, onlarla bağlı qənaət birmənalı olaraq sabitdir. Məsələn, böyük qələbəmizi bizə qazandıran dəyərlər, təməllər, siyasi sistemin möhkəm sütun üzərində pərvəriş tapması və sairə. Bunlar hamısı Ümummilli Lider Heydər Əliyevin dühasında qurulan, dövlət müstəqilliyinin möhkəm təməllərini yaradan əməllər sırasında ehtiva olunmuşdur. O əməllər ki, sonradan dövlət başçısı, Prezident İlham Əliyevin siyasətində sabahlı bir gələcək kontekstindən məndəricə qazandı. İlham Əliyev müstəqil dövlətçiliyi, suverenlik anlayışını bütün istiqamətlər üzrə inkişaf etdirərək yeni mərhələyə çıxardı. Əlbəttə ki, tarixi taleyimizdə həlledici səhifə açan epoxal hadisənin adı Qarabağda qazanılan Zəfər oldu. Amma bura qədər də İlham Əliyev yeni epoxanın, yeni əsrin meydana çıxardığı, böyük siyasi-ideoloji məktəb keçmiş, Azərbaycan dövlətinin dayaqlarını əsaslı şəkildə inkişaf etdirərək möhkəmləndirən və yeni üfüqlər açan qüvvətli lider kimi özünü çoxdan təsdiq etmişdir. Azərbaycan neft strategiyasını ardıcıl və yüksək səviyyədə inkişaf etdirməsi, dünya ölkələri ilə inteqrasiya proseslərinin daha da genişləndirilməsi, bir çox hallarda isə yeni əlaqələrin yaranmasına yol açması, müxtəlif layihələr əsasında ölkədəki rifaha çalışması, quruculuq işlərinin möhkəmlənməsi və geniş şəkil alması prosesində xidmətləri və sairə.

Bəli, suverenliyin əsası 1991-ci ildə qoyulsa da, onu möhkəmləndirmək, qorumaq və bərpa etmək məhz sonrakı illərdə dövlət başçısı Heydər Əliyevin, daha sonra isə İlham Əliyevin əsas vəzifəsi oldu. Ölkədə siyasi sabitlik təmin olundu, dövlət institutları gücləndirildi, idarəetmə sistemi müasirləşdirildi. Orduya böyük sərmayə qoyuldu, ən müasir texnika və silahlarla təmin edildi. Peşəkar zabit və əsgər hazırlığına xüsusi diqqət ayrıldı. Bu siyasət nəticəsində Azərbaycan Ordusu regionun ən güclü ordularından birinə çevrildi. Azərbaycanı dünyada etibarlı enerji tərəfdaşı kimi tanıtdı. Bakı-Tbilisi-Ceyhan, TANAP, TAP, "Cənub qaz dəhlizi" kimi layihələr ölkəyə iqtisadi güc və siyasi müstəqillik qazandırdı. Neft gəlirləri ağıllı şəkildə idarə olunaraq qeyri-neft sektorunun inkişafına yönəldildi. Xarici siyasətdə müstəqillik meyarları əsas götürüldü. Azərbaycan heç bir hərbi-siyasi bloka qoşulmadı, balanslı siyasət yürütdü. Qoşulmama Hərəkatına sədrlik etdi, Türk Dövlətləri Təşkilatında və digər beynəlxalq platformalarda ölkənin mövqeyini gücləndirdi. Bütün bunlar onunla sonuclandı ki, 2020-ci ildə Vətən müharibəsi nəticəsində işğal altındakı torpaqların böyük hissəsi azad edildi. 2023-cü ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirləri ilə Qarabağda qalan separatçı silahlı qruplar tərk-silah edildi. Bununla da Azərbaycanın tam dövlət suverenliyi bərpa olundu. Beləliklə, Prezident İlham Əliyevin atdığı mühüm strateji addımlar Azərbaycanı həm siyasi, həm iqtisadi, həm də hərbi baxımdan güclü dövlətə çevirdi və suverenliyimizi yalnız kağız üzərində deyil, real həyatda tam təmin etdi.

Hakimiyyətdə olduğu bütün illəri İlham Əliyevin ata vəsiyyətini yerinə yetirməsi üçün keçdiyi hazırlıq mərhələsi də adlandıra bilərik. O vəsiyyət ki, özündə müstəqillik andı, xalq amili, milli mənafe, ölkə maraqlarını meyara çevirmək kimi ən ali dəyərləri ehtiva edir. Bunu yalnız siyasi arenada deyil, milli mədəniyyətə münasibətdə də gerçəkləşdirmişdir İlham Əliyev. Zənnimcə, bu yöndə sərgilədiyi həssaslığı da Ümummilli Lider Heydər Əliyev dühasına, şəxsiyyətinə, onun mədəniyyətə, ədəbiyyata baxış tərzinə aid milli dəyərlər sistemi hesab etmək olar. Prezidentin elə son illər imzaladığı sərəncamlara diqqət etsək, görmək çətin olmaz - "Multikulturalizm ili", "İslam həmrəyliyi ili", "Azərbaycan Xalq Cümhuriyyəti ili", "Nəsimi ili", "Nizami ili" - bunlar Heydər Əliyev yolunun yeni tarixi formatda davamının əyani sübutudur. Bu sərəncamların hər biri xalqın dövləti şüurunun güclənməsində, vahid bir ideya ətrafında köklənməsində, insanların milli və tarixi dəyərlər üzərində səfərbər edilməsində, öz tarixi kimliyindən uzaq düşməməsində böyük rol oynayır. Eləcə də mental dəyərlərimizi, kimliyimizi dünyaya bəyan edir, daha sistemli və davamlı təlqinlərə imkan yaradır. Bu mənada, son otuz il həm də inamımızın və iradəmizin yaşıdıdır.

Müharibədəki zəfərimiz, daha sonra 2023-cü ilin 19 sentyabrında antiterror əməliyyatlarında qazanılmış qələbə, ilk növbədə, bütövlük amalına inamla, bütün təzahürlərində bu amala sadiq qalmaqla qazanıldı. Diqqət eləsək görərik ki, Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi bütün zaman kəsimlərində Azərbaycan idealını tam vurğusu ilə qoruyub yaşada biləcəyi qutsal anlayışa çevirdi. İlham Əliyev də energetik passionarlıqla həm tarixi-kulturoloji, həm də hərbi-siyasi kontekstdə həmin idealı tarixin ən dramatik və xaotik dalğalarından zədəsiz çıxarmağa müvəffəq oldu. Ən yeni Azərbaycanın modeli, onun modern fəlsəfəsinin idrakı addım-addım gedilən bu yolların üfüqündə idi. Qafqazın nüvəsindən qalib dövlət kimi doğulan Azərbaycan indi Ali Baş Komandanın əzmi ilə özünü yenidən yaratmaqla, qurmaqla, dünyanın qlobal siyasət meydanında fundamental strateji mövqeyi ilə görünməklə yeniliklərə imza atmaqdadır. Bu fərqli rakurslarla həm də yeni siyasi və milli-mənəvi arxitekturanın əsası qoyulacağı mütləqdir.

*Elnarə AKİMOVA,*
*Milli Məclisin deputatı,*
*YAP İdarə Heyətinin üzvü, filologiya elmləri doktoru*

# Dövlət suverenliyi milli sərvətimizdir

**2003-cü ilin 15 oktyabrından etibarən ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu proseslərinin, sosial-iqtisadi inkişafın, ordu quruculuğunun, həmçinin ərazi bütövlüyünün, suverenliyinin təmin edilməsi istiqamətində aparılan ardıcıl fəaliyyətin növbəti mərhələsi Ulu Öndərin siyasi varisi və layiqli davamçısı, Prezident İlham Əliyevin missiyası ilə bağlı olmuşdur.**



# Suverenliyin ilkin şərtləri: Müstəqil siyasət, güclü iqtisadi konsepsiya

Dövlətimizin başçısının rəhbərliyi ilə aparılan köklü islahatların birinci mərhələsi 18 mart 2009-cu ilədək (Konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı referendum) davam etmiş, bu dövr, əsasən, demokratik islahatların, dövlət quruculuğu proseslərinin davam etdirilməsi ilə səciyyələnmişdir. Bu mərhələdə Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklərin edilməsi, həmçinin ölkə iqtisadiyyatında əldə olunan nailiyyətlər keçid dövrünün 2009-cu ildə başa çatdığını təsdiqləyən mühüm göstəricilər kimi qiymətləndirilə bilər.

Cənab İlham Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi illərdə ölkəmizin sosial-iqtisadi həyatında böyük irəliləyişlər baş vermiş, rəhbərliyinin təkcə ilk on ili ərzində iqtisadiyyat 3,4 dəfə, dövlət büdcəsi 19 dəfə artmış, iqtisadiyyata təqribən 110 milyard manat həcmində sərmayə yönəldilmişdir.

2003-2013-cü illər ərzində ölkənin nəqliyyat-kommunikasiya infrastrukturu da əhəmiyyətli şəkildə inkişaf etdirilmişdir. Beynəlxalq hava limanları, yeni avtovağzal kompleksləri və metro stansiyaları istifadəyə verilmiş, çoxsaylı körpülər, avtomobil yolları inşa edilmiş, qaz, su, elektrik xətləri çəkilmiş, Azərbaycanın ən ucqar kəndlərində də müasir infrastruktur qurulmuşdur. Həmçinin əhalinin sosial müdafiəsi və təminatına yönəlmiş xərclər artmış, vətəndaşların gəlirləri, əməkhaqları və pensiyaları bir neçə dəfə yüksəlmişdir. 2004-cü ildən başlayaraq, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə dövlət proqramları uğurla icra edilmiş və bu istiqamətdə görülən işlər tarixi nailiyyətlərlə müşayiət olunmuşdur.

Ermənistanın təcavüzünün nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş vətəndaşların sosial problemlərinin həlli üçün çoxsaylı fərman və sərəncamlar imzalanmış, müvafiq dövlət proqramı və əlavələr qəbul edilmişdir. Məcburi köçkünlərin yaşadığı çadır düşərgələri və "fin tipli" qəsəbələr ləğv edilərək onların yerinə yüksək standartlara cavab verən yaşayış binalarından ibarət qəsəbələr və məhəllələr inşa edilmişdir. Bu insanların həyat şəraitinin yaxşılaşdırılması və məşğulluq imkanlarının təmin edilməsi üçün ardıcıl tədbirlərdə həyata keçirilmişdir.

2004-cü ildən etibarən sonrakı 9 il ərzində ölkədə 1 milyon 600 mindən artıq yeni iş yeri açılmış, işsizlik səviyyəsi dünyada ən aşağı göstəricilərdən biri - 5 faiz civarında, yoxsulluq isə 5-6 faiz səviyyəsində olmuşdur.

2009-cu ildən etibarən isə cənab İlham Əliyevin prezidentliyi hüquqi dövlət quruculuğunun daha da möhkəmləndirilməsi mərhələsinə daxil oldu. Bu dövr dövlət idarəetməsində institusional inkişaf, hüquqi mexanizmlərin təkmilləşdirilməsi və idarəetmədə şəffaflığın artırılması ilə səciyyələndirilir. 21 fevral 2017-ci il tarixində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə Mehriban Əliyevanın təyin olunması da dövlət idarəçiliyində davamlılığı və möhkəm strukturların formalaşmasını təmin edən strateji addımdır.

Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövr hər cəhətdən Azərbaycanın intibahı dövrüdür, bu intibah dövlət və vətəndaş birliyinin nəticəsi kimi qiymətləndirilməlidir. Bu prosesin əsas dayağı ölkə rəhbərinin strateji və yaradıcı vizyonu, eləcə də Azərbaycan vətəndaşlarının dövlət başçımızın yürütdüyü siyasətə dəstəyi olmuşdur. Bu dövr eyni zamanda Azərbaycan siyasi-mədəni həyatında xalq və hakimiyyət birliyinin yeni, daha məhsuldar epoxasının başlanğıcını təşkil etmişdir.

Prezident İlham Əliyev milli həmrəyliyin möhkəmlənməsinə, dövlət müstəqilliyinin və ideoloji əsaslarının gücləndirilməsinə, həmçinin beynəlxalq aləmdə milli maraqların qorunmasına nail olmuşdur. Onun siyasi fəaliyyəti rasional davranış modeli və analitik təhlilə əsaslanan, milli məqsədlərə xidmət edən praqmatik realizm nümunəsi təqdim etmiş, siyasi mədəniyyət və milli etik standartların təkmilləşdirilməsinə töhfə vermişdir. Cənab İlham Əliyev Ulu Öndərin siyasi kursunu novator yanaşmalarla daha da zənginləşdirərək, müasir dünya siyasi mədəniyyətində öz üslubunu formalaşdırmışdır.

Azərbaycanın iqtisadi inkişafı və milli dövlətin tərəqqisi prosesi ardıcıl xarakter aldıqca dövlətimizin beynəlxalq mövqeyi və strateji əhəmiyyəti də əhəmiyyətli dərəcədə artmışdır. Ümummilli Liderin neft strategiyası cənab İlham Əliyevin dövründə müasir çağırışlara uyğun təkmilləşdirilmiş, enerji infrastrukturu gücləndirilmiş və Azərbaycan Avropanın alternativ enerji təchizatçısına çevrilmişdir. Bu inkişaf valyuta ehtiyatlarının artmasına, sosial-iqtisadi proqramların icrasına və ölkənin beynəlxalq nüfuzunun yüksəlməsinə şərait yaratmışdır.

Beynəlxalq səviyyədə Azərbaycanın nüfuzu İlham Əliyevin şəffaf və hesablanmış siyasəti sayəsində möhkəmlənmiş, ölkə etibarlı tərəfdaş kimi tanınmışdır. Azərbaycan qlobal tədbirlərin, o cümlədən Beynəlxalq Humanitar Forum, Mədəniyyətlərarası Dialoq, "Eurovision", Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, "Formula-1", COP29 və sairə bu kimi beynəlxalq tədbirlərin keçirildiyi mərkəzə çevrilmişdir.

Azərbaycanın geostrateji potensialının tam istifadəsi məqsədilə Prezident İlham Əliyev regionda irimiqyaslı iqtisadi layihələrə rəhbərlik etmişdir. Ölkə enerji resurslarının dünya bazarlarına çıxarılmasını təmin edən Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft kəmərləri, həmçinin "Cənub qaz dəhlizi" çərçivəsində Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP layihələri uğurla həyata keçirilmişdir. Bununla yanaşı, Azərbaycan Bakı-Tbilisi Qars dəmir yolu xətti kimi qlobal əhəmiyyətli layihələrlə nəqliyyat-logistika mərkəzinə çevrilərək Şərq-Qərb və Şimal-Cənub qovşaqlarında da regional əməkdaşlıq üçün strateji addımlar atmışdır.

Bu bütün inkişaf mərhələləri Prezident İlham Əliyevin şəxsi liderliyi, strateji düşüncəsi və sistemli icra qabiliyyəti nəticəsində reallaşmışdır və Azərbaycanı həm regional, həm də qlobal siyasətdə söz sahibi olan etibarlı bir dövlət kimi möhkəmləndirmişdir.

Böyük dövlət xadimi İlham Əliyevin prezidentliyi Azərbaycanın xarici siyasətində də yeni mərhələni təmsil edir. Bu mərhələ özündən əvvəlki dövrün təməlləri üzərində qurulmuş və onları daha da dərinləşdirərək, xarici siyasətin məzmun və əhatəliliyini genişləndirmişdir. 2003-cü ildən etibarən Azərbaycan Respublikasının xarici siyasətinin əsas məqsədləri dövlətin müasir, rəqabətədavamlı və dayanıqlı iqtisadi-mədəni struktura malik ölkəyə çevrilməsindən, Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə nail olunmasından, Azərbaycanın beynəlxalq enerji, nəqliyyat-kommunikasiya və tranzit mərkəzlərindən birinə çevrilməsindən, vətəndaşların rifahının yüksəldilməsi üçün əlverişli beynəlxalq şəraitin yaradılmasından ibarət olmuşdur.

Bu məqsədlərin həyata keçirilməsi üçün çevik, tarazlaşdırılmış və səmərəli xarici siyasət xətti müəyyən edilmiş, Azərbaycan Prezidentinin həyata keçirdiyi çoxsaylı xarici səfərləri, beynəlxalq platformalarda fəal iştirakı, Azərbaycanın qəbul etdiyi beynəlxalq nümayəndə heyətlərin ölkənin xarici siyasətinin dinamikliyini və effektivliyini nümayiş etdirmişdir.

Ötən onilliklər ərzində ölkəmizdə keçirilmiş ikitərəfli, regional və beynəlxalq toplantılar, həmçinin Azərbaycan tərəfinin dövlətlərarası ziddiyyətlərin həllində vasitəçilik fəaliyyəti ölkənin beynəlxalq mövqeyini daha da möhkəmləndirmiş, qlobal səviyyədə rolunu artırmışdır. Bu dövr Azərbaycanın diplomatik imkanlarının genişləndirilməsi və beynəlxalq əlaqələrin dərinləşdirilməsi baxımından son dərəcə strateji əhəmiyyət daşıyır.

Azərbaycanın bu mərhələdki xarici siyasətində ölkəmizin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi mühüm yer tutur. 2011-ci il oktyabrın 24-də Azərbaycan Respublikası 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə layiqli qələbə qazanmışdır. Bu zaman Azərbaycanın BMT üzvü olan 193 dövlətdən 155-nin səsini toplaması böyük nəticə idi. Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasındakı qeyri-daimi üzvlüyü 2012-ci il yanvarın 1-dən 2013-cü il dekabrın 31-nə qədər davam etmiş, bu müddət ərzində Azərbaycan dünya siyasətini müəyyən edən 15 dövlətdən birinə çevrilmiş, Azərbaycan Cənubi Qafqaz və Mərkəzi Asiya regionundan Təhlükəsizlik Şurasının üzvü seçilən ilk ölkə kimi də diqqəti çəkmişdir.

Azərbaycan 2011-ci ilin mayından Qoşulmama Hərəkatının da tam hüquqlu üzvü olmuş, 2019-2023-cü illərdə isə BMT-dən sonra dünyanın ən böyük təşkilatı olan bu quruma uğurla sədrlik edərək Qoşulmama Hərəkatının institusional inkişafına, qlobal güc mərkəzi kimi təsir imkanlarının artırılmasına misilsiz töhfələr vermişdir.

Bu illərdə Azərbaycanın xarici siyasət prioritetlərinin ən mühümü, təbii ki, Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində həlli məsələləri ilə bağlı olmuş, güclü ordu quruculuğuna paralel şəkildə ölkəmiz münaqişənin insan itkilərinə, yeni faciələrə yol verməden həlli üçün sülh prinsiplərinə sadiq qalmış, danışıqlar prosesi cənab İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə də səbir və təmkinlə davam etdirilmişdir.

2007-ci ilin noyabrında ATƏT-in Minsk qrupu Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə dair təkliflər paketi hazırlamış və bu sənəd "Madrid prinsipləri" adı ilə tarixə düşmüşdür. Onun ilkin versiyası tərəflərə təqdim edilmiş, 2009-cu ilin sonunda isə yenilənmiş variantı hazırlanaraq müzakirəyə çıxarılmışdır. Hər iki sənəd münaqişənin mərhələli nizamlanmasını nəzərdə tutur, o cümlədən Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını, məcburi köçkünlərin doğma yurdlarına qayıdışını, kommunikasiya xətlərinin bərpasını və digər mühüm elementləri əhatə edirdi. Lakin Ermənistanın destruktiv mövqeyi səbəbindən bu dəfə də gözlənilən nəticə əldə olunmamışdır.

Sonrakı mərhələdə keçirilən görüşlərdə dövlət başçıları münaqişənin sülh yolu ilə nizamlanması məqsədilə dialoqun davam etdirilməsi barədə razılığa gəlmiş, problemin humanitar aspektlərinə xüsusi diqqət yetirmişlər. Bununla belə, danışıqların intensivləşməsi və prosesin Ermənistanın maraqlarına uyğun inkişaf etməməsi fonunda qarşı tərəf hərbi təxribatlara əl ataraq siyasi dialoqu pozmağa çalışmışdır. Xüsusilə, Fransanın təşəbbüsü ilə 2014-cü il oktyabrın 27-də keçirilmiş Paris görüşündən dərhal sonra Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində 40 min nəfərdən artıq şəxsi heyətin iştirakı ilə genişmiqyaslı hərbi təlim keçirmişdir. Eyni zamanda Ermənistan silahlı qüvvələrinin təmas xəttində hücum xarakterli uçuşlarla təxribat törətməsi danışıqlar prosesinin intensivliyinin azalmasına səbəb olmuşdur. Bunun nəticəsində iki ölkə rəhbərləri arasında dialoq yalnız 2015-ci il dekabrın 19-da İsveçrənin Bern şəhərində bərpa edilmişdir.

2016-cı ilin əvvəlində münaqişənin həlli ilə bağlı konkret planların müzakirə edildiyi bir vaxtda Ermənistan silahlı qüvvələri yenidən təxribat xarakterli addımlara əl atmışdır. Belə ki, aprelin 2-də qoşunların təmas xətti boyunca əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələri, o cümlədən məktəblər, xəstəxanalar və ibadət yerləri intensiv atəşə tutulmuşdur. Bu hücumlar nəticəsində uşaqlar da daxil olmaqla 6 nəfər mülki şəxs həlak olmuş, 33 nəfər isə ağır yaralanmışdır.

Ermənistan 2017-ci ildə də siyasi və hərbi təxribatlarını davam etdirmiş, iyun və iyul aylarında, ATƏT-in Minsk qrupu həmsədrlərinin münaqişənin həlli istiqamətində səylərini intensivləşdirdiyi və beynəlxalq ictimaiyyətin substantiv danışıqlara dair çağırışlarının gücləndiyi bir şəraitdə, Ermənistan tərəfi qoşunların təmas xətti boyunca vəziyyəti məqsədli şəkildə gərginləşdirməyə cəhd göstərmişdir. Ermənistan silahlı birləşmələri ağır artilleriya vasitələrindən istifadə edərək Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini və mülki əhalinin yaşadığı məntəqələri intensiv atəşə tutmuşdur.

Eyni zamanda müxtəlif beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş çoxsaylı sənədlərdə Azərbaycanın beynəlxalq hüquqa və tarixi ədalətə əsaslanan mövqeyi dəstəklənmişdir. Bu sənədlər münaqişənin həllinin yalnız Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində mümkünlüyünü bir daha təsdiq etmişdir.

2018-ci ildə dəyişən Ermənistan hökuməti münaqişənin sülh yolu ilə həll edilməsi istiqamətində addım atmadı, Azərbaycanın və vasitəçilərin bütün sülh təkliflərini rədd etdi, həll yoluna sıfırdan başlayacağını bildirdi. Yeni hakimiyyət özündən əvvəlki hakimiyyətlər kimi müzakirələri uzatmaq taktikasına üstünlük verdi. Təbii ki, Azərbaycan buna laqeyd qala bilməzdi.

Ermənistanın 2020-ci il sentyabrın 27-də başlatdığı II Qarabağ müharibəsində iddiaları böyük idi. Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına Azərbaycanın verdiyi cavab nəticəsində 44 gün davam edən müharibədə Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın etdi və tarixi Zəfər qazandı. Müharibə nəticəsində işğal altındakı ərazilərinin böyük bir hissəsi azad edildi, Kəlbəcər, Ağdam və Laçın rayonlarında yerləşən Ermənistan silahlı qüvvələri isə həmin ilin sonuna qədər ərazidən çəkildilər. Bununla da torpaqlarını 30 illik işğaldan azad edən Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini özü yerinə yetirdi.

44 günlük müharibədə məğlub olan Ermənistan və qondarma Dağlıq Qarabağ rəhbərliyi heç bir vəchlə sülh müzakirələrinə başlamaq istəmədilər, konstruktiv davranmadılar. BMT-yə üzv olan heç bir dövlət tərəfindən müstəqilliyi tanınmayan qondarma rejimin Qarabağda fəaliyyətini davam etdirməsi qeyri-qanuni və əlbəttə ki, suveren dövlət daxilində qəbuledilməz idi. Tərəflər arasında imzalanan 9 noyabr sənədinə əsasən, Ermənistan və Dağlıq Qarabağ arasında əlaqəni Azərbaycan ərazisindən - Laçın üzərindən qurmalı idi. Ermənistan və Dağlıq Qarabağın qondarma rejimi bu yoldan sosial problemlərini həll etməkdənsə, Ermənistandan qondarma Qarabağa silah və sursat daşıma üstünlük verdilər. Ermənilər mütəmadi olaraq atəşkəsi pozur, təhlükəsizliyi ciddi şəkildə təhdid edirdilər. Azərbaycan dövlətinin səbrini sınayan qondarma Dağlıq Qarabağ rejimi militarist bəyanatlarına ara vermədi.

2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror tədbirlərinə başlandı. Cəmi 23 saat 43 dəqiqə davam edən əməliyyat nəticəsində müzəffər Azərbaycan Ordusu qarşısındakı bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirdi.

Qondarma Dağlıq Qarabağ rejimi özünü buraxdığını elan etdi. Bununla da Azərbaycan bütün əraziləri üzərində suverenliyini tam bərpa etdi. Hakimiyyətin aliliyi və nəzarət funksiyası tam şəkildə bərpa olundu. Bu, Azərbaycanın dövlət suverenliyinin təşəkkülündə mühüm bir mərhələ hesab edilir.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2024-cü il 19 sentyabr tarixli sərəncamı ilə hər il sentyabrın 20-də Dövlət Suverenliyi Gününün qeyd edilməsi Azərbaycanın 1991-ci ildə müstəqilliyinin bərpası ilə başlayan hadisələrin kulminasiya nöqtəsi olan ərazi bütövlüyü və müstəqillik uğrunda onilliklər boyu davam edən mübarizənin rəmzi sonunu əks etdirir.

Biz həm qalib xalq kimi, həm Azərbaycan tarixində yeni mərhələnin başlanmasının şahidi kimi xoşbəxt insanlarıq. Həm də ona görə xoşbəxt insanlarıq ki, yeni tariximizi dərin zəkası və qüvvətli yumruğu ilə yazan, xalqımızın iradəsini savaş və siyasət meydanında gerçəkləşdirən və tarixi yaddaşımıza həkk edən xalqın maraqlarını bütün dəyərlərdən üstün tutan, ölkənin bütün potensialını Vətən naminə səfərbər edən Lideri var.

***Arzu ABDULLAYEV,***
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədr müavini, tarix üzrə fəlsəfə doktoru*




# Konstitusiya və Suverenlik İli 2025



# Qalib Xalqa yaraşan tam Suverenlik



**"Nəyi necə nə vaxt etmək lazımdır, bunu mən bilirəm" - kəlamı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həm uzaqgörənliyinin, həm apardığı siyasətin düzgünlüyünün, həm də mütləq yüksək nəticə verəcəyindən tam əminliyinin ifadəsidir. Məhz öz sözünün təsdiqi kimi, cənab Prezident hər il xalqın həyatında, düşüncə tarixində və identikliyində əhəmiyyətli rol oynayan bir mövzu ilə "taclandırır" və il boyu xalq bu mövzunun mahiyyətini anlayıb, onunla nəfəs almağı öyrənir. 2025-ci il Azərbaycan xalqının canı və qanı ilə qoruduğu suverenliyinin və onun təsdiqi olan Ali Qanunun - Konstitusiyanın ili elan edildi və məhz bu il cənab İlham Əliyev Azərbaycanın adını dünyada ən yüksək kürsülərdə qələbənin, suverenliyin, qəti sözün sinonimi kimi möhürlədi, ən mümkünsüz yolları - Zəngəzur dəhlizini (TRIPP) - açmağı, dünənə qədər üzümüzə bağlı olan qapıların - Ağ Evin - açarını qazana biləcəyini sübut etdi.**

## Suverenliyin güzgüsü

Antik dövrdən bu günə kimi öz müstəqilliyini bəyan edən xalq mütləq bu addımın sabitliyini qoruyan qanunu da təsdiq edir. Hazırda Azərbaycan Respublikasında qüvvədə olan Konstitusiya sayca dördüncü hesab edilsə də, o, suveren Azərbaycanın ilk Ali Qanunudur. Belə ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə 1918-1920-ci illərdə onu qəbul etməyə macal tapılmamışdı. 1921-ci, 1925-ci və 1978-ci ildə qəbul edilən konstitusiyalar isə SSRİ-nin, yəni daxil olduğu imperiyanın konstitusiyasına uyğunlaşdırılmışdı. 1991-ci ildə də Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilsə də, yeni konstitusiya yazılmadı. Prezident İlham Əliyev bunu həmin dövr ölkədə hökm sürən vəziyyətlə izah edir: "1991-1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır". Başqa sözlə desək, suverenlik aktı qəbul edilsə də, onu təsdiqləmək iradəsi hələ yox idi, möhkəmlənməmişdi. Təsadüfi deyil ki, məhz həmin vaxtlarda Azərbaycan öz ərazisinin böyük hissəsini itirdi, ölkə dərin maddi və mənəvi böhran içində idi, xalq suverenliyini deyil, sabahını belə düşünməkdə çətinlik çəkirdi, dərin bir ümidsizlik içində idi.

1994-cü ilin sentyabrın 20-də Bakıda "Əsrin müqaviləsi" bağlandı - Azərbaycan lider ölkələrlə eyni sırada öz imzasını qoydu, öz sözünü dedi və öz varlığını təsdiqlədi. Bunun möhürü kimi 1995-ci ildə suveren Azərbaycanın ilk konstitusiyası Ulu Öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanıb təqdim edildi. Əslində, bununla suverenliyə və Ulu Öndərin də dediyi kimi "müstəqilliyin əbədi və dönməz olduğuna" inama səs verildi və yekdilliklə onu qorumağa məsul edildi. Ümummilli Liderin özünün də dediyi kimi, "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun".

Bu tarixi və taleyüklü ali sənədin qəbulunun tam 25-ci ildönümündə Azərbaycan Vətən müharibəsində torpaqlarını işğaldan azad etdi. Qələbələrin nəticəsi və zəfər yekunu olaraq isə 2024-cü ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edildi. Başqa sözlə desək, konstitusiya və həqiqi suverenlik bir-birini tamamladı. Bunun məntiqli davamı olaraq, ölkə Prezidenti İlham Əliyevin də dediyi kimi, "Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir".

## Ədalətin inikası

Konstitusiyanın fəlsəfi mahiyyətindən belə məlum olur ki, o, hər mənada - əqidə, vicdan, hərəkət, düşüncə azadlığının legitimləşməsidir. Söhbət hər hansı konstitusiya maddələrinin hərfi mənasından deyil, onun insan həyatındakı inikasından gedir. Alman filosofu Kant deyirdi ki, "İnsan necə də zəifdir, çünki qanuna tabedir, amma insan həm də çox ucadır, çünki o qanunu özü yazır". Məntiqlə, əgər qanun insanın öz yazdığına tabe olmaqdırsa, bu qanunu nə qədər yüksək mənəviyyatlı, azad düşüncəli, təmiz əqidəli biri yazarsa, yaxud yazılmağına nəzarət edərsə, bir o qədər insanlar uca və dəyərli qanunlara baş əymiş olacaqlar. Deməli, hər Konstitusiya - qanun-insan qarşılığının, tandeminin inikasıdır və bunu özündə əks etdirməlidir.

Aristotelin dediyinə görə, əksər konstitusiyaların müəllifləri praktiklik baxımdan uğursuzluğa düçar olurlar, çünki, əslində, o, artıq var olan şərait əsasında qurulan bir sistem olmalıdır. Başqa sözlə desək, Ali sənəd yalnız nəzəriyyə kimi tərtib ediləndə, gerçək həyatla ilk qarşılaşmada onun uğursuzluğu ortaya çıxır. Konstitusiyaların təhlilindən belə məlum oldu ki, onlar iki əsas simanın inikası olur: onun tərtibinə rəhbərlik edənin və kimə xidmət edirsə, onun. Ulu Öndərin dediyi kimi, "Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir". Əgər tərtib edən öz maraqlarını üstün tutursa, həmin konstitusiyanın ömrü də onun ömrü qədər olur, hakimiyyət dəyişən kimi, Ali qanun da aliliyini itirir. Əgər tərtib edən xalqın, dövlətin ruhunu anlaya bilirsə, onun marağını daha üstün görürsə, onun ömrü elə xalqın ömrü qədər olur, hətta arada dövrün tələblərinə uyğun olaraq müəyyən düzəlişlər edilsə belə, ana xətt, əsas mahiyyət toxunulmaz qalır. Məhz bu halda konstitusiya həm dövlətin suverenliyinin təsdiqi, həm də xalqın söykəndiyi möhkəm dayaq rolunu oynaya bilir. Ümummilli Lider deyir: "Konstitusiya Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü təmin edən konstitusiyadır və əminəm ki, bu, daimi olacaqdır. Xalqımız bu konstitusiyanın müddəalarından istifadə edərək Azərbaycanın dövlət müstəqilliyini əbədi edəcəkdir. Yeni konstitusiya Azərbaycanda demokratik, hüquqi dövlətin qurulması, demokratik vətəndaş cəmiyyətinin yaranması üçün əsaslar yaratmış, bütün təminatları vermişdir. Bizim borcumuz bu təminatlardan, Konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir".

Deyilənlərdən məntiqli və əsaslı bir nəticə alınır: konstitusiyanı yazan xalqın kimliyini, bütün spesifik xüsusiyyətlərini nəzərə aldığı halda aliləşir, çünki təməldə dövlət-xalq vəhdəti durmalıdır. Bu, bir tərəfdən, həmin konstitusiyanın uzunömürlülüyünün təminatı hesab edilir, digər tərəfdən, xalqın öz Ali qanununa hörməti möhkəmlənir.

Hər hansı qanunu onun aid olduğu sahənin adamları əzbərləyir, yeri gəldikcə tətbiq edir. Konstitusiya isə əzbərlənəcək kitab deyil, hər gün yaşanan, hətta mexanikləşən bir qanunauyğunluqdur. Bunu qəbul etməyən, anlamayan insan bir vətəndaş kimi kimliyini, azadlığını tanımır. Prezident İlham Əliyev deyir: "Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüz illər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir". Bu mənada demək olar ki, konstitusiyanın dərki insanı məhz bir fərd çərçivəsindən çıxarıb vətəndaşa çevirir, cəmiyyətin həyatında müəyyən məsuliyyət daşıdığını, eyni zamanda hüquqlarının olduğunu ona öyrədir. Daha vacibi isə həmin vətəndaşa başlıca missiyasını izah edir: bu torpaq, bu tarix və bu dövlətin gələcəyi sahib olduğun qədər sənindir.

## İradənin güzgüsü

Rəsmi olaraq konstitusiya dövlətin siyasi, hüquqi və iqtisadi sistemlərinin əsaslarını müəyyən edən normativ hüquqi akt olaraq tərif edilir. Nəzəri baxımdan isə o, xalq və dövlət arasında müqavilə hesab edilir. Məsələyə nisbətən fərqli rakursdan baxanda, onu həm də iradənin güzgüsü kimi görmək mümkündür.

Ali Qanunda öz əksini tapan prinsiplər, hüquqi normalar, əslində, iki - xalq və dövlətin iradəsinin kəsişmə nöqtəsini ifadə edir. Albert Eynşteynin yazdığına görə, "Konstitusiyanın gücü bütünlüklə hər vətəndaşın onu qorumaq əzmindədir". Maraqlıdır ki, hər nə qədər müəyyən məsələlərdə anlaşılmazlıq, hətta narazılıq yaşansa da, məhz həmin nöqtədə tam razılaşma mövcuddur. Hətta dövlət konstitusiyada nə isə dəyişiklik etmək istəyəndə də səs hüququ olan hər vətəndaş məhz ümumxalq referendumda öz münasibətini bildirməlidir.

Konstitusiya həm də dövlət və xalq birliyinin iradəsinin göstəricisidir. Başqa sözlə desək, xalq və dövlətin keşiyində durduğu Vətənə, onun suverenliyinə təhlükə yarananda, yaxud onun inkişafı üçün güclər birləşdirilməli olanda Ali Qanun hər iki ideyanın vəhdətinin ifadəsinə çevrilir. Prezident İlham Əliyev deyir: "Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır".

Məsələnin maraqlı tərəflərindən biri də budur ki, istər işğal dövründə, istər 44 günlük müharibədə, istərsə də sonra ölkə ərazisinin və suverenliyinin bərqərar edilməsi üçün atılan addımların hər birində konstitusiya maddələri əsas tutulurdu. Məhz belə yanaşmanın məntiqli əks-sədası kimi işğalçını öz gələcək mənfur niyyətindən birdəfəlik çəkindirmək üçün Azərbaycan tərəfi ondan öz konstitusiyasında bunun qarşısını almağı tələb edir. Bu, artıq iki dövlətin deyil, öz ərazisinin bütövlüyünü qoruyan və işğalı özünə ali məqsəd hesab edən iki konstitusiyanın qarşılaşmasıdır. Eyni zamanda onların arxasında duran iki iradənin üz-üzə gəlməsidir. Əslində, bu iradənin gücünü qarşı tərəf gördüyünə görə, konstitusiyaların qarşılaşmasında da hansının üstün gələcəyini təxmin etmək çətin deyil.

Cənab İlham Əliyev 2025-ci ili "Konstitusiya və Suverenlik İli" elan etməklə bir neçə məsələni aktuallaşdırdı. Birincisi, insanlara həm özünə, həm də tabe olduğu, müdafiə etdiyi, eyni zamanda aliləşdirdiyi Qanuna təkrar baxmaq imkanı verdi. İkincisi, bu Ali Qanunun işığında hər insanın özünü bir vətəndaş kimi dəyərləndirməyə çağırdı. Üçüncüsü, bu Ali Qanunun sahibi olan xalqın kimliyini, tarixini düşünməyə çağırdı. Ən başlıcası isə, özü bu suverenliyin təzahürünü yalnız sərəncamda deyil, əməldə olduğunu sübut etdi, nümunə göstərdi və bununla da sabah üçün şanlı bir tarix yazdı.

*Könül BÜNYADZADƏ,*
*AMEA-nın müxbir üzvü*

# Dövlətçiliyimizin təməl daşı

**Tarixin ən böyük ədaləti odur ki, xalq öz iradəsini ifadə edə və taleyinə özü sahib çıxa bilir. Bu haqq, yəni xalqın suverenlik hüququ - insan cəmiyyətinin azad yaşamaq istəyindən doğan və hüquqi normalarda təsbit olunan ali bir prinsipdir. Hər bir dövlətin varlığı və legitimliyi xalqın iradəsinə əsaslanmalıdır. Azərbaycan xalqı bu hüququ təkcə hüquqi sənədlərlə deyil, öz qanı və canı bahasına gerçəyə çevirmiş bir xalqdır.**

Müasir dövrdə xalqın suverenlik anlayışı təkcə hüquqi prinsip deyil, eyni zamanda milli kimliyimizin, dövlət müstəqilliyimizin və azad yaşamaq iradəmizin bariz ifadəsidir.

Suverenlik - bir xalqın öz taleyini özü müəyyən etmək haqqıdır. Bu haqq tarix boyu bəşəriyyətin azadlıq uğrunda apardığı mübarizələrin, inqilabların və milli oyanışların mərkəzində dayanıb.

Azərbaycan xalqı da bu hüququ öz qanı və canı bahasına qazanıb. Belə ki, 1990-cı illərin əvvəllərindən başlayaraq Ermənistan Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin tələblərini kobud şəkildə pozaraq Azərbaycana qarşı işğalçılıq siyasəti həyata keçirmiş və hərbi gücdən istifadə edərək ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini işğal etmişdir. Ermənistanda və işğal olunmuş Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlər nəticəsində şəhər və kəndlərimiz viran edilmiş, ölkəmizin təbii resursları talan olunmuş, dövrümüzün ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı törədilmişdir.

Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlamış 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın etmiş və tarixi Zəfər qazanmışdır. Azərbaycan öz torpaqlarını 30 illik işğaldan azad edərək ərazi bütövlüyünün bərpasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə nail olmuşdur.

Tarix şahiddir ki, xalqın suveren iradəsinin parlaq təzahürü Vətən müharibəsində yaşandı. 27 sentyabr - 10 noyabr tarixlərində baş tutan 44 günlük Vətən müharibəsi zamanı xalq və ordu bir yumruq kimi birləşərək Azərbaycanın ərazi bütövlüyünü təmin etdi. Bu müharibə təkcə hərbi Zəfər deyildi. Bu, həm də xalqın illər boyu tapdanmış suveren hüququnun - öz torpaqlarında yaşamaq, öz sərhədlərinə sahib çıxmaq və öz gələcəyini müəyyənləşdirmək hüququnun bərpası idi.

Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqın bu iradəsini cəbhədə, diplomatiyada və informasiya müharibəsində uğurla təcəssüm etdirdi. Bu gün Şuşa, Laçın, Kəlbəcər və digər işğaldan azad olunmuş ərazilərimizdə dalğalanan üçrəngli bayraq xalqın suverenliyinin simvoludur.

2023-cü il sentyabrın 19-da Qarabağda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə keçirilən antiterror tədbirləri tariximizə qızıl hərflərlə yazılıb. Çünki cəmi 23 saat davam edən və sentyabrın 20-də başa çatan əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirərək Azərbaycan Respublikasının suverenliyini tam bərpa edib. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycanın üçrəngli bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır.

Beləliklə, 1991-ci ildə dövlət müstəqilliyimizin bərpası, 2020-ci ildə torpaqlarımızın azad olunması ilə nəticələnən Vətən müharibəsi, 2023-cü ildə antiterror tədbirləri ilə ölkəmizin tam suverenliyinin təmin olunması xalqımızın öz suveren hüququna sahib çıxmasının canlı sübutlarıdır.

Azərbaycan Respublikasının Konstitusiyasında bu ali prinsip birbaşa qeyd olunub: "Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır".

Bu cümlə sadəcə hüquqi norma deyil, həm də dövlətin xalq qarşısında məsuliyyətinin əsas göstəricisidir. Hər bir vətəndaşın səsi, seçimi, iştirakı - dövlət idarəçiliyinin əsasını təşkil edir.

Demokratiya xalqın iradəsinə əsaslanan idarəetmə formasıdır. Məhz bu səbəbdən, biz hər beş ildən bir keçirilən prezident seçkilərində, parlament və bələdiyyə seçkilərində öz suveren iradəmizi ifadə edirik. Bu, təkcə hüquq deyil, həm də vətəndaşlıq borcudur.

Xalqın suverenliyi yalnız seçki hüququndan ibarət deyil. Bu, həm də cəmiyyətin bütün sahələrdə - iqtisadiyyatda, təhsildə, mədəniyyətdə, müdafiədə birgə qərar vermə, söz sahibi olmaq haqqıdır. Ölkəmizdə aparılan islahatlar, iqtisadi yüksəliş, ordu quruculuğu, xalqın iradəsinin, dəstəyinin nəticəsidir.

Xalq və dövlət birliyi Azərbaycanın inkişafının təməlidir. Bu gün ölkəmiz regionda aparıcı siyasi gücə çevrilibsə, bu, məhz xalqın öz suveren iradəsinə sahib çıxması, milli həmrəyliyimizi qoruması və dövlətə olan inamı sayəsində mümkün olub.

Qloballaşma dövründə milli dövlətlər müxtəlif təhdidlər və çağırışlarla üzləşir. Xarici təsirlər, informasiya müharibələri, ideoloji təsirlər - xalqın suveren iradəsinə qarşı yönəlmiş ciddi risklərdir. Bu mənada, hər bir Azərbaycan vətəndaşının informasiya savadlılığı, siyasi fəallığı və milli şüuru xüsusi əhəmiyyət daşıyır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət xalqın maraqlarına əsaslanır. "Xalq - dövlət üçün deyil, dövlət - xalq üçündür" prinsipi bu gün Azərbaycan reallığında tam şəkildə öz təsdiqini tapır.

Xalqın suverenlik hüququ milli müstəqilliyimizin, dövlətçiliyimizin və gələcək nəsillərin azad yaşamaq haqqının təminatıdır. Bu hüququn qorunması hər birimizin üzərinə düşən vəzifədir. Dövlətə güvənən, milli maraqları üstün tutan, gələcəyini doğma vətənində görən xalq heç bir təzyiq və təhdid qarşısında sarsılmaz.

Azərbaycan xalqı suverenliyini qazanıb, qoruyub və daim inkişaf etdirmək əzmindədir. Bu yolda birlikdə addımlayırıq, xalqla dövləti birləşdirən güclü iradə və qarşılıqlı etimadla!

Bütün tarixi reallıqları nəzərə alan Prezident İlham Əliyev 2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq hər il sentyabrın 20-sinin Dövlət Suverenliyi Günü kimi qeyd edilməsi ilə bağlı sərəncam imzalayıb.

Sənəddə qeyd edilir ki, hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*




# Konstitusiya və Suverenlik İli 2025



# Konstitusion dövlətçilik

**Azərbaycan Respublikasının müasir inkişaf mərhələsi dövlətçilik fəlsəfəsi, hüquqi mexanizmlər və milli siyasi kurs ilə sıx bağlıdır. XX əsrin sonlarında bərpa olunmuş müstəqilliyimiz, həm də xalqımızın əsrlər boyu formalaşmış suverenlik arzularının hüquqi ifadəsi idi. Bu dövrdən etibarən dövlət quruculuğu prosesində ən mühüm addım Konstitusiyanın qəbul olunması və konstitusion dövlətçilik ənənələrinin möhkəmləndirilməsi olmuşdur. Bu, yalnız hüquqi texnologiya deyil, həm də siyasi-fəlsəfi seçim idi: xalqın öz iradəsini ifadə etmək və onu konstitusiyada möhkəmləndirməklə gələcək nəsillərə ötürmək.**

Bu baxımdan Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli"nin elan edilməsi təsadüfi bir qərar deyil. Bu addım həm tarixi yaddaşın qorunması, həm müasir dövlətçilik fəlsəfəsinin möhkəmləndirilməsi, həm də milli kimliyin siyasi-hüquqi ifadəsinin daha dərindən dərk edilməsi üçün mühüm platformadır. Burada söhbət yalnız təqvim ili çərçivəsində tədbirlərdən yox, daha çox xalqın milli iradəsini və hüquqi dövlətçiliyin fəlsəfi mahiyyətini yenidən aktuallaşdırmaqdan gedir. Konstitusiya və suverenlik bir-birini tamamlayan anlayışlardır. Konstitusiya dövlətin hüquqi təməlini formalaşdırır, suverenlik isə həmin hüquqi təməli siyasi müstəqillik və xalqın iradəsi əsasında reallığa çevirir. Bu prinsiplərin qorunması dövlətin inkişafı, cəmiyyətin rifahı və milli kimliyin möhkəmlənməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Azərbaycan Respublikasının təcrübəsi göstərir ki, güclü konstitusiya və qorunan suverenlik dövlətçiliyin dayanıqlı inkişafının əsas zəmanətidir.

Müasir dövrdə hüquqi dövlətin qurulması, vətəndaş cəmiyyətinin inkişafı və insan hüquqlarının təmin olunması məsələləri hər bir ölkənin siyasi və hüquqi sisteminin prioritet istiqamətlərindən biridir. Azərbaycan Respublikası da müstəqillik əldə etdikdən sonra demokratik dövlət quruculuğu, hüquqi islahatlar və konstitusion dövlətçilik ənənələrinin möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atmışdır. Konstitusion dövlətçilik anlayışı, ilk növbədə, dövlət hakimiyyətinin hüquqi normalarla məhdudlaşdırılması, hakimiyyətin bölgüsü, insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi prinsiplərinə əsaslanır. Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyası ölkədə hüquqi dövlət və demokratik cəmiyyət quruculuğunun bünövrəsini təşkil edir.

Konstitusion dövlətçilik anlayışı dövlətin hüquqi əsaslar üzərində qurulmasını, dövlət hakimiyyətinin konstitusiya ilə məhdudlaşdırılmasını və hüquqi prinsiplərə uyğun fəaliyyət göstərməsini ifadə edir. Konstitusiya dövlətin ali hüquqi qüvvəyə malik normativ aktı kimi dövlət hakimiyyətinin təşkilini, insan və vətəndaş hüquqlarını, dövlətin əsas məqsəd və vəzifələrini müəyyənləşdirir.

Konstitusion dövlətçilik aşağıdakı əsas prinsiplərə söykənir:

- Hüquqi dövlət prinsipi - qanunun aliliyi, hər kəsin qanun qarşısında bərabərliyi.
- Hakimiyyət bölgüsü prinsipi - qanunverici, icra və məhkəmə hakimiyyətinin müstəqilliyi və qarşılıqlı balansı.
- İnsan və vətəndaş hüquqlarının üstünlüyü - dövlətin fəaliyyətinin əsas məqsədinin insan hüquqlarının təminatı olması.
- Demokratik idarəçilik - xalq hakimiyyətinin həyata keçirilməsi və siyasi plüralizmin mövcudluğu.

Konstitusion dövlətçilik tarixi Avropa siyasi-fəlsəfi düşüncəsindən qaynaqlanır. John Loke, Montesquieu və Russo kimi mütəfəkkirlər konstitusionalizm ideyasının nəzəri əsaslarını qoymuş, dövlətin hüquqla məhdudlaşdırılmasının vacibliyini əsaslandırmışlar.

Azərbaycanda konstitusionalizm təcrübəsi mövcud olmuşdur. Həm Azərbaycan Xalq Cümhuriyyətinin konstitusiya aktları, həm də respublikamız sovet ittifaqının tərkibində olduğu zaman konstitusiyası qəbul edilmişdir. Sovet İttifaqı dövründə yazılan konstitusiya heç də ölkəmizin maraqlarını, onun milli özünəməxsusluğunu əks etdirməmişdir. Əslində, bu sənəd Azərbaycan üçün sırf formal səciyyə daşımışdır. Bunu həmin sənəddə milli atributların, dövlət dili ilə bağlı maddənin əks olunmaması da təsdiq edir.

Azərbaycan xalqı müstəqilliyi asanlıqla əldə etməmişdir. Bu yolda çox şəhidlər vermiş, çox itkilərlə üzləşmişdir. Müstəqilliyimizin ilk illərində məhz dövlətçilik prinsiplərinin yoxluğu, ölkəmizin dünya hüquq sistemində mövqelərini möhkəmlətməyə nail olmaması onun erməni separatçıları tərəfindən başladılan haqsız ərazi iddialarına tutarlı cavab verə bilməməsi ilə nəticələnmişdi. Hesab etmək olar ki, ölkənin Əsas Qanunu onun hüquq sistemində nüvə rolunu oynayır. Həmin dövrdə müstəqil Azərbaycanın Konstitusiyasının olmaması ölkədə digər qanunların tam gücü ilə işləməməsinə gətirib çıxarırdı. Çünki SSRİ dövründə qəbul edilən Azərbaycan Konstitusiyası, ona edilən dəyişikliklərə baxmayaraq, müstəqil dövlətin reallıqlarını əks etdirə bilmirdi. Hüquq sisteminə, cəmiyyətə nizamı yalnız Konstitusiya gətirə bilərdi. Bu nizamın yaradılması isə hər bir xalqın, ölkənin həyatında tarixi nailiyyətdir. Dağlıq Qarabağ münaqişəsi, ölkədə baş verən siyasi proseslər dövləti konstitusional hüquq quruculuğundan uzaqlaşdırırdı. Müasir dövrdən baxdıqda, Azərbaycanın həmin illərdə necə mürəkkəb vəziyyətə düşməsini daha yaxşı anlamaq olur.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiya layihəsinin hazırlanması üçün Konstitusiya Komissiyası yaradılmışdı. Həmin dövrdə Ulu Öndər ölkədə gedən mürəkkəb siyasi proseslərə baxmayaraq, bu komissiya qarşısında qoyulan vəzifələrin yerinə yetirilməsinə nail oldu. Azərbaycanda sabitliyə böyük təhdidlərin olmasına rəğmən, Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan demokratik ölkə quruculuğunu qarşısına məqsəd qoymuşdu. Ulu Öndərin rəhbərliyi altında hazırlanan müstəqil Azərbaycanın ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul edilmişdir. Bu tarixi hadisə Azərbaycanda yeni konstitusionalizm nəzəriyyəsi və praktikasının formalaşmasının əsasını qoydu. Ümummilli Lider bu konstitusiya ilə Azərbaycanın çox-çox illər öncəyə inkişafının təməlini yaratdı. Bu ali sənədi hazırlayarkən Ulu Öndər ölkəmizin gələcəyinin uğurlu olacağına inanırdı. Bunun üçün Heydər Əliyev dövlətçiliyin möhkəmləndirilməsinin, Azərbaycanın pozulmuş ərazi bütövlüyünün bərpasının vacib amillər olduğunu vurğulayırdı.

Dəyişilən sosial-siyasi reallıq səbəbindən və əldə olunan uğurların möhkəmləndirilməsi məqsədilə Azərbaycan Konstitusiyasında bir neçə dəfə dəyişiklər edilib və əlavələr olunub. 2002-ci il avqustun 24-də referendum yolu ilə konstitusiyanın 24 maddəsində 29, 2009-cu il martın 18-də isə 25 maddəyə 30-dan artıq əlavə və dəyişiklik olunub. Bu dəyişikliklər Azərbaycan dövlətinin sosial-iqtisadi bazasının daha da güclənməsindən, vətəndaşların hüquq və azadlıqlarına daha etibarlı təminat verilməsindən, sosial dövlət prinsiplərini təsbit etmək imkanlarının daha da genişlənməsindən irəli gəlirdi.

Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla konstitusiyada üçüncü dəfə əlavələr və dəyişikliklər edilib. Konstitusiyanın 29 maddəsində edilən 41 əlavə və dəyişiklik müxtəlif sahələri əhatə etməklə, ali dövlət hakimiyyəti, məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan hüquqları və azadlıqlarının daha səmərəli təmin edilməsinə, hüquq və azadlıqların müdafiəsində dövlət və bələdiyyələrin məsuliyyətinin artırılmasına yönəlmişdir.

Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanın demokratik dünya birliyinə inteqrasiyasını sürətləndirir və bu istiqamət ölkəmizin əsas prioritetidir. Konstitusiyamıza əsasən, Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Bundan əlavə, 30 ilə yaxındır öz yurdlarından məcburi köçürülmüş vətəndaşlarımızın öz torpaqlarına qayıtması onların pozulmuş mülkiyyət hüquqlarının bərpasına da şərait yaradacaq. Rəşadətli Azərbaycan Ordusunun apardığı uğurlu əməliyyatlar xalqımızın əsas konstitusion hüquqlarından biri olan təhlükəsiz yaşamaq hüququnun da bərpa olunmasının əsasını qoydu. Bütün Azərbaycan xalqı Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək düşmən üzərində şanlı zəfərə doğru birgə addımlayaraq, işğaldan azad edilmiş torpaqlarımızda dövlət bayrağımızın ucaldılmasına və Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsinin bərpasına nail oldu.

Konstitusion dövlətçiliyin mühüm şərtlərindən biri vətəndaş cəmiyyətinin inkişafıdır. Vətəndaş cəmiyyəti dövlətlə yanaşı mövcud olan, insanların sərbəst birləşmələri və təşəbbüsləri əsasında fəaliyyət göstərən ictimai münasibətlər sistemidir. Azərbaycan Respublikasında vətəndaş cəmiyyətinin inkişafı üçün müxtəlif institutlar - siyasi partiyalar, qeyri-hökumət təşkilatları, gənclər birlikləri fəaliyyət göstərir. Bu institutların fəaliyyəti konstitusiya və qanunvericiliklə təmin olunmuşdur.

Azərbaycan Konstitusiyası dövlətin ali hüquqi aktı olmaqla bütün qanunvericiliyin əsasını təşkil edir. Konstitusiyanın 12-ci maddəsinə görə, dövlətin ali məqsədi insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsidir. Konstitusiya dövlət hakimiyyətinin təşkili, idarəetmə sistemi, iqtisadi və sosial həyatın əsas prinsiplərini müəyyən edir. Burada həmçinin dövlətin demokratik, hüquqi və unitar xarakter daşıdığı göstərilir.

Konstitusiyanın 7-ci maddəsinə əsasən, Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyət bölgüsü prinsipi əsasında təşkil olunur. Qanunverici hakimiyyəti - Milli Məclis, icra hakimiyyətini - Prezident, məhkəmə hakimiyyətini isə müstəqil məhkəmələr həyata keçirir. Hakimiyyət bölgüsü prinsipi dövlət hakimiyyətinin mərkəzləşməsinin qarşısını alır və balanslaşdırılmış idarəçilik sistemini təmin edir. Konstitusiya Məhkəməsi Konstitusiyanın qorunmasının əsas təminatçısıdır. Bu məhkəmə qanunların və digər normativ aktların konstitusiyaya uyğunluğunu yoxlayır. Bununla da hüquqi dövlətin əsas prinsipi - qanunun aliliyi - təmin olunur. Azərbaycan Konstitusiyası insan hüquqlarının qorunması və dövlət quruculuğu prinsiplərinə görə beynəlxalq hüquqi normalara uyğundur. Avropa İnsan Hüquqları Konvensiyası, BMT-nin İnsan Hüquqları Bəyannaməsi ilə Azərbaycan qanunvericiliyi arasında uyğunluq müşahidə edilir.

Konstitusiyanın hüquqi üstünlüyü onun digər bütün normativ-hüquqi aktlardan ali hüquqi qüvvəyə malik olması ilə şərtlənir. Onun müddəaları ilə ziddiyyət təşkil edən hər hansı qanun və ya normativ akt etibarsız sayılır. Bu da konstitusion dövlətçiliyin təməl prinsiplərindən biridir. Konstitusiya Məhkəməsi konstitusionalizmin əsas təminatçılarından biridir. Azərbaycan Respublikasında Konstitusiya Məhkəməsi 1998-ci ildə yaradılmışdır və Konstitusiyanın ali hüquqi qüvvəsini qorumaq məqsədilə fəaliyyət göstərir. Konstitusiya Məhkəməsinin əsas vəzifəsi qəbul olunmuş qanunların, prezident fərmanlarının, hökumət qərarlarının və digər normativ aktların Konstitusiyaya uyğunluğunu yoxlamaqdır. Əgər hər hansı akt Konstitusiyaya zidd olarsa, həmin akt etibarsız hesab edilir. Bu da hüquqi dövlətin əsas prinsipi olan qanunun aliliyinin təmin edilməsinə xidmət göstərir. Bundan əlavə, Konstitusiya Məhkəməsi hüquqi münasibətlərin düzgün izahı və tətbiqi ilə bağlı rəsmi şərhlər verir. Bu şərhlər məhkəmələr, dövlət orqanları və vətəndaşlar üçün məcburidir. Beləliklə, Konstitusiya Məhkəməsi hüquqi sabitliyin və hüquqi müəyyənliyin əsas qarantı kimi çıxış edir.

Konstitusion dövlətçilik anlayışına nəzər saldıqda görürük ki, o, yalnız konstitusiyanın mövcudluğu ilə məhdudlaşmır. Konstitusion dövlətçilik - dövlət hakimiyyətinin hüquqla məhdudlaşdırılması, vətəndaşların fundamental hüquq və azadlıqlarının təmin olunması, hakimiyyət bölgüsü və hüquqi dövlət prinsiplərinin real həyatda işləməsi deməkdir. Azərbaycan Konstitusiyası ölkənin müstəqillik dövründə dövlət quruculuğunun hüquqi bazasını formalaşdırmış, insan və vətəndaş hüquqlarını ali dəyər kimi təsbit etmişdir.

İkinci mühüm məqam, konstitusion dövlətçilik institutlarının inkişafıdır. Dövlət hakimiyyətinin bölgüsü, məhkəmə hakimiyyətinin müstəqilliyi, Konstitusiya Məhkəməsinin fəaliyyətinin gücləndirilməsi, parlament institutunun inkişafı və yerli özünüidarəetmə orqanlarının formalaşdırılması bu istiqamətdə əhəmiyyətli addımlar kimi qiymətləndirilməlidir. Bu institutlar vasitəsilə dövlətin hüquqi və demokratik əsaslarda fəaliyyət göstərməsi təmin olunur.

Konstitusion dövlətçilik anlayışını yalnız dövlətin hüquqi quruluşu ilə məhdudlaşdırmaq olmaz. Bu anlayış həm də vətəndaş cəmiyyəti institutlarının inkişafını nəzərdə tutur. Vətəndaş cəmiyyəti - insanların könüllü birləşmələri, ictimai birliklər, siyasi partiyalar, qeyri-hökumət təşkilatları vasitəsilə formalaşır və dövlətin nəzarətindən kənarda müstəqil fəaliyyət göstərir. Hüquqi dövlət və vətəndaş cəmiyyəti qarşılıqlı əlaqə içindədir. Dövlət vətəndaş cəmiyyətinin hüquqi çərçivəsini müəyyən edir, vətəndaş cəmiyyəti isə dövlətin fəaliyyətinə ictimai nəzarəti həyata keçirir. Beləliklə, konstitusion dövlətçilik həm də dövlət və cəmiyyət münasibətlərinin hüquqi əsasda tənzimlənməsini nəzərdə tutur.

Müasir qlobal siyasi mühitdə dövlətlərin suverenliyi çoxsaylı təhdidlərə məruz qalır: beynəlxalq terrorizm, informasiya müharibələri, iqtisadi təzyiqlər, regional münaqişələr. Ölkəmiz də uzun illər bu təhdidlərin bir çoxu ilə üzləşmişdir. Azərbaycanın tarixi Zəfəri - 2020-ci il Vətən müharibəsi, dövlətin suveren hüquqlarını təmin etməsinin bariz nümunəsi oldu. Bu kontekstdə "Konstitusiya və Suverenlik İli"nin elan olunması milli iradənin möhkəmləndirilməsi, dövlətin hüquqi əsaslarının daha da inkişaf etdirilməsi üçün mühüm əhəmiyyət daşıyır. Bu addım həm də vətəndaşların konstitusiya dəyərlərinə bağlılığını gücləndirmək, dövlətçiliyin fəlsəfi mahiyyətini ictimai şüurda daha aydın formalaşdırmaq məqsədi daşıyır.

Azərbaycanda konstitusion dövlətçilik və suverenlik anlayışları bir-birini tamamlayan iki əsas sütun kimi çıxış edir. Bu anlayışlar müasir dövlətçiliyin yalnız hüquqi və inzibati tərəflərini deyil, həm də xalqın tarixi yaddaşını, milli kimliyini və gələcəyə yönəlmiş strateji hədəflərini ifadə edir. Azərbaycan xalqı əsrlər boyu müstəqillik uğrunda mübarizə aparmış, suverenlik idealını qoruyub saxlamış və nəhayət, müasir konstitusiyanın qəbul olunması ilə bu idealları hüquqi müstəviyə keçirmişdir.

"Konstitusiya və Suverenlik İli"nin elan edilməsi bu baxımdan tarixi və məntiqi bir addımdır. Bu qərar Azərbaycan dövlətinin siyasi iradəsinin və milli birliyinin təntənəsidir. Bu təşəbbüsün fəlsəfəsi ondan ibarətdir ki, müstəqillik yalnız formal atributlarla ölçülmür; müstəqilliyin həqiqi mənası xalqın suveren iradəsinin qorunması, dövlətin hüquqi təməllərinin möhkəmləndirilməsi və vətəndaşların hüquq və azadlıqlarının təmin olunmasıdır.

Geniş mənada, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması Azərbaycan cəmiyyətinə bir neçə mühüm mesaj verir:

Birincisi, tarixi yaddaşın möhkəmləndirilməsidir. Xalqımızın keçmişdə müstəqillik uğrunda apardığı mübarizələr, xüsusilə 1918-1920-ci illərdə Xalq Cümhuriyyətinin təcrübəsi və 1991-ci ildə bərpa olunmuş müstəqillik, bugünkü konstitusion dövlətçiliyin təməl daşlarıdır.

İkincisi, hüquqi dövlətin inkişafıdır. Konstitusiya və suverenlik məsələlərinin xüsusi vurğulanması, dövlət orqanlarının fəaliyyətində hüququn aliliyini və vətəndaş cəmiyyətinin inkişafını daha da aktuallaşdırır.

Üçüncüsü, cəmiyyətin hüquqi-mənəvi şüurunun yüksəldilməsidir. "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilən tədbirlər, maarifləndirmə proqramları və ictimai müzakirələr vətəndaşlarda dövlətə, qanuna və milli ideyalara daha güclü bağlılıq formalaşdırır.

Dördüncüsü, gələcək nəsillərə mesajdır. Azərbaycan gəncliyi anlamalıdır ki, müstəqillik təsadüfi qazanılmayıb, o, qan və fədakarlıq bahasına əldə olunub. Konstitusiya və suverenlik isə bu qazancların qorunması üçün ali dəyərlərdir.

Beynəlxalq kontekstdə də bu təşəbbüs xüsusi önəm daşıyır. Dünyada dövlətlərin suverenliyi müxtəlif təhdidlərə məruz qalarkən, Azərbaycan öz konstitusion dayaqlarına söykənərək həm daxili sabitliyi, həm də xarici siyasətdə müstəqil mövqeyini qorumağı bacarır. Bu baxımdan, "Konstitusiya və Suverenlik İli" Azərbaycanın beynəlxalq aləmdə suverenlik və hüquqi dövlətçilik nümunəsi kimi təqdim olunmasına da xidmət edir.

Nəticə etibarilə müasir Azərbaycanda konstitusion dövlətçilik yalnız hüquqi kateqoriya deyil, milli ideologiyanın əsas mənbəyi, dövlətin inkişaf modelinin fəlsəfi dayağıdır. Suverenlik isə həmin ideologiyanın siyasi və hüquqi reallıqda təsdiqidir. Bu iki anlayışın vəhdəti Azərbaycan dövlətçiliyinin möhkəmliyini, xalqın milli birliyini və ölkənin dayanıqlı inkişafını təmin edir.

"Konstitusiya və Suverenlik İli"nin fəlsəfi mahiyyəti ondan ibarətdir ki, dövlətçilik dəyərləri sadəcə siyasi tarixdə deyil, həm də gündəlik həyatın, ictimai münasibətlərin, hüquqi mədəniyyətin əsas hərəkətverici qüvvəsinə çevrilsin. Azərbaycan xalqı bu dəyərlərə sahib çıxmaqla həm öz müstəqilliyini möhkəmləndirir, həm də gələcək nəsillərə güclü, suveren və hüquqa söykənən dövlət miras qoyur.

***İlham ƏLİYEV,***
***hüquq üzrə fəlsəfə doktoru, dosent***

# Dövlət suverenliyi milli sərvətimizdir

# Müasir çağırışlar və konseptual əsaslar



**Azərbaycan Respublikasında aparılan hüquqi və iqtisadi islahatlar dövlət idarəetmə sisteminin köklü dəyişikliyinə səbəb olmuşdur. Vətəndaşlara şəffaf, operativ xidmətlərin göstərilməsini, onların daha əlçatan və keyfiyyətli olmasını təmin etmək üçün dövlət və bələdiyyə idarəçiliyində islahatlar həyata keçirilərək cəmiyyətin tələbatına uyğun dövlət və bələdiyyə idarəçilik sistemi formalaşdırılmışdır. Ümummilli Lider Heydər Əliyevin xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra onun rəhbərliyi altında Azərbaycan Respublikası Konstitusiyasının hazırlanması və 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul olunması bu prosesin başlanğıcını qoydu. Bununla da dövlət və bələdiyyə idarəçiliyində islahatların həyata keçirilməsinə start verildi. 2025-ci il Azərbaycanın tarixində xüsusi bir önəmə malikdir, çünki bu il "Konstitusiya və Suverenlik İli" elan edilib. Bu il həm də Azərbaycan Respublikası Konstitusiyasının qəbulunun 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümüdür. Konstitusiya ölkənin dövlət quruluşunu, vətəndaşların hüquqlarını və vəzifələrini müəyyənləşdirən ən ali qanun olmaqla, Azərbaycanın müstəqilliyinin və suverenliyinin təminatçısıdır.**

Ölkəmiz suverenlik əldə etdikdən, müstəqilliyin bərpasından sonra yeni iqtisadi şəraitdə, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna müvafiq keçid dövründə dövlət aparatının, dövlət idarəetmə sisteminin yenidən qurulması və dövlət qulluğunun formalaşması mərhələsinə başlanıldı. İslahatların həyata keçirilməsində Ümummilli Lider Heydər Əliyevin "Hüquqi islahatlar komissiyasının yaradılması haqqında" sərəncamının (1996) və "Dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında" fərmanının (1998) müstəsna rolu olmuşdur. Azərbaycan Respublikasının Konstitusiyası müasir sivil dünyada qəbul edilmiş normaya uyğun olaraq hakimiyyətin üç hissəyə bölünməsini təsdiqləməklə dövlət idarəçiliyinin ümumi prinsiplərini də müəyyən etdi. Son onilliklərdə Azərbaycanda iqtisadi, siyasi, sosial, hüquqi sahələrdə köklü dəyişikliklər aparılıb, hakimiyyət sistemində, mülkiyyət münasibətlərində yenidənqurma prosesi gedib, müasir dövlət qulluğu institutu formalaşıb.

XX əsrin sonunda dünyada baş verən qlobal proseslər, xüsusilə də SSRİ-nin dağılması beynəlxalq aləmdə siyasi mühitin ciddi şəkildə dəyişməsinə və yeni geosiyasi vəziyyətin yaranmasına səbəb oldu. Sovet İttifaqının parçalanmasından sonra yaranmış dövlətlər müstəqilliyini elan etməyə başladı. Konstitusiya hər bir dövlətdə qanunun əsas mənbəyidir, ölkənin hüquq sisteminin əsasını təşkil edir.

XX əsrin son on illiyində və XXI əsrin əvvəllərində müxtəlif ölkələrdə çoxsaylı konstitusiya islahatları keçirilib. Bu dövrdə qloballaşma prosesləri xüsusən milli hüquq sistemlərinə təsir edir, onların dərinliyi daha çox konstitusiya normaları səviyyəsində fundamental dəyişikliklərin başlanmasına potensial imkan yaradır və hətta bu proseslər qaçılmaz olur.

Son bir neçə il ərzində dövlət orqanları işinin təkmilləşdirilməsi, vətəndaşların rifahının artırılması və məmnunluq səviyyələrinin yüksəldilməsi üçün dövlət qulluğunun modernizasiyası prosesi aparılır, habelə beynəlxalq təcrübə tətbiq edilir.

Azərbaycanda konstitusiya, müstəqillik və suverenlik, dövlətin hüquqi əsaslarını təşkil edən və onun gələcək inkişafını təmin edən mühüm amillərdir. Müstəqilliyinin bərpasından sonra Azərbaycan özünün suverenliyini və ərazi bütövlüyünü qorumaq, beynəlxalq aləmdə öz yerini tutmaq məqsədilə bir çox hüquqi və siyasi islahatlar həyata keçirmişdir. Bu islahatların əsasını isə Azərbaycan Respublikasının Konstitusiyası təşkil edir. 1995-ci ildə qəbul edilmiş Əsas Qanunumuz ölkənin siyasi və hüquqi həyatını müəyyənləşdirən, vətəndaşların hüquq və azadlıqlarını təmin edən mühüm bir sənəd olaraq, Azərbaycan xalqı üçün tarixi bir əhəmiyyət daşıyır.

Azərbaycan Respublikasının Konstitusiyası, müstəqil dövlət quruluşunun və suverenliyin hüquqi əsaslarını möhkəmləndirən bir sənəd kimi, dövlətin hüquq sisteminə və idarəetmə strukturlarının formalaşmasına böyük təsir göstərmişdir. Bununla yanaşı, ölkənin beynəlxalq aləmdəki mövqeyi, Azərbaycan dövlətinin müstəqil siyasətini həyata keçirməsi, beynəlxalq hüquq və dünya ictimaiyyəti ilə əlaqələrinin inkişafı da Əsas Qanunun tətbiqi ilə daha da möhkəmlənmişdir.

2025-ci ilin "Konstitusiya və Suverenlik İli" olaraq elan edilməsi, Azərbaycanın Konstitusiyasına və suverenliyinə verilən önəmin daha da artırılması məqsədini güdür. Bu illik təqvim, ölkənin konstitusiyasının təbliğinə, vətəndaşların hüquqlarının daha da qorunmasına və ölkənin suverenliyinin möhkəmləndirilməsinə yönəlmiş bir il olaraq təbliğ ediləcəkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında Azərbaycan həm daxildə, həm də xaricdə öz mövqeyini daha da gücləndirmişdir. Prezident İlham Əliyev Azərbaycanın Konstitusiyasına və dövlət suverenliyinə sadiq qalaraq, bu prinsiplərin gücləndirilməsini öz fəaliyyətində daim ön planda tutmuşdur. Onun çıxışlarında və fəaliyyətində xalqımızın hüquqlarının qorunması, ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün təmin edilməsi məsələləri daim əks olunmuşdur.

Azərbaycanın Konstitusiyası müstəqillik tariximizin ən mühüm hüquqi sənədidir və ölkənin siyasi, iqtisadi və hüquqi inkişafını istiqamətləndirən əsas qaydaları müəyyən edir. Xalqımızın müstəqillik uğrunda apardığı mübarizəsinin nəticəsi olaraq, Azərbaycan 34 il öncə, 1991-ci ildə Sovet İttifaqının tərkibindən çıxaraq müstəqilliyini elan etdi. Lakin müstəqillik qazandıqdan sonra hüquqi və siyasi əsasların formalaşması ölkəmiz üçün ən mühüm vəzifələrdən biri oldu. Bu müddət ərzində Azərbaycan rəhbərliyi ölkə daxilindəki hüquq və idarəetmə strukturlarını tənzimləyən yeni qanunvericilik çərçivələrinin hazırlanmasına və tətbiqinə başladı .

Əsas Qanunumuz ilk dəfə 1995-ci ildə qəbul edildikdən sonra ölkə üzərində möhkəm hüquqi təməl quruldu. Konstitusiyanın qəbul olunması ilə Azərbaycan demokratik və hüquqi dövlət quruculuğu yolunda mühüm bir addım atdı. Həmin dövrün tarixi şəraiti, beynəlxalq hüquqla əlaqələrinin təkmilləşdirilməsini və suverenliyin qorunmasını da nəzərdə tuturdu. 1995-ci ilin Konstitusiyası Azərbaycan Respublikasının suverenliyini təsdiqləyərək, dövlətin müstəqilliyini, ərazi bütövlüyünü və siyasi müstəqilliyini əks etdirən əsas sənəd oldu.

Ümummilli Lider Heydər Əliyev deyirdi: "Bizim yeni Konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixini, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir".

Azərbaycanda Konstitusiyanın qəbul edilməsindən sonra hüquq sistemində həyata keçirilən islahatlar ölkənin idarəetmə formasına və vətəndaşların hüquqlarının qorunmasına yönəldildi. Konstitusiya vətəndaşların fundamental hüquqlarını və azadlıqlarını təmin etmək, eyni zamanda dövlətin yüksək orqanlarının fəaliyyətini tənzimləmək məqsədini güdür. Bu hüquqi sənəd eyni zamanda Azərbaycan xalqının suverenliyini təmin etmək, müstəqil dövlət quruluşunu qorumaq və ölkənin gələcək inkişafını təmin etmək baxımından vacib əhəmiyyətə malikdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də 2003-cü ildən etibarən rəhbərlik etdiyi dövrdə konstitusiyanın prinsip və dəyərlərini qorumağa, inkişaf etdirməyə və müasir dövrün tələblərinə uyğunlaşdırmağa xüsusi diqqət yetirmişdir. Dövlətimizin başçısı Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü təmin edən mühüm təşəbbüslər irəli sürmüş, beynəlxalq aləmdə ölkənin hüquqi mövqeyini gücləndirmişdir. Onun fəaliyyətində konstitusiyanın əsas dəyərləri daim vurğulanmış və ölkənin inkişafında bu prinsiplərin əhəmiyyəti önə çıxarılmışdır.

Azərbaycanda suverenlik ölkənin müstəqilliyi və ərazi bütövlüyü ilə sıx əlaqəlidir. Konstitusiya dövlətin suverenliyini təmin etmək və ölkənin beynəlxalq aləmdə öz yerini möhkəmləndirmək məqsədini güdür. Əsas Qanunumuz ölkənin suverenliyinin təməl prinsiplərini müəyyən edir və müstəqil dövlət quruluşunun əsasını təşkil edir. Bu sənəd ölkənin daxili və xarici siyasətində müstəqilliyini, xalqın iradəsini əsassız müdaxilələrdən qorumağa xidmət edir.

Dövlətin suverenliyi eyni zamanda beynəlxalq hüquq və müvafiq konvensiyalarla təsbit olunmuş bir hüquq olaraq ölkənin siyasi müstəqilliyini təmin edir. Azərbaycanın konstitusiyası həmçinin dövlətin suverenliyini qorumağa yönəlmiş daxili və xarici siyasət strategiyalarını tənzimləyir. Əsas Qanunda Azərbaycanın beynəlxalq münasibətlərdəki mövqeyi, digər dövlətlərlə əlaqələri və ölkənin müstəqil siyasətini həyata keçirməsi də öz əksini tapır.

Prezident İlham Əliyevin çıxışlarında Azərbaycanın suverenliyinin qorunması məsələsi daim prioritet olaraq qalmışdır. Onun rəhbərliyi altında respublikanın beynəlxalq aləmdəki mövqeyi güclənmiş, ölkə dünya siyasətində öz suverenliyini daha da təbliğ etmişdir. Cənab İlham Əliyev həmçinin Azərbaycanın hüquqi və siyasi sistemlərinin beynəlxalq hüquqla uyumlu olmasına böyük önəm vermişdir. 12 noyabr 2021-ci ildə Konstitusiya Günü münasibətilə Prezident İlham Əliyev çıxışında Əsas Qanunun müasir dövrün tələblərinə uyğun olaraq daim təkmilləşdirildiyini vurğulamış və ölkənin hüquqi islahatlarının Konstitusiyanın prinsipləri əsasında aparıldığını bildirmişdir: "Konstitusiya dövlətçiliyimizin möhkəmlənməsi və insan hüquqlarının qorunması sahəsində əsas istiqamətverici sənəd kimi daim aktualdır."

Konstitusiyanın suverenliklə əlaqəsi, həmçinin dövlətin müstəqil hüquqi sisteminin formalaşması və vətəndaşların hüquqlarının qorunması ilə bağlıdır. Dövlətin siyasi və hüquqi əsaslarını təkmilləşdirmək, ərazi bütövlüyünü qorumaq və ölkə daxilindəki müxtəlif təbəqələr arasında ədalət prinsiplərinə əsaslanmaq bu sənədin əsas məqsədlərindəndir.

Prezident İlham Əliyev Azərbaycan dövlətinin suverenliyini və müstəqilliyini qorumaq, ərazi bütövlüyünü təmin etmək və ölkənin beynəlxalq mövqeyini möhkəmləndirmək sahəsində çox mühüm addımlar atmışdır. Dövlətimizin başçısının rəhbərliyi altında Azərbaycan beynəlxalq aləmdə öz mövqeyini gücləndirərək, həm regionda, həm də dünya miqyasında öz suverenliyini təsdiqləmişdir. Cənab İlham Əliyevin siyasətinin əsas prinsiplərindən biri ölkənin Konstitusiyasına və onun əsas dəyərlərinə sadiqlikdir. Ölkə rəhbəri Azərbaycanın müstəqilliyini təmin edən və dövlətin hüquqi strukturlarını möhkəmləndirən tədbirləri davamlı olaraq dəstəkləmişdir.

Cənab İlham Əliyev konstitusiyanın və suverenliyin qorunmasını mütəmadi olaraq öz fəaliyyətində və siyasətində ön plana çıxarmışdır. Prezident İlham Əliyev Azərbaycan xalqının iradəsini və müstəqilliyini təhdid edən hər hansı bir xarici müdaxiləyə qarşı prinsipial mövqe sərgiləmiş və ölkənin daxili işlərinə qarışmağa çalışan dövlətlərə qarşı sərt reaksiyalar vermişdir. Azərbaycan Prezidentinin rəhbərliyi ilə dövlətimizin hüquqi və siyasi müstəqilliyi qorunmuş, eyni zamanda ölkənin beynəlxalq aləmdəki rolunu artırmaq üçün müvafiq diplomatik və iqtisadi addımlar atılmışdır.

44 günlük Vətən müharibəsindən sonra cənab İlham Əliyev Vətən müharibəsində əldə edilən qələbə ilə Azərbaycanın ərazi bütövlüyünün bərpa edildiyini və bunun tarixi bir hadisə olduğunu vurğulamışdır. Dövlətimizin başçısı "Azərbaycanın suverenliyi tam təmin edildi, torpaqlarımız işğaldan azad olundu, xalqımızın hüquqları bərpa edildi" sözləri ilə bu qələbənin suverenliyə xidmət etdiyini bildirmişdir.

Azərbaycan liderinin rəhbərliyi altında ölkəmiz regional və beynəlxalq təşkilatlarla əlaqələrini inkişaf etdirmiş, həmçinin siyasi və iqtisadi müstəqilliyini möhkəmləndirmişdir. Prezidentin xarici siyasətinin əsas istiqamətlərindən biri Azərbaycanın müstəqilliyini qorumaqla yanaşı, ölkənin maraqlarını müdafiə etmək və digər dövlətlərlə bərabərhüquqlu münasibətlər qurmaq olmuşdur. Bu siyasət Azərbaycanın beynəlxalq aləmdə daha çox qəbul edilməsinə və hörmətlə qarşılanmasına səbəb olmuşdur. Cənab İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan beynəlxalq təşkilatlar çərçivəsində öz maraqlarını müdafiə etməyə müvəffəq olmuşdur. Bu gün BMT, Qoşulmama Hərəkatı və digər beynəlxalq qurumlarda Azərbaycanın mövqeyi uğurla təbliğ edilir. Məsələn, Qoşulmama Hərəkatına sədrliyi dövründə Azərbaycan ölkənin müstəqilliyini və suverenliyini qorumaqla bağlı mühüm təşəbbüslərlə çıxış etmişdir.

Azərbaycanın suverenliyinin gücləndirilməsi ilə bağlı Prezident İlham Əliyevin irəli sürdüyü təşəbbüslər arasında bir sıra mühüm sahələrə diqqət yetirilmişdir. Bu sahələr arasında enerji siyasəti, nəqliyyat əlaqələrinin inkişafı, sosial və iqtisadi islahatlar və digər strateji sahələr mühüm yer tutur. Cənab İlham Əliyev bu sahələrdə həyata keçirdiyi islahatlarla Azərbaycanın müstəqil və suveren bir dövlət olaraq iqtisadi, sosial və siyasi inkişafını təmin etmişdir.

Ölkə daxilində də Prezident İlham Əliyev Azərbaycanın Konstitusiyasının təkmilləşdirilməsi və hüquqi dövlətin qurulması istiqamətində mühüm addımlar atmışdır. Dövlətimizin başçısı Azərbaycan Konstitusiyasının əsas prinsiplərini dəstəkləyərək, ölkənin inkişafı və sabitliyi üçün hüquqi əsasların gücləndirilməsini prioritet kimi müəyyən etmişdir. Azərbaycanın hüquq sistemi müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etmiş və ölkənin suverenliyinin qorunması təmin edilmişdir.

2025-ci ilin "Konstitusiya və Suverenlik İli" olaraq elan edilməsi Azərbaycanın Konstitusiyasına və suverenliyinə verilən önəmin daha da artırılması məqsədi daşıyır. Bu il Konstitusiyanın qəbulunun 30 illiyi ilə bağlı qeyd ediləcək və ölkənin hüquqi inkişafı və müstəqilliyinin təmin edilməsi sahəsində yeni təşəbbüslər və tədbirlər həyata keçiriləcəkdir. "Konstitusiya və Suverenlik İli" çərçivəsində Azərbaycan xalqının konstitusiya dəyərlərinə sadiqliyi bir daha vurğulanacaq, bu prinsiplərin önəmi təbliğ ediləcək və vətəndaşlar arasında bu dəyərlərə hörmət daha da gücləndiriləcəkdir. Dövlət orqanları və qeyri-hökumət təşkilatları tərəfindən müxtəlif layihələr və konfranslar təşkil ediləcək, konstitusiya və suverenliklə bağlı maarifləndirmə işləri aparılacaqdır.

Azərbaycan Prezidenti "Konstitusiya və Suverenlik İli"nin ölkə üçün mühüm bir il olduğunu və bu ilin dövlətin gələcək inkişafında həlledici rol oynayacağını bəyan edib. Bu il çərçivəsində ölkənin hüquqi və siyasi sistemlərinin daha da möhkəmləndirilməsi, vətəndaşların hüquqlarının qorunması və müstəqil dövlət quruluşunun təmin edilməsi istiqamətində bir sıra addımlar atılacaqdır.

Prezident İlham Əliyev dövlət idarəetməsinin cəmiyyət üzvlərinin maraqları çərçivəsində həyata keçirilməsinin təmin olunması istiqamətində prinsipial addımlar atılmasını xüsusi nəzarətdə saxlayır. "Azərbaycan dövləti sosial dövlətdir, çünki siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Bu gün də belədir, gələcəkdə də belə olacaqdır… Bizim bütün işimizin mərkəzində, təməlində Azərbaycan vətəndaşı dayanır və Azərbaycan vətəndaşının rahat, rifah içində yaşaması bizim başlıca borcumuzdur" deyən Prezident İlham Əliyev dövlət siyasətinin təməlində vətəndaş mövqeyinin əhəmiyyətini vurğulayıb. Dövlətimizin başçısı Böyük Britaniyanın "The Business Year" jurnalına müsahibəsində bununla bağlı xüsusi qeyd edib: "Bizim həyata keçirdiyimiz siyasətin əsasında insan amili, vətəndaşlarımızın rifahı məsələsi dayanır. Bütün addımlarımız, gördüyümüz işlər Azərbaycan xalqının maraqlarına xidmət edir. Təbii ki, xalqımızın etimadı, dəstəyi olmasaydı, biz bu nəhəng planları həyata keçirə bilməzdik". Ölkə rəhbərinin bildirdiyi kimi, xalqın maraqları, ictimaiyyətin rəyi hər zaman öyrənilmə obyekti olmaqla bərabər, dövlət idarəçiliyinin əsasında dayanır.

Azərbaycan Respublikasında islahatların başlıca istiqamətini cəmiyyət üzvlərinin maraqlarına cavab verən, onların istək və tələblərini dəqiqliklə nəzərə ala bilən dövlət idarəetmə sisteminin yaradılması təşkil edir. Vətəndaşlara göstərilən dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi də demokratik islahatların vacib istiqamətlərindən birini təşkil edir. Yeni Azərbaycan Partiyası ölkəmizdə həyata keçirilən demokratikləşmə strategiyasında əsas aparıcı qüvvə olmaqla vətəndaş cəmiyyəti quruculuğu prosesinə töhfələr verir. Demokratik prinsiplərə sadiqliyi ilə diqqət çəkən Azərbaycanda bu istiqamətdə həyata keçirilən islahatların uğurlu nəticələri göz qabağındadır. Respublikamızda formalaşan qanunvericilik bazasının təkmilləşdirilməsi, icra mexanizmlərinin tənzimlənməsi, çoxpartiyalı sistemin inkişaf etdirilməsi, insanlara sərbəst toplaşmaq azadlıqlarının verilməsi Azərbaycan demokratiyasının davamlı inkişafından xəbər verir. Bu gün müstəqil ölkəmiz öz siyasətini bu möhkəm təməl üzərində qurub. İnsan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunması dövlətin siyasətində prioritet məsələdir. Azərbaycanda qanunvericilik bazasının daha da təkmilləşdirilməsi, icra mexanizmlərinin dövrün tələblərinə uyğun yenilənməsi və tənzimlənməsi, daha çevik idarəetmə mexanizminin formalaşması, çoxpartiyalı sistemin və vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi, insanların sərbəst toplaşmaq azadlıqlarının təmin edilməsi demokratiyanın dinamik inkişafını təsdiq edən təkzibedilməz şərtlərdir. Bu gün Azərbaycanda insan hüquq və azadlıqlarının yüksək səviyyədə təmin edilməsi dövlət siyasətinin prioritet məsələsidir.

Nəticə olaraq, Azərbaycanın konstitusiyası və suverenliyi, dövlətin vətəndaşlarının hüquqlarını qorumaqla yanaşı, ölkənin gələcəkdə də müstəqil və güclü dövlət kimi mövcudluğunu təmin edəcək mühüm amillərdir. 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" çərçivəsində həyata keçiriləcək tədbirlər, bu prinsipləri gələcək nəsillərə çatdırmaq, vətəndaşların konstitusiya dəyərlərinə sadiqliyini artırmaq və Azərbaycanın hüquqi müstəqilliyini təbliğ etmək üçün mühüm bir fürsət təqdim edir. Bu tədbirlər ölkənin gələcək inkişafında həm daxili, həm də xarici siyasətdəki mövqeyində daha böyük uğurlara yol açacaqdır.

***Murtəza HƏSƏNOĞLU,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Konstitusiya və Suverenlik İli 2025



**Uğurlu antiterror əməliyyatının aparıldığı gün - 20 sentyabr təqvimimizdə əbədi olaraq Dövlət Suverenliyi Günü kimi bayrama çevrilib. Prezident İlham Əliyev 2024-cü il sentyabrın 19-da "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" sərəncam imzalayıb. 2023-cü il sentyabrın 20-si ölkəmizin suverenliyinə tam nail olduğumuz gündür. Uğrunda minlərlə canın qurban getdiyi müstəqilliyimizin rəmzi olan üçrəngli ay-ulduzlu bayrağımızın bütün ərazilərilərimizdə dalğalanmağa başladığı gündür.**

# Qələbəyə inamla...

Bu gün qürurla, sevinclə qeyd etdiyimiz gündür. Dövlət Suverenliyi Günü kimi tariximizə yazılan o gün keçirdiyimiz hisslər unudulmazdır. Hər bir azərbaycanlı həyacanlı idi. Yenə bütün qəlbimiz, ruhumuz Qarabağdaydı. Orada qəhrəman Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə lokal xarakterli antiterror əməliyyatı aparırdı.

O zaman böyük Zəfərimizin üçüncü ildönümünə hazırlaşırdıq. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlamış və 44 gün davam etmişdi. Azərbaycanın qüdrətli ordusu Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı Qarabağda, Şərqi Zəngəzurda böyük rəşadət göstərmişdi. Nə işğalçı Ermənistan, nə də onun xarici havadarları bu zərbələri gözləmirdilər. Doğrudur, Azərbaycanın bütün sahələrdə inkişaf etdiyini görməmək mümkünsüz idi. Bilirdilər ki, artıq qarşılarında Birinci Qarabağ müharibəsi zamanı olduğu kimi, müstəqilliyini yeni əldə etmiş, keçid dövrünün problemlərinin məngənəsində sıxılmış, öz milli ordusunu qurmağa macal tapmamış, üstəlik, ikili standartlarla üzləşmiş, düşməninə hər cür yardım, silah-sursat verildiyi halda onun vətəndaşlarından ov tüfəngləri belə alınmış ölkə yoxdur. Azərbaycanın çətinlikləri addım-addım keçərək tərəqqi yoluna qədəm qoyduğunu, gündən-günə gücləndiyini, həm daxili, həm də xarici siyasətində qazandığı uğurları gördükcə rəsmi İrəvan işğal etdiyi Azərbaycan torpaqlarını əlində saxlamaq üçün əlacı həmin yerlərdə səngərlər qazmaqda, istehkamlar qurmaqda, himəyadarları olan bir sıra dövlətlər və beynəlxalq təşkilatlar isə bu iki ölkə - Ermənistan və Azərbaycan arasında sülh danışıqlarını uzatmaqda görürdülər. Qarabağ və Şərqi Zəngəzur torpaqlarını əsarət altında saxlamaqla Azərbaycanı işğalla barışdıracaqlarını güman edirdilər.

Azərbaycanın mövqeyi isə aydın və qətiyyətli idi. Dövlətimizin başçısı uca kürsülərdən bəyan edirdi ki, Azərbaycan öz ərazilərində ikinci Ermənistan dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcək. Dövlətimizin, xalqımızın məqsədi, məramı problemin danışıqlar vasitəsilə həll olunması, Qarabağ və Şərqi Zəngəzur torpaqlarının sülh yolu ilə geri qaytarılması idi.

İşğalçılar isə xislətlərindəki məkri, riyakarlığı təxribatlar, terrorlar törətməklə nümayiş etdirirdilər. 1994-cü ilin mayında imzaladığı atəşkəs sazişini Ermənistan tez-tez pozurdu. İşğalçı ölkənin silahlı qüvvələri Azərbaycan Ordusunun mövqelərini və mülki vətəndaşlarının yaşayış yerlərini iriçaplı silahlardan atəşə tuturdu. Nəticədə əsgər və zabitlərimiz, mülki şəxslərimiz şəhid olurdu.

2020-ci il sentyabrın 27-də azğınlığına son qoymayan, beynəlxalq qanunları heçə sayan Ermənistan silahlı qüvvələrinin növbəti təxribatına da Azərbaycan Ordusu gərəkli cavabı verdi. İkinci Qarabağ müharibəsi o gün başladı.

Müharibə zamanı müasir silahlara, hərbi texnikaya malik olan, yüksək peşəkarlıq nümunəsi göstərən Azərbaycan Ordusunu sarsılmaz edən həm də mənəvi gücü idi. Əsgər və zabitlərimiz bilirdilər ki, öz dədə-baba torpaqlarını xilas etmək, otuz ilə yaxın düşmən tapdağı altında inləyən Qarabağı və Şərqi Zəngəzuru işğaldan qurtarmaq naminə döyüşürlər. Və əmin idilər ki, Azərbaycan dövləti və xalqı öz xilaskar ordusunun yanındadır. Odur ki, qəsbkarların üzərinə qətiyyətlə yeridilər. Döyüş meydanında əlləri titrəmədi, addımlarını qətiyyətlə atdılar. Hər biri bir qəhrəman oldu. İşğalçı Ermənistanın silahlı qüvvələri isə Azərbaycan Ordusunun rəşadətini, şücaətini gördükcə sarsıldı. Döyüş meydanında silahını atanlar da oldu, fərarilik edənlər də...

Həmin ilin sentyabr-noyabr aylarında Azərbaycan Silahlı Qüvvələri yeddi bölgəni - Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Ağdam və Laçın rayonlarını, o cümlədən Şuşa şəhərini tamamilə, Xocavənd və Kəlbəcər rayonlarının geniş hissəsini, Xocalı və Tərtər rayonlarının isə bir hissəsini işğaldan azad etdi. 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında imzalanan üçtərəfli Bəyanatla hərbi əməliyyatlar başa çatdı. Azərbaycan Birləşmiş Millətlər Təşkilatı (BMT) Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə nail oldu.

Ermənistan üçtərəfli Bəyanata əsasən, öz qoşunlarını Azərbaycan ərazisindən tam şəkildə çıxarmalı idi. Lakin rəsmi İrəvan üzərinə götürdüyü öhdəliyə əməl etmədi. Əksinə, 2020-ci ildən sonra istehsal edilmiş silah-sursatı, eləcə də minaları qanunsuz yollarla Qarabağın Rusiya sülhməramlılarının nəzarətində olan ərazilərinə daşıdı. 480 kilometrədək təmas xətti boyunca yeni minalanmış ərazilər, 500-dən artıq döyüş mövqeyi və möhkəmləndirilmiş uzunmüddətli atəş nöqtəsi, müxtəlif tipli artilleriya qurğuları üçün 350-dən artıq atəş mövqeyi, kəşfiyyat-müşahidə vasitələri quraşdırdı. Və yenə də Azərbaycan torpaqlarında Ermənistanın təxribatları, terrorları bir kabus kimi dolaşdı, faciələr yaratdı.

Təhlükə gedikcə artırdı. Rusiya Sülhməramlı Kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərimizdə olan qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən 2023-cü il sentyabrın 18-də Tbilisi-Bakı marşrutu üzrə uçuş yerinə yetirən "Azərbaycan Hava Yolları"nın E-190 tipli sərnişin təyyarəsinə saat 20:28-dən 20:34-dək radiomaneələrin tətbiqi GPS naviqasiya sistemlərində fasilə yaranmasına səbəb oldu. Bu barədə Azərbaycanın Müdafiə Nazirliyi məlumat verdi. Nazirlik həmçinin sentyabrın 18-də saat 23:50 və sentyabrın 19-u saat 11:45 radələrində Rusiya Sülhməramlı Kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində olan qeyri-qanuni erməni silahlı dəstələrinin üzvlərinin ordumuzun Ağdam rayonu istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutduğunu bildirdi. Məlumatda bölmələrimiz tərəfindən cavab tədbirləri görüldüyü qeyd edildi.

Həmin gün saat 02:40-da Ermənistan silahlı qüvvələrinin bölmələri Krasnoselo rayonunun Cil yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Gədəbəy rayonunun Novoivanovo yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan bir neçə dəfə atəşə tutulduğu və qeyd olunan istiqamətdə cavab tədbirləri görüldüyü barədə Azərbaycanın Müdafiə Nazirliyi tərəfindən məlumat yaydı.

Sentyabrın 19-da Xocavənd rayonu ərazisində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə məxsus avtomobil minaya düşdü. Sürücü və sərnişin həlak oldu. Həmin gün Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) işçilərinin öldürülməsi ilə nəticələnmiş terror hadisəsinin baş verdiyi yer istiqamətində hərəkət edən polis işçiləri eyni faciə ilə üzləşdilər. Onların da maşını sülhməramlıların müvəqqəti yerləşdiyi ərazidə fəaliyyət göstərən qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən yerləşdirilmiş minaya düşdü. DİN-in 4 polisi həyatını itirdi, 5 polis əməkdaşı isə müxtəlif dərəcəli bədən xəsarətləri aldı.

Qarabağdan ard-arda gələn faciəli xəbərlər yenidən Azərbaycan xalqını kədərləndirmişdi. Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısını almaq, Ermənistan silahlı qüvvələrinin qalıqlarını tərk-silah edərək torpaqlarımızdan çıxarmaq, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunu bərpa etmək üçün rəsmi Bakı növbəti dəfə qətiyyətli qərar verdi. 2023-cü il sentyabrın 19-da saat 13:00-da Azərbaycanın Müdafiə Nazirliyi bəyanat yayaraq Azərbaycanın Konstitusiya quruluşunu bərpa edilməsi məqsədilə Qarabağda antiterror tədbirlərinə başladığını bildirdi. Ordumuzun lokal xarakterli antiterror əməliyyatına başlaması xəbərini hər bir azərbaycanlı alqış və dualarla qarşıladı.

Antiterror əməliyyatı 23 saat 43 dəqiqə çəkdi. Sentyabrın 20-də Azərbaycan xalqı yenə də həyacanla, həsrətlə gözlədiyi müjdəli xəbəri dövlətinin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevdən eşitdi. Həmin gün Prezident, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində senyabrın 19-da səhər erməni silahlı birləşmələrinin törətdikləri terror aktı nəticəsində 6 Azərbaycan vətəndaşının mina terrorunun qurbanı olduğunu qeyd etdi: "Birinci dəfə deyil ki, bizə qarşı Ermənistan terror aktı törədir. İkinci Qarabağ müharibəsi başa çatandan sonra bu günə qədər 300-dən çox Azərbaycan vətəndaşı mina terrorunun qurbanı olmuşdur, ya da ki, ağır yaralanmışdır".

Prezident, Ali Baş Komandan qeyd etdi ki, sentyabrın 19-da törədilmiş terror aktı bu sıradan olan hadisə idi. Dövlətimizin başçısı Laçın sərhəd-buraxılış məntəqəsi qurulmayana qədər İkinci Qarabağ müharibəsindən sonra Ermənistandan Azərbaycanın Qarabağ bölgəsinə qanunsuz olaraq minalar gətirildiyini, müxtəlif yerlərdə basdırıldığını, bir müddət bundan əvvəl Azərbaycan Silahlı Qüvvələri tərəfindən aşkarlanmış minaların Rusiya sülhməramlı kontingentinin və Rusiya-Türkiyə Monitorinq Mərkəzinin nümayəndələrinə göstərildiyini və onlardan ciddi tədbir görülməsinin tələb edildiyini açıqladı. Bildirdi ki, bu minalar 2021-ci ildə Ermənistanda istehsal olunmuş minalardır: "Yəni bu, bir daha onu göstərir ki, İkinci Qarabağ müharibəsindən sonra məqsədyönlü şəkildə Azərbaycana qarşı terror aktlarını həyata keçirmək üçün bu minalar gətirilmişdir".

Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində vurğuladı ki, Azərbaycan dərhal lazımi addımlar ataraq düşməni layiqincə cəzalandırmışdır: "Lokal xarakterli antiterror tədbirlərinə başlanıldı və qarşıda duran bütün vəzifələr cəmi bir gün ərzində yerinə yetirildi. Terrorçular cəzalandırıldı və bir daha Ermənistana göstərildi ki, onların istənilən təxribatına layiqli cavab veriləcəkdir".

Hərbi əməliyyatlar sentyabrın 20-də saat 13:00-da əldə olunan razılığa əsasən dayandırıldı. Əməliyyat nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edildi. Azərbaycanın Müdafiə Nazirliyinin yaydığı məlumatda Qarabağın erməni əhalisinin nümayəndələrinin Rusiya Sülhməramlı Kontingenti vasitəsilə müraciətini nəzərə alaraq şərtlər altında antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olunduğu qeyd edildi. Şərtlərə əsasən, Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoymalı, döyüş mövqelərindən və hərbi postlardan çıxmalı, Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk etməli, qeyri-qanuni erməni silahlı dəstələri buraxılmalı, paralel formada bütün silah-sursat təhvil verilməli və bütün bu proseslər Rusiya Sülhməramlı Kontingenti ilə əlaqələndirilmiş formada aparılması təmin edilməli idi.

Azərbaycan Ordusu peşəkarlığını, qəhrəmanlığını, şücaətini Qarabağda lokal xarakterli antiterror əməliyyatı zamanı yenidən bütün dünyaya göstərdi. Dövlətimizin başçısı xalqa müracətində fəxrlə vurğuladı: "Ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, bizim hərbçilərimiz bir daha qeyd etdiyim kimi, qəhrəmanlıq, peşəkarlıq göstərmişlər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etmişlər. Ermənistan dövlətinin Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş və Ermənistan dövlətinin öhdəliyinə baxmayaraq, bu günə qədər çıxarılmamış ordunun böyük hissəsi tamamilə məhv edilmişdir. Hərbi texnika məhv edilmişdir və sıradan çıxarılmışdır".

Mülki əhalinin təhlükəsizliyinin qorunmasına, ərzaq, tibbi vəsait təminatlarına diqqətlə, həssaslıqla yanaşıldı. Aparılan antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində yaşayan erməni əhalisinin zərbə altına düşməmələri və mülki əhalinin qorunmalı olduğu barədə əvvəlcədən Prezident İlham Əliyev tərəfindən hərbi birləşmələrimizə ciddi tapşırıq verilmişdi. Dövlət başçısı sentyabrın 20-də xalqa müraciətində diqqətə çatdırdı ki, biz həm yüksək dəqiqliyə malik silahlardan istifadə edərək buna nail olduq, eyni zamanda Silahlı Qüvvələrimizin peşəkarlığı nəticəsində mülki vətəndaşlar tamamilə özlərini sığortalanmış vəziyyətdə hiss etmişlər: "Eyni zamanda göstəriş verilmişdir ki, mülki infrastruktura da heç bir zərbə dəyməməlidir, ancaq hərbi infrastruktur sıradan çıxarılmalıdır. Bir daha demək istəyirəm ki, ordumuzun, bütün Silahlı Qüvvələrimizin peşəkarlığı, texniki imkanları bizə bu vəzifəni şərəflə yerinə yetirməyə şərait yaratmışdır və bir daha Azərbaycan əsgəri, zabiti həm yüksək peşəkarlıq, həm də yüksək mənəvi keyfiyyətlər göstərmişdir".

Bölgədə aparılan qısamüddətli lokal xarakterli antiterror tədbirlərində Azərbaycan Ordusunun qələbəsi haqqın, ədalətin növbəti zəfəri idi.

Prezident İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı. "Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı "Allaha şükür" deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əminəm və inanırdıq ki, bu gün gələcək", - dövlətimizin başçısı dedi.

Otuz il həsrətini çəkdiyimiz, düşmənin gəzdiyini düşündükcə hiddətləndiyimiz şəhərdən - Xankəndidən o gün dövlətimizin başçısı bütün Azərbaycan xalqının qürurunu, sevincini ifadə etdi və "...biz bu Qələbəyə layiqik", - dedi.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Dövlət suverenliyinin etibarlı keşikçiləri


















BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4147
Sifariş 1894

Qiyməti 60 qəpik